AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT TƏSNİFATI

CİNAYƏTKARLIĞIN STATİSTİK TƏSNİFATI

AZT 052-2018

RƏSMİ NƏŞR

BAKI - 2018

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 20 fevral 2018-ci il tarixli 180108500004 nömrəli kollegiya qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 27 dekabr 2017-ci il tarixli 16/1 nömrəli kollegiya qərarı ilə təsdiq edilmişdir

AZƏRBAYCAN RESPUBLİKASININ

DÖVLƏT STANDARTI

CİNAYƏTKARLIĞIN STATİSTİK TƏSNİFATI

AZT 052-2018

Azərbaycan Respublikasının Baş Prokurorluğu, Ədliyyə və Daxili İşlər nazirlikləri ilə

razılaşdırılmışdır.

Təsnifat T.Y.Budaqovun rəhbərliyi ilə
Y.X.Yusifov, V.H.Məmmədəlizadə, L.H.Salamzadə , İ.İ.Haqverdizadə və V.N.İsmayılov tərəfindən işlənib hazırlanmışdır.

1. Giriş

1.1. Ümumi baxış

1.1.1. Cinayətlərin Statistik Məqsədlər üçün Beynəlxalq Təsnifatının mahiyyəti və əsas məqsədi

Cinayətlərin Statistik Məqsədlər üçün Beynəlxalq Təsnifatı (CSMBT) beynəlxalq səviyyədə razılaşdırılmış konsepsiyalar, anlayışlar və prinsiplərə əsaslanan, cinayətlər haqqında statistik məlumatların sistemliliyinin və beynəlxalq müqayisəliliyinin təmin edilməsinə, həmçinin istər milli, istərsə beynəlxalq səviyyədə analitik imkanların genişləndirilməsinə yönələn cinayətlərin təsnifatıdır.[1]

CSMBT müxtəlif hüquq və yurisdiksiya sistemlərində statistik məlumatların sistematik tərtibinin və müqayisəliliyinin əsaslarını təmin edir. Bu onu göstərir ki, CSMBT cinayət prosesinin istənilən mərhələsində cinayətkarlıq barədə məlumatların toplanmasının bütün formalarına, o cümlədən cinayət prosesinin iştirakçısı kimi zərər çəkmiş şəxs barədə toplanan məlumatlara tətbiq oluna bilər.

Beynəlxalq səviyyədə CSMBT müxtəlif ölkələr üzrə cinayətkarlıq haqqında məlumatların daha dəqiq müqayisəliliyini təmin edir. Standartlaşdırılmış konsepsiya və anlayışlar məlumatların sistemli toplanmasının, təhlilinin və yayılmasının həyata keçirilməsinə, həmçinin transmilli cinayətlər təhlil edilməsinə və dərindən öyrənilməsinə olan tələblərə cavab verir. CSMBT milli səviyyədə analitik kateqoriyada deyil, davamlı əldə olunan statistik məlumatların toplanılması işinin təşkili və onun struktura uyğun təmin edilməsi üçün model kimi istifadə oluna bilər. Bundan əlavə, CSMBT məlumatların ölkədaxili cinayət mühakiməsini həyata keçirən orqanlar və müxtəlif məlumat mənbələri (inzibati məlumatlar və statistik müayinələr) arasında məlumatların uyğunlaşdırılmasına imkan verir.[2] Analoji olaraq, CSMBT müxtəlif statistik sistemlər və üsullardan istifadə edən ölkədaxili qurumlardan əldə edilən məlumatların standartlaşdırılması üçün vasitə kimi istifadə oluna bilər.

[1] "Cinayətkarlıq" və "Cinayət əməli" terminləri hazırkı sənəddə əvəzlənən kimi tətbiq olunur.
[2] BMT-nin İqtisadi və Sosial Şurası. Statistika Komissiyası. Milli və beynəlxalq səviyyələrdə cinayət statistikasının mümkünlüyünün və keyfiyyətinin təkmilləşdirilməsi üçün yol xəritəsi üzrə Meksika Milli Statistika və Coğrafiya İnstitutunun və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin hesabatı (19 dekabr 2012-ci il). E/CN.3/2013/11.

1.1.2. Cinayətlər üzrə Beynəlxalq Təsnifatın vacibliyi

Cinayətlər haqqında etibarlı statistik məlumatlar cinayətkarlıq səviyyəsində dəyişikliklərin müəyyən olunması, dövlətin cinayətkarlığa reaksiyasının müşahidə olunması, siyasətin qiymətləndirilməsi və müxtəlif kontekstlərdə cinayətkarlığın müxtəlif aspektli izahı üçün böyük əhəmiyyət kəsb edir. Əksər hallarda ilkin məlumatlar cinayət prosesinin müxtəlif mərhələlərində mövcud olur, lakin qərarların qəbul olunmasında istifadə oluna biləcək məlumatların əldə olunması üçün bu məlumatların məqsədyönlü toplanması və statistik rəsmiləşdirilməsi tələb olunur. Əsas çətinlik müqayisəni həyata keçirməyə imkan verə biləcək standartlaşdırılmış konsepsiyalar və beynəlxalq səviyyədə razılaşdırılmış statistik strukturun mövcud olmamasıdır ki, bu da cinayətlər üzrə statistik məlumatları vaxta görə, ölkələrarası və ya digər statistik məlumatlarla qarşılıqlı surətdə müqayisə etməyi çətinləşdirir.[3]

Məsələn, əksər hallarda eyni yurisdiksiya daxilində olan, statistik prinsiplərə deyil, daha çox hüquqi normalara əsaslanan müxtəlif məlumat mənbələri cinayətlər üzrə məlumatların tərtib olunmasında müxtəlif anlayış və konsepsiyalardan istifadə edir.[4] Qanunvericiliklə statistika arasında olan belə sıx və qarşılıqlı əlaqə analitik nöqteyi-nəzərdən problemlər yaradır: belə ki, statistik məlumatlar daha çox hüquqi aktlara (məsələn, qanunlara və ya cinayət məcəllələrinə) görə təşkil edilir və kateqoriyalara ayrılır. Bundan əlavə, qanunvericilikdəki dəyişikliklər vaxt və yurisdiksiyalar üzrə müqayisəliliyi çətinləşdirir, məsələn, eyni əməl müxtəlif ölkələrdə fərqli hüquqi normalara əsasən cinayət kimi tanına bilər, eyni zamanda hər hansı bir əməl bir ölkədə cinayət kimi tanındığı halda, bu əməl digər ölkədə cinayət olaraq qəbul edilmir.

CSMBT məlumatların keyfiyyətini və müqayisəliliyini təkmilləşdirmək üçün metodoloji və statistik standart, həmçinin vahid anlayışlar sistemi ilə təchiz edilməklə bu kimi problemləri həll edir. Cinayətlər üzrə məlumatların dəqiq şəkildə istehsal edilməsini, yayılmasını və təhlil edilməsini təkmilləşdirən təsnifatda cinayətlər məzmunlu və sistemli şəkildə qruplaşdırılmışdır ki, bu da ictimaiyyətin dolğun məlumatlandırılmasında və cinayətin qarşısının alınması sahələri, hüquq sistemində islahatlar ilə bağlı proqramlar və xüsusi siyasətlərdə əhəmiyyətli rol oynayır.

---

[3] Cinayətkarlıq üzrə statistik məlumatların müqayisəliliyi üçün manə yaradan digər amillər – dövlət orqanlarının cinayət hadisəsinin yalnız bu və ya başqa hissəsini qeydiyyata və nəzərə alması, eləcə də cinayətin hesablanması üçün müxtəlif statistik üsuldan istifadə etməsi ilə əlaqədardır. Əlavə 1-ə bax (həmçinin, nəzərdən keçirin: BMT-nin İqtisadi və Sosial Şurası. Statistika Komissiyası. Cinayətkarlıq statistikası üzrə Meksika Milli Statistika və Coğrafiya İnstitutunun hesabatı. E/CN.3/2012/3.

[4] BMT-nin Avropa İqtisadi Komissiyası. Avropa Statistikləri Konfransı. Avropa Statistikləri Konfransının Cinayətkarlıq üzrə Təsnifatına dair UNODC/UNECE-nin İşçi Qrupunun hesabatı. 2011. Əldə etmək mümkündür: www.unodc.org/documents/data-and analysis/statistics/crime/Report_crime_classification_2012.pdf>.

1.1.3. Ölkənin milli qanunvericiliyində tərifi verilmiş hadisə ilə bağlı beynəlxalq cinayətkarlıq təsnifatının işlənməsi zamanı yaranan problemlər

Hal-hazırda cinayətlər üzrə milli statistika hər ölkənin hüquq sistemində müəyyən olunmuş cinayət əməllərinə istinad edir. Hüquqi uyğunlaşdırma olmadan cinayətlərin anlayışlarındakı fərqliliklər qaçılmazdır və beynəlxalq müqayisə həmişə bu fərqliliklərin kontekstində aparılmalıdır. Məsələn, hər hansı bir ölkədə fiziki kontakt olması basqın cinayətinin edilməsinin məcburi tələbi kimi nəzərdə tutula bilər, lakin digər ölkədə nəzərdə tutulmaya bilər.

CSMBT-də istifadə olunan yanaşma bu kimi problemləri aradan qaldırmaq üçün milli və beynəlxalq qanunvericilikdəki "cinayət" əməllərini təsnifata tabe sayılan əməllərin məcmusu kimi nəzərə alır. Ancaq belə cinayət əməllərinin spesifik təsnifatı (analitik kateqoriyalar üzrə onların bölüşdürülməsi) cinayət qanunvericiliyində nəzərdə tutulan ciddi hüquqi tərifləre görə deyil, daha çox davranışın təsvir edilməsinə əsaslanır. Cinayət hüququnda anlayışı verilmiş cinayətlər tipik olaraq hərəkətlərlə və ya beynəlxalq səviyyədə cinayət olaraq (məsələn, yaralama və ya bədənə xəsarət yetirmə, yaxud razılıq olmadan özgənin əmlakını götürmə) qəbul edilən davranış və məzmun xüsusiyyətləri ilə əlaqələndirilir. Hadisələrə əsaslanan bu cür yanaşma hüquqi cəhətdən çətinlik yaradan problemləri həll edərək sadələşdirilmiş və bütün dünyada tətbiq oluna bilən təsnifatın hazırlanmasına imkan yaradır.

Qeyd etmək vacibdir ki, CSMBT-də cinayət üzrə qanunvericilikdə tərifi verilən "zorlama", "seksual qısnama" və "quldurluq" kimi anlayışlardan istifadə edilir. CSMBT-də bu anlayışların statistik məqsədlər üçün istifadə olunması nəzərdə tutulan dəqiq anlayışları verilmişdir. CSMBT-nin milli səviyyədə qəbul olunması əməllərin/hadisələrin və izahedici qeydlərin tam təsvirlərinin dəqiq nəzərdən keçirilməsi ilə milli qanunvericilik tərəfindən cinayətlərin CSMBT kateqoriyalarında müəyyən olunduğu kimi dəqiq tərcüməsini tələb edəcək.

1.1.4. Cinayətlər üzrə Beynəlxalq Təsnifatın yaradılması prosesi

BMT-nin Sosial Komissiyası ilk dəfə 1951-ci ildə cinayətlər üzrə standart təsnifatının hazırlanmasının əhəmiyyətliliyini vurğulamışdır.[5] Lakin belə təsnifatın yaradılması üçün sonrakı cəhdləri reallaşdırmaq heç də asan başa gəlmir, bu kimi cəhdlərə maneə yaradan problemlər tərifdə, milli qanunvericilikdə və hesabat sistemlərində olan uyğunsuzluqlardır.

[5] BMT-nin İqtisadi və Sosial Şurası. Sosial Komissiya. Cinayət Statistikası: Baş Katibin Tövsiyələri (8 yanvar 1951-ci il). E/CN.5/233.

2009-cu ildə Birləşmiş Millətlər Təşkilatının Narkotik və Cinayətkarlıq üzrə İdarəsi (BMT NCİ) və Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının (BMT AİK) birgə rəhbərliyi ilə keçirilmiş Avropa statistiklərinin konfransında İşçi Qrupun yaradılması ilə qanunvericiliyin müddəalarından daha çox davranışların təsvir edilməsinə əsaslanan cinayətlər üzrə təsnifatın hazırlanmasında qarşıya çıxmış maneələrin aşılmasına yönəlmiş konkret addımlar atıldı.[6] İşçi Qrup tərəfindən hazırlanmış ilk cinayətlər üzrə beynəlxalq təsnifat Avropa statistiklərinin 2012-ci il iyun tarixli 60-cı plenar Konfransında bəyənilmiş və qəbul edilmişdir.[7]

Cinayətlər üzrə beynəlxalq təsnifatın tam versiyasının hazırlanması təklifi Birləşmiş Millətlər Təşkilatı Statistika Komissiyasının 43-cü iclasında[8] və Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlığın qarşısının alınması və Cinayət Ədliyyəsi Komissiyasının 21-ci iclasında[9] müzakirə edilmişdir. Hər iki Komissiya növbəti iclaslarında milli statistika qurumlarından, dövlət hakimiyyəti orqanlarından, regional və beynəlxalq təşkilatlardan statistiklər və ekspertlərlə məsləhətləşmələr aparmaqla Cinayətlərin statistik təsnifatının hazırlanmasına dair plan[10] qəbul etdilər.

2012-2014-cü illər ərzində üç məsləhət xarakterli müşavirə baş tutdu və həmin dövrdə CSMBT-nin sonrakı variantlarının iki genişmiqyaslı sınaq yoxlamaları keçirildi.[11] Milli səviyyədə formalaşdırılan statistik məlumatlara tədricən tətbiq edilməsi şərti ilə hər iki sınaq yoxlamaları CSMBT-nin hazırlanmasının və həyata keçirilməsinin mümkünlüyünü təsdiq etdi. 2014-cü il ilin avqustunda CSMBT-nin son layihə versiyası Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMT NCİ) və Birləşmiş Millətlər

---

[6] BMT-nin Avropa İqtisadi Komissiyası. Cinayətkarlıq Təsnifatı üzrə UNECE/UNODC-nin İşçi Qrupunun Qayda və Şərtləri (16 oktyabr 2009-cu il) ECE/CES/BUR/209/OCT/2012.

[7] BMT-nin Avropa İqtisadi Komissiyası. Avropa Statistikləri Konfransı. Avropa Statistikləri Konfransı üçün Cinayətkarlıq Təsnifatına dair UNODC/UNECE-nin İşçi Qrupunun hesabatı. 2011. Əldə etmək mümkündür: www.unodc.org/documents/data-andanalysis/statistics/crime/Report_crime_classification_2012.pdf>.
BMT-nin Avropa İqtisadi Komissiyası. Avropa Statistikləri Konfransı. Avropa Statistikləri Konfransının altmışıncı plenar sessiyasının hesabatı (6-8 iyun 2012-ci il). ECE/CES/83.

[8] Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası. Statistika Komissiyası. Qırx üçüncü sessiyanın işlərinin hesabatı (28 fevral – 2mart 2012-ci il). E/2012/24, E/CN.3/2012/34.

[9] Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası. Cinayətkarlığın xəbərdar edilməsi və cinayət üzrə ədalət mühakiməsinə dair Komissiya. İyirmi birinci sessiyanın işlərinin hesabatı (13 dekabr 2011-ci il və 23-27 aprel 2012-ci il). E/2012/30, E/CN.15/2012/24.

[10] Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası. Cinayətkarlığın xəbərdar edilməsi və cinayət üzrə ədalət mühakiməsinə dair Komissiya. İyirmi ikinci sessiyanın işlərinin hesabatı (7 dekabr 2012-ci il və 22-26 aprel 2013-cü il) E/2013/30, E/CN.15/2013/27.
Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası. Statistika Komissiyası. Qırx dördüncü sessiyanın işlərinin hesabatı (26 fevral-1 mart 2013-cü il).E/2013/24, E/CN.3/2013/33.

[11] Şimali və Cənubi Amerika, Asiya və Avropanın 13 ölkəsindən nümayəndələr, həmçinin beynəlxalq təşkilatlardan nümayəndələrin iştirak etdiyi ilk məsləhətləşmə müşavirəsi 2012-ci ilin oktyabr ayında Meksika şəhərində keçirilmişdir. Digər məsələlərlə yanaşı müşavirənin iştirakçıları keçici təsnifat layihəsinin ilk sınaq yoxlamalarının 16 könüllü ölkədəki nəticələrini təhlil etdilər. Afrika, Şimali və Cənubi Amerika, Asiya və Avropanın 18 ölkəsindən nümayəndələr, həmçinin beynəlxalq təşkilatlardan və elmi-tədqiqat institutlarından olan nümayəndələrin iştirak etdiyi ikinci məsləhətləşmə müşavirəsi 2013-cü ilin fevral ayında Vyana şəhərində keçirilmişdir. Afrika, Şimali və Cənubi Amerika, Asiya və Avropanın 31 ölkəsindən nümayəndələr, həmçinin beynəlxalq təşkilatlardan və elmi-tədqiqat institutlarından olan nümayəndələrin iştirak etdiyi üçüncü və sonuncu Ekspertlər Qrupu iclası formasındakı məsləhətləşmə müşavirəsi 2014-cü ilin may ayında Vyana şəhərində keçirilmişdir. Bu müşavirədə öz növbəsində 2014-cü ildə 41 könüllü dövlətin (onlardan 6-sı Afrika, 7-si Asiya, 7-si Şimali və Cənubi Amerika, 19-u Avropa və 2-si Okeaniya ölkələri) iştirakı ilə keçirilmiş hər şeyi əhatə edən ikinci sınaq yoxlamalarının nəticələri əsasında tərtib olunmuş CSMBT-nin təkmilləşdirilmiş versiyası təhlil edilmişdir. CSMBT-nin tərtib olunması prosesinə şamil olunan sənədlərin toplusunu qeyd olunan ünvandan əldə etmək mümkündür: http://www.unodc.org/unodc/en/data-and-analysis/statistics/iccs.html.

Təşkilatının Statistika şöbəsi tərəfindən üzv dövlətlərə və digər aidiyyəti təşkilatlara göndərildi.[12]

BMT-nin Statistika Komissiyası 2015-ci ilin mart ayında baş tutan 46-cı iclasda məlumatların (həm inzibati məlumatlar, həm də statistik müşahidə məlumatları) yığılması üçün beynəlxalq statistika standartı kimi və cinayətə təşviq edən səbəblər və amillərə dair unikal informasiyanın aşkar edilməsinin təhlil vasitəsi kimi CSMBT-ni təsdiq etmişdir. Həmçinin Statistika Komissiyası BMT NCİ-ni CSMBT-nin kuratoru olaraq təyin etmiş və təsnifatın milli, regional və beynəlxalq səviyyələrdə həyata keçirilməsi planını, eləcə də təsnifatın müasir tələblərə uyğun saxlanılmasına zəruri məsləhətlərini və dəstəyini verən texniki məsələlər üzrə məşvərətçi qrupunun yaradılmasını təsdiqləmişdir.[13]

Ekspert qrupu iclaslarında və sınaq təcrübələrində iştirak etmiş, öz təklif və qeydlərini vermiş bir neçə ölkədən olan ekspertlərin fəal iştirakı və əməkdaşlığı ilə hazırlanmış CSMBT-nin hazırkı versiyası, idarə etmə, ictimai təhlükəsizlik, viktimizasiya və ədalət mühakiməsi məsələləri üzrə statistik məlumatlar sahəsində BMT NCİ-nin, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), BMT-nin İnkişaf Proqramı (BIP), Avrostat, Amerika İnkişaf Bankı (AİB) və Amerika Dövlətləri Təşkilatı (AİT) birgə təsis etdiyi Qabaqcıl Təcrübə Mərkəzi (QTM) daxil olmaqla statistika qurumları, digər dövlət idarələri və təşkilatları, regional və beynəlxalq təşkilatlar arasında davamlı məsləhətləşmələrin və qarşılıqlı əlaqələrin nəticəsidir. Bundan əlavə, CSMBT BMT-nin Statistika Komissiyası tərəfindən təsis olunmuş beynəlxalq təsnifatlarla işlər üzrə mərkəzi əlaqələndirici orqan olan Beynəlxalq Statistik Təsnifatlar üzrə Ekspert Qrupu tərəfindən baxılmışdır.

[12] Təsnifatın son təhlili zamanı 44 Üzv Ölkədən (2-si Afrika, 9-u Şimali və Cənubi Amerika, 13-ü Asiya, 19-u Avropa və 1-i Okeaniyadan), eləcə də 6 beynəlxalq təşkilatdan son qeydlər əldə olunmuşdur.
[13] Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası. Statistika Komissiyası. Qırx altıncı sessiyanın işlərinin hesabat layihəsi (3 - 6 mart 2015-ci il).

2. CSMBT-də istifadə olunan prinsiplər

2.1. CSMBT-nin məqsədləri üçün cinayətin tərifi

“Zərər” və “qanunsuzluq” kimi cinayət ilə əlaqəli ola bilən bəzi ümumi elementlər cinayəti tam və operativ olaraq müəyyən edə bilməz. Bundan əlavə, müxtəlif ölkələrin cinayət üzrə qanunvericiliyinin yaradılmasında istifadə edilən yanaşmalarda və mənbələrdə olan kəskin fərqlər cinayətlər üzrə davamlı və hərtərəfli anlayışın yaradılmasını qeyri-mümkün edir. Cinayəti təşkil edən ümumi məxrəc budur ki, o elə davranışlardan ibarətdir, onlar cinayət əməlləri kimi tərif edilir və onlara qanunla cəza tətbiq edilir. Cinayət kimi tərif olunmuş hüquqpozmalar hər ölkənin hüquq sistemi və cinayətlərin kodifikasiyası (Cinayət Məcəlləsi, Cəzaların İcrası Məcəlləsi və s.) üzrə hazırlanmışdır.

Nəticədə, CSMBT-də “cinayətə” ölkədaxili cinayət qanunvericiliyində müəyyən olunmuş cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əmənin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi kimi baxılır. Hər cinayətin cinayətkar davranışa görə məsuliyyət daşıyan icraçısı var.

2.2. CSMBT-də təsnifat vahidi

CSMBT-də təsnifatın vahidi[14] cinayət əməlidir. Cinayətin təsviri cinayətin icraçısının (icraçılarının) davranışı (davranışları) aspektindən göstərilmişdir. Aşkar davranış bir çox hallarda CSMBT-nin məqsədləri üçün cinayəti müəyyən etməyə kifayət edir, ancaq bəzi hallarda icraçının niyyəti və ya zərərçəkən şəxsin statusu/vəziyyəti (məsələn, onun yetkinlik yaşına çatmış şəxs olub olmaması) kimi əlavə elementlər nəzərə alınmalıdır; digər hallarda isə cinayət (məsələn, insan alveri ilə bağlı cinayət hallarında olduğu kimi) əməllərin ardıcıllığı əsasında müəyyən olunur.[15]

Cinayətlərin növünün müəyyən olunması və təsnifləşdirilməsi bir sıra meyarlar əsasında kateqoriyalara görə bütün cinayət əməllərini təyin etməyi hədəfləyən təsnifatın əsasını təşkil edir. (bax: “CSMBT-nin tərtib olunması üçün istifadə olunan meyarlar” bölməsi). Eləcə də, cinayətin xüsusiyyətini müəyyən etməsə də, CSMBT cinayət hadisəsinin cinayətlər haqqında statistik məlumatlara analitik baxışı verən əlavə atributları da təmin edir. (bax: “Cinayət əməllərinin əlavə xarakteristikası kimi dəyişənlər bölgüsü”)

Həmçinin cinayətlərin təsnifləşdirilməsi ilə yanaşı olaraq CSMBT cinayət prosesi ilə əlaqəli başqa hadisələr və ya şərtlərdə (həbs, cinayət təqibinin başlanması, məhkəmə hökmünün

---

[14] Təsnifat vahidi təsnifata aid olan baza vahididir (misal üçün, bu kimi vahidin fəaliyyət növləri təsnifatında idarə və ya müəssisə, peşəkar fəaliyyət təsnifatında – işin növü olacaq). Mənbə: United Nations. Statistical Division. UN Glossary of Classification Terms. "Classification Unit". Veb: <http://unstats.un.org/unsd/class/family/glossary_short.asp>.

[15] Birləşmiş Millətlər Təşkilatı. BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyasının, onu tamamlayan “Insan alveri, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında” Protokolu 2000. Doc. A/55/383, A/RES/55/25.

çıxarılması, azadlıqdan məhrum etmə ilə əlaqədar cəzanın çəkilməsi, cinayətin icraçıları və ya zərərçəkmiş şəxslər qismində prosesdə iştirak edən şəxslər) istifadə oluna bilər. CSMBT məlumatların bütün müvafiq mənbələri tərəfindən ardıcıl istifadə edildikdə, cinayət prosesinin müxtəlif mərhələləri arasında olan gedişi və əlaqələri ölçmək mümkün olur. Məsələn, CSMBT cinayət prosesinin bütün mərhələlərində tətbiq olunursa, bu və ya digər (həm inzibati məlumatlardan, həm də müayinələrindən) cinayətin eyni növü üzrə həbslər, cinayət təqibinin başlanılması, məhkəmə hökmünün çıxarılması və cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər haqqında olan məlumatlar arasında əlaqələr yaradıla bilər.

2.3. Statistik təsnifatın prinsiplərinin tətbiqi

CSMBT yaradılmış statistik təcrübələrə və prinsiplərə əsaslanır. Tərifə görə, statistik təsnifat: "məlumatların toplanması və təqdim edilməsində istifadə olunan bir və ya bir neçə dəyişənə şamil edilə bilən və konkret məcmuələrin xarakteristikasını təsvir edən diskret, əhatəli, bir-birini istisna edən kateqoriyaların toplusudur".[16] Əsas diqqət CSMBT-də tətbiq edilən beynəlxalq statistik təsnifatın aşağıdakı əsas xüsusiyyətlərinin şamil olunmasına ayrılmışdır:

Qarşılıqlı tanıma: *Tədqiq olunan anlayışın hər bir təzahürü onun təkrarlanmaması üçün təsnifatın yalnız bir kateqoriyasına aid edilməlidir.*

Qarşılıqlı tanıma prinsipinin tətbiqi: CSMBT təkrara yol vermədən hər bir cinayəti təsnifatın yalnız bir kateqoriyasında istifadə edir. Hər bir kateqoriyanın çərçivələrini dəqiqləşdirən daxil olunanlar və istisnalar əlavə olunur və onlar vasitəsilə müvafiq hadisə/davranış aydın müəyyən edilir (kateqoriyaya müvafiq olaraq daxil edilmiş və ya kateqoriyadan çıxarılmış ölkədaxili qanunvericilikdəki cinayətlər).

Cinayətin əlavə bölgüsünün və ya "işarələr"in (daha ətraflı aşağıda izah olunmuşdur) istifadəsi bu və ya digər cinayətə aid edilə bilən halların təsnifləşdirilməsi üsulunu təmin edir. Məsələn, kompüter vasitəsilə törədilmiş dələduzluq cinayəti "kibercinayət"lər adı altında təsnif olunur. Analoji olaraq, mütəşəkkil cinayətkar qrup tərəfindən törədilmiş insan alveri mütəşəkkil cinayətkar qrup tərəfindən törədilmiş cinayətlər kimi təsnif olunur.

Əhatəlilik: *Tədqiq olunan anlayışın hər mümkün təzahürü təsnifata daxil edilməlidir.*

Əhatəlilik prinsipinin tətbiqi: Baxmayaraq ki, CSMBT hər cinayət hadisəsinin təzahürünü əhatə etməyə hədəflənmişdir, aydındır ki, məqsədəuyğunluq nəzərə alınmaqla bu prinsipə

[16] Andrew Hancock, Best Practice Guidelines for Developing International Statistical Classifications. United Nations Department for Economic and Social Affairs. Statistical Division. ESA/STAT/AC.267/5 of 6 May 2013. Veb: http://unstats.un.org/unsd/class/intercop/expertgroup/2013/AC267-5.PDF.

lazımınca riayət olunmalıdır. Hər hansı ölkədə cinayət hesab olunmuş əməllərin çox böyük sayı, həmçinin qanunvericiliyin daim dəyişdirilməsi dünyada mövcud olan bütün cinayətlərin əhatəli siyahısının tərtib olunmasına maneələr törədir. Beləliklə, təsnifatın əsas məqsədi onun dəqiq balanslaşdırılması ilə əksər ölkələrdə müəyyən edilmiş və tərifi verilmiş müəyyən kateqoriya cinayət hesab edilən hərəkətləri (hərəkətsizliyi) və ya hadisələri beynəlxalq səviyyədəki praktiki yararlılıq və qanunauyğunluq üçün bir arada tutmaqdır. Bundan əlavə, CSMBT, bir qayda olaraq, inzibati hüquqpozmalara aid olan əməlləri (məsələn, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaları) təsnifatın kateqoriyalarına daxil etmir.

CSMBT bir çox ölkələrdə cinayət hesab olunan, digər ölkələrdə isə leqal sayılan bəzi əməlləri də daxil etmişdir. Bəzi əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsi bir sıra ölkələrdə insan hüquqları sahəsində beynəlxalq normaların pozulması kimi tanınmışdır.[17] Bu kimi hallarda qeyd etmək lazımdır ki, CSMBT-də verilən hər hansı əmələ cinayət məsuliyyətinin müəyyən edilməsinin dəstəklənməsi və ya qanuniləşdirilməsi kimi baxılmamalıdır: ona statistik məqsədlər üçün hər cinayətin təzahürünün real, ümumdünya şəklini təsəvvür etmək üçün statistik standart kimi yanaşılmalıdır.

Statistik məqsədəuyğunluq: *mövcud məlumatlar əsasında təsnifat çərçivəsində kateqoriyaları effektli, dəqiq və ardıcıl olaraq ayırmaq mümkündür.*

Statistik məqsədəuyğunluq prinsipinin tətbiqi: Statistik təsnifatın statistik məqsədəuyğunluğu dedikdə, müşahidə olunan məlumatların kateqoriyaların daxilində olan məlumata görə təyin edilməsi başa düşülür (məsələn, statistik müşahidələrin gedişində əsaslandırılmış sualların cavabının tapılması və ya inzibati məlumatlar əsasında həmin kateqoriyalara aid edilə bilməsi).[18] CSMBT bunu hər kateqoriyanın daxil olunanları və istisnaları ilə doldurulmuş davranış xarakteristikaları əsasında cinayət əməlinin son dərəcə dəqiq müəyyən olunması vasitəsi ilə təmin edir.

Statistik məqsədəuyğunluq CSMBT-nin pilot layihələrində iştirak etmiş ölkələrdə toplanılmış məlumatlar əsasında cinayətlər haqqında məlumatları təsnifatın kateqoriyalarına ayırmaqla yoxlanılmışdır. (bax: “Cinayət təsnifatının tərtib olunması prosesi” bölməsi)

[17] Bax: misal üçün, Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları üzrə Komitəsinin yekun qeydləri: CCPR/CO/79/LKA (abortlar); [CCPR/C/SDN/CO/3 (dindən dönmə); CCPR/C/UZB/CO/3 (prozelitizm)]; CCPR/C/PHL/CO/4 (böhtan və təhqir).
[18] Bax: Andrea Hancock, op. cit., p. 9.

2.4. CSMBT-nin tərtib olunması üçün istifadə olunan meyarlar

Cinayət əmelləri bir çox aspektlər üzrə baxıla və təsnif edilə bilər: onların zərərçəkmiş şəxslərə təsirinin dərəcəsi, törədilmə üsulları, cinayətin motivi, cinayətin ictimai təhlükəlilik dərəcəsi və s. Bunlar yalnız bəzi aspektlərdir. Təsnifat tərtib olunarkən əsas diqqət konseptual nöqteyi-nəzərdən xüsusilə əhəmiyyətli olan meyarlara verilmişdir: cinayətkarlığın qarşısının alınması və cinayət-prosessual fəaliyyətlə bağlı siyasətin hazırlanmasında asan anlaşılan və istifadə olunan məlumatı CSMBT kateqoriyaları və müvafiq olaraq tərtib olunmuş məlumatlar təmin etməlidirlər. Məsələn, CSMBT-yə uyğun olaraq sistemləşdirilmiş məlumatlar tamah məqsədi ilə törədilən cinayətlərin və ya seksual xarakterli cinayətlərin, yaxud maliyyə cinayətlərinin və ya mütəşəkkil cinayətkar qrup tərəfindən törədilən cinayətlərin tendensiyasına və müqayisəliliyinə aidiyyəti olan suallara cavab verməlidir. Ən müxtəlif informasiya ehtiyaclarına cavab verə bilən kateqoriyaların tərtib olunması məqsədilə CSMBT-nin iyerarxiya strukturunun hazırlanması üçün bir sıra meyarlardan istifadə olunmuşdur. Xüsusilə də CSMBT-nin kateqoriyalarının ifadə edilməsi üçün aşağıdakı meyarlardan istifadə olunmuşdur:

- əməl/hadisənin siyasi aspekti (mülkiyyət hüquqlarının müdafiəsi, sağlamlığın qorunması və s.)
- əməl/hadisənin obyekti (məsələn, şəxs, predmet, ətraf mühit, dövlət və s.)
- əməl/hadisənin ictimai təhlükəlilik dərəcəsi (məsələn, ölümə səbəb olan əməllər, zərər vuran əməllər və s.)
- əməl/hadisənin törədilməsi üsulları (məsələn, zor tətbiq etməklə, zor tətbiq etmə hədəsi ilə və s.).

Bu meyarlar əsasında[19] cinayətlər dörd müxtəlif iyerarxik səviyyəyə bölünən oxşar kateqoriyalarda qruplaşdırıla bilər: 1, 2, 3 və 4-cü səviyyələr.[20] 1-ci səviyyənin CSMBT çərçivəsində cinayət hesab olunan bütün əməl və ya hadisələri ehtiva etməli olduğu 11 kateqoriyası mövcuddur. 2, 3 və 4-cü səviyyələrdəki cinayətlər daha çox bölgüsü aparılmış səviyyələrdəki müşahidələrin nəticələrinin əks olunması üçün cəmləşdirilir. Daha yüksək səviyyələrdəki müşahidənin nəticələri daha aşağı səviyyəli kateqoriyalara bölünə bilər.[21]

Cinayət maraq kəsb edən detallaşdırma səviyyəsində eyniləşdirilə bilər. CSMBT strukturu elədir ki, “meta-kateqoriyalar”ın yaradılması üçün çevik vasitə kimi nəzərdə tutula bilər. Ehtiyac olduqda kateqoriyalar müxtəlif səviyyələrdəki kateqoriyalardan ümumiləşdirilə bilər. Məsələn, “Mülkiyyət əleyhinə yönəlmiş əməllər” yeni meta-kateqoriyası tərtib

[19] Bu dörd meyar bir qrupun digərinə ümumi üstünlüyü olmadan müəyyən qrupların konseptual münasibəti əsasında tətbiq olunur.
[20] Dəqiq işarələnməsi üçün 1-ci səviyyə, həmçinin bölmələr, 2-ci səviyyə – fəsillər, 3-cü səviyyə – qruplar və 4-cü səviyyə – siniflər adlandırıla bilər.
[21] United Nations. Statistical Division. UN Glossary of Classification Terms. "Group". Veb: http://unstats.un.org/unsd/class/family/glossary_short.asp. Əlavə bölünməyən daha yüksək səviyyəli kateqoriyalarda daha çox aydınlıq və yerə qənaət edilməsi məqsədilə aşağı səviyyələrdə təkrarlanmır.

olunması üçün 1-ci səviyyənin “Şəxsə qarşı zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən mülkiyyət əleyhinə yönəlmiş əməllər” kateqoriyasını 1-ci səviyyənin “Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər” kateqoriyası ilə ümumiləşdirmək olar.

Kateqoriyaların rəqəmsal kodlaşdırılması təsnifatda onların səviyyəsinə uyğundur: 1-ci səviyyənin kateqoriyaları ən geniş kateqoriyalardır və iki rəqəmli koda malikdir (yəni, 01); 2-ci səviyyənin kateqoriyaları dörd rəqəmli koda (yəni, 0101); 3-cü səviyyənin kateqoriyaları beş rəqəmli koda (yəni, 01011); və 4-cü səviyyənin kateqoriyaları altı rəqəmli koda malikdir (yəni, 010111).

1-ci səviyyənin kateqoriyaları	
1	**Ölümlə nəticələnən və ya öldürməyə yönələn əməllər**
2	**Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər**
3	**Seksual xarakterli təhlükəli əməllər**
4	**Şəxsə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən mülkiyyət əleyhinə yönəlmiş əməllər**
5	**Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər**
6	**Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər**
7	**Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri**
8	**İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər**
9	**İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər**
10	**Ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər**
11	**Başqa kateqoriyalara daxil edilməyən digər cinayət əməlləri**

Xüsusilə, CSMBT-nin praktiki tətbiqinə imkan yaratmaq üçün 1-ci səviyyənin 11 kateqoriyasının məlumatları yuxarıda göstərilən dörd meyar əsasında milli məlumatlarda tez-tez istifadə olunan kateqoriyalar nəzərə alınmaqla seçilmişdir. Eyni meyarlar 2, 3 və 4-cü səviyyələrin kateqoriyalarının eyniləşdirilməsi üçün istifadə olunur. Məsələn, əməl/hadisənin məqsədi əsasında cinsi istismar yetkinlik yaşına çatmış şəxslərin cinsi istismarı və uşaqların cinsi istismarına bölünür. Uşaqların cinsi istismarı konseptual əhəmiyyətliliyinə əsasən 4-cü səviyyənin dörd kateqoriyasına bölünür: uşaq pornoqrafiyası; uşaq fahişəliliyi; uşaqların cinsi istismara hazırlanması və uşaqların cinsi istismarını nəzərdə tutan digər əməllər.

CSMBT-nin 1, 2, 3-cü səviyyələrinin kateqoriyaları tam olmalı və cinayətlərin bütün mümkün növlərini əhatə etməlidir. Lakin 2-ci və 3-cü səviyyələrin kateqoriyalarının heç də

hamısı 4-cü səviyyə kateqoriyalarına bölünmür, belə ki, bu səviyyənin kateqoriyaları konseptual əhəmiyyətli cinayətlərin eyniləşdirilməsi üçün heç də hər zaman vacib deyil.

Təsnifatın hər səviyyəsində bütün kateqoriyalar ətraflı təsvir olunmuşdur. Hər bir cinayətin onları müəyyən edən hərəkətlərin, davranışların və kontekstual atributların əməl və ya hadisə əsaslı təsviri vardır. Təsvirlər kateqoriyaya daxil olunan və ya ondan çıxarılan ən geniş yayılmış və ya ən mühüm olan cinayətlərin eyniləşdirilməsi üçün daxil olunanlar və istisnalarla müşahidə olunurlar. Məsələn, CSMBT ehtiyatsızlığı davranışın açar xarakteristikası vasitəsilə müəyyən edir: Bu cür vəziyyətlərdə anlaqlı və diqqətli insanın digər insanlara göstərəcəyi qayğını göstərməməsi; və ya anlaqlı insanın etməyəcəyi əməllər. Bundan əlavə, kontekstual atributların əlavə edilməsi ilə qayğı/himayə altında olan şəxslərin vəziyyətində ehtiyatsızlıq müəyyən edilir. Bu halda zərərçəkmiş şəxslərin həssas vəziyyəti səbəbindən ayrı cinayət məsuliyyəti (adətən daha ağır cəzalar) nəzərdə tutan əmələri yalnız davranış atributları ilə müəyyənləşdirmək olmur.

2.5. Bölünən dəyişənlər cinayətlərin əlavə xarakteristikası kimi

CSMBT-nin kateqoriyaları cinayətləri əhatə edir və onların xarakteristikalarını təsvir edir, ancaq bir sıra digər xarakteristikalar, eləcə də cinayətkarlığın konseptual əhəmiyyətli forma və tendensiyalarının tam eyniləşdirilməsi üçün əhatəli və detallı təhlilin həyata keçirilməsi vacibdir. Məsələn, qəsdən adam öldürmə haqqında statistik məlumatlar istehsal olunarkən zərərçəkmiş şəxslərin və icraçıların xarakteristikası, odlu silahın tətbiq edilməsi və ya adam öldürmənin motivlər üzrə bölgüsü əsasında əlavə dəyər təmin edilir. Bu məqsədlə cinayət haqqında əlavə məlumatı kodlaşdırmağa imkan verən və istənilən konkret cinayətlə bağlı hadisə, zərərçəkmiş şəxslər və icraçıların konkret xarakteristikalarının təhlilinin zənginləşdirilməsinə kömək edən dəyişən (həmçinin “işarələr” adlanan) amillərin əlavə bölgüsü aparılır.

Cinayətkarlıq üzrə milli qeydiyyat sistemlərinin hazırki təcrübəsində cinayətkarlıq və cinayət prosesi haqqında say, struktur və tətbiq etmə kimi statistik məlumatlar toplusundakı dəyişənlərin əlavə bölgüsü bir-birindən nəzərə çarpacaq dərəcədə fərqlənir və yerli, regional və milli səviyyələrdə məlumatların qeydə alınması və emalı potensialı; cinayətkarlığa dair statistik məlumatların milli sisteminin inkişaf və mürəkkəblik səviyyəsi; həmçinin məlumatların toplanmasının avtomatlaşdırılması və rəqəmsal kodlaşdırılması dərəcəsi və s. kimi amillər ilə müəyyən olunur. Xüsusilə, bu meyarlardan sonuncusu (yəni sistemin kağız və ya kompüterləşdirilmiş olması) cinayətkarlığın statistikası haqqında milli sistemin bölünən dəyişənlərin kompleks strukturunu təmin edə biləcəyini yaxud edə bilməyəcəyini müəyyənləşdirir.

Məlumatların toplanması, ötürülməsi və uyğunlaşdırılması məlumatların qəbulu, saxlanması, ötürülməsi və tərtibi vasitəsilə avtomatlaşdırılır və bu, məlumatların sistemli təşkil olunmasında bütün mümkün təfsilatı qəbul etməyə və çıxarmağa imkan verir. Məsələn, zərərçəkmiş şəxsin və icraçının xarakteristikası kimi cinayətin bütün müvafiq detalları vahid yazıda elektron formada qəbul oluna və saxlanıla bilər. Daha sonra statistik nəticələrin müxtəlif növləri qəbul oluna bilər. Ayrı-ayrı cinayətlər üzrə məlumatlar seçilmiş bölünən dəyişənlərin köməyi ilə (məsələn, korrupsiya cinayətləri hallarında - iqtisadi sektorlar üzrə və ya insan alveri hallarında - zərərçəkmiş şəxsin vətəndaşlığı üzrə) və ya bir neçə cinayət kateqoriyaları ilə birgə ümumiləşdirilən dəyişənlərin köməyi ilə (məsələn bütün "zorakılıq cinayətlərinin" zərərçəkmiş şəxslərinin cinsi və yaşı və ya bütün "mülkiyyət əleyhinə cinayətlərinin" törədildiyi coğrafi yer nəzərə alınmaqla) toplanıla bilər.

Beləliklə, avtomatlaşdırılmış məlumatlar sisteminin mövcudluğu əsasında bölünən dəyişənlər sisteminin həyata keçirilməsinin reallaşması cinayət prosesi haqqında statistik məlumatların kompleks halda istifadə olunması üçün əlavə vasitədir.

Hadisə, zərərçəkmiş şəxs və icraçının xarakteristikalarının böyük sayı dünyanın müxtəlif hissələrində nəzəri olaraq maraq kəsb edə bilər. Praktik səbəblərə görə CSMBT-də bütün mümkün bölgüsü aparılmış dəyişənlər göstərilə bilməz.[22] Bununla belə, təhlil və müqayisə məqsədilə bölünən dəyişənlərin sistemi tətbiq olunarkən və ya onun gələcəkdə tətbiqi planlaşdırılarkən cinayətlərin, icraçıların və zərərçəkmiş şəxslərin konseptual əhəmiyyətli xarakteristikalarının razılaşdırılmış baza toplusundan istifadə etmək faydalıdır. Məsələn, zərərçəkmiş şəxslə cinayətin icraçısi arasındakı qarışılıqlı münasibət (hazırki cinsi tərəf müqabili/həyat yoldaşı, keçmiş cinsi tərəf müqabili/həyat yoldaşı, qan qohumu və s. kimi) haqqında məlumatlarda eyni bölgünün aparılmasından istifadəyə daha çox zorakılıq cinayətlərinin, həmçinin ona şərait yaradan və onun qarşısını alan amillərin millətlərarası forma və tendensiyalarının analizi səbəb olur. Onların konseptual əhəmiyyətliliyi əsasında CSMBT-ni tamamlayan cədvəl göstərir ki, cinayətlərin müvafiq hallarında aşağıda göstərilən bölünən dəyişənlərin minimal toplusunu tətbiq etmək lazımdır:

- hadisənin təsviri: başa çatdırma dərəcəsi, istifadə olunmuş silahın növü, törədilmə şəraiti, törədilmə yeri və həmin yerin tipi, tarix və vaxt, motiv, kibercinayətkarlıqla əlaqəlilik, cinayət işi başlayan qurum;

- zərərçəkmiş şəxsin təsviri: cins, yaş, yaş kateqoriyası, vətəndaşlıq, hüquqi status, iqtisadi sektor (zərərçəkmiş müəssisə və təşkilatlar), sərxoşluq vəziyyəti;

[22] Bir çox nəzəri cəhətdən məqsədəuyğun bölünənlər ancaq konkret sosial-mədəni kontekstlərdə maraq kəsb edən və ya irq, etnik mənsubiyyət, kasta, din və zərərçəkmiş şəxsin və icraçının xarakteristikası kimi özlərinin mümkün xüsusiyyətləri üzrə olduqca spesifik olurlar.

- icraçının təsviri: cins, yaş, yaş kateqoriyası, zərərçəkmiş şəxslə icraçı arasında qarşılıqlı əlaqə, vətəndaşlıq, hüquqi status, sərxoşluq vəziyyəti, residivist.

Təklif olunan bölünən dəyişənlər sistemi cinayətkarlığın qeydiyyatı ilə məşğul olan milli idarələr tərəfindən bir sıra müxtəlif üsullar ilə tətbiq oluna bilər. Hər şeyi əhatə edən statistik qərar bölünən dəyişənlərin minimal toplusunu ən azından cinayətin istənilən növünün (elektron) fərdi yazısı üçün istifadə olunan bir şablonda birləşdirir, beləliklə də tələb olunan bölünən dəyişənlərin istənilən müvafiq kombinasiyasının köməyi ilə istənilən cinayəti, icraçını və zərərçəkmiş şəxsi tam təhlil etməyə imkan verir.[23] Məsələn, daha məhdud variant bütün cinayətlər üzrə (məsələn, yetkinlik yaşına çatmamış cinayət törədən şəxslərin ayrıca hesablanması) icraçının və zərərçəkmiş şəxsin ancaq müəyyən xarakteristikalarının toplanması, keçici variant isə ancaq cinayətin bir neçə açar növü üzrə (adam öldürmə, soyğunçuluq və ya insan alveri kimi) hadisənin, icraçının və zərərçəkmiş şəxsin xarakteristikalarının genişləndirilmiş sayının toplanması olacaq.

Şərait konteksti, sosial münasibətlər və öldürmə mexanizminin yüksək səviyyədə detallaşmasını təmin edən əlavə bölünən dəyişənlər cinayəti təsvir etmək üçün qəsdən adam öldürmə üzrə məlumatların xüsusi qiyməti verilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsi və onun cəmiyyətə olan təsirləri səbəbiylə vacibdir (aşağıda göstərilmişdir).

Statistik məlumatların təhlilini asanlaşdırmaq məqsədilə mövcud olan istənilən məlumat toplusu üçün onların əlavə təsvirlərinə ehtiyac var. Baxmayaraq ki, cinayətlərin çoxu və onların statistik hesabatı, bir və bir neçə bilavasitə icraçılar (həm məlum olan, həm də məlum olmayan) tərəfindən törədilmiş əməllərə istinad edir, məlumatlar həm də müəyyən cinayətin törədilməsi üçün hədələri də və ya cinayətin planlaşdırılmış və ya törədilməsi üçün əlbirlik hallarını da əhatə edir. Bu səbəbdən vacibdir ki, cinayət əməllərinə (və icraçılara) dair əlçatan məlumatlar haqqında verilmiş informasiya aşağıdakı davranışları kateqoriyalar üçün daxil və ya xaric etsin:

- cinayətin törədilməsinə hədə-qorxular;
- cinayətə təhrik, təşkilatçılıq və kömək etmək;
- cinayətin törədilməsində əlbirlik;
- cinayət sövdələşdirilməsi/planlaşdırılması;
- cinayətin törədilməsinin stimullaşdırılması;

[23] Bütün "qeydlər" hamısı bütün cinayət növlərinə tətbiq edilmir (misal üçün, "cəhd etmə" ehtiyatsızlıq səbəbindən adam öldürməyə tətbiq edilmir; "tətbiq olunmuş silahın növü" və ya "motiv" oğurluq və ya dələduzluğa tətbiq edilmir; "zərərçəkmiş şəxsin yaşı" qanunsuz ağac tədarükünə tətbiq edilmir). Bu səbəbdən ancaq kombinasiyalar nəticəsində əmələ gələn müəyyən hissə məna və konseptual əhəmiyyətlilik daşıyacaq.

Bu məlumat hər bir cinayət əməli üzrə cinayətin törədilməsinə hədə-qorxular, cinayətə təhrik, təşkilatçılıq və kömək etmək və ya yuxarıda göstərilən hər hansı tipologiya ilə əlaqəli qeydə alınmış hadisəni göstərmək üçün ideal şəkildə əldə edilməli və saxlanılmalıdır. Bu kimi hallarda arzulanan statistik nəticələr həmin hadisələri ümumi hesablamaya daxil etməklə və ya onları ümumi hesablamadan çıxarmaqla əldə oluna bilər. Və ya alternativ qaydada metaməlumatlar formasında bu cür halların daxil olunması haqqında məlum cinayət kateqoriyalarının ümumilləşdirilmiş səviyyəsində təqdim oluna bilər.

2.6. Qəsdən adam öldürmə xüsusi hal kimi

Qəsdən adam öldürmənin öyrənilməsi yalnız cinayət əməlinin ictimai təhlükəlilik dərəcəsinə görə uyğun deyil, həm də zorakı ölümlərin monitorinqi üçün qəsdən adam öldürmənin ölçüləbilən və müqayisəedilə bilən göstəricilərdən biri olması ilə əlaqəlidir və çox hallarda ölkə daxilində zorakı cinayətlərə dair dolayı göstəricilər kimi, eləcə də təhlükəsizlik səviyyəsi göstəricisi kimi nəzərdən keçirilir. CSMBT-yə uyğun olaraq, qəsdən adam öldürmə “öldürmək və ya ciddi xəsarət yetirmək məqsədilə digər şəxsə qarşı törədilmiş qanunsuz həyatdan məhrumetmə”dir. Bu cür tərif statistik məlumatların istehsalı məqsədi üçün qəsdən adam öldürmə kimi nəzərdən keçirilən qətlin xüsusi əməlinin müəyyənləşdirilməsinin aydın təlimatını təmin edir.

Lakin, bəzi hallarda adam öldürmələrin sayına müəyyən qətllərin statistik məqsədlər üçün daxil edilməsini müəyyən edərkən kontekstual təfsilatları nəzərə almaq lazımdır. Bu, qətllərin müxtəlif növləri arasında fərq aparmaq vacib olduğu qiyam vəziyyətində və ya silahlı münaqişə zamanı - ümumi zorakılıq vəziyyətində həyata keçirilmiş qətllər üçün nəzərdə tutulur. Kontekst bu kimi əməllərin CSMBT-də necə və hansı halda kodlaşdırılmasını müəyyən edə bilir.

Bununla belə, bu kimi vəziyyətlərdə statistik məlumatların istehsalının çox çətin olmasına baxmayaraq, CSMBT-də hansı qətllərin nəzərə alınması və qətllərə dair beynəlxalq səviyyədə uyğunlaşdırılmış statistik məlumatların istehsalı məqsədləri üçün onların təsnif edilməsinə dair təlimatı təmin etmək əhəmiyyətlidir.

2.7. Kütləvi iğtişaşlar zamanı həyatdan məhrum etmə

Kütləvi iğtişaşlar zamanı həyatdan məhrum etmə - daxili hərbi münaqişə olmayan və zorakılıq xarakteri alan tətillər və etirazlar/nümayişlərlə əlaqədar kütləvi iğtişaşlar və ya digər fərdi zorakılıq aktlarını da əhatə edə bilən iki və daha artıq tərəflər arasında zorakılıq

tətbiq edilən qarşıdurma zamanı baş verən hadisədir.[24] Belə ki, bu kimi vəziyyətlər adətən daxili silahlı münaqişələrə aid edilmir və buna görə də münaqişələr zamanı qüvvədə olan hüquqi baza çərçivəsində baxılmır, kütləvi iğtişaşlar zamanı baş verən hər zorakılıqla ölüm halı qəsdən adam öldürmədə tətbiq edilən eyni standartlar əsasında təsnif edilməlidir. Bu o deməkdir ki, hər bir həyatdan məhrum etmə halı öyrənilməli və məsələn, həyatdan məhrum etmənin qanunsuz və qəsdən olub-olmaması əsasında faktiki hallara uyğun tətbiq olunan növə aid edilməlidir. Bu kimi həyatdan məhrum etmə halları CSMBT-də qəsdən adam öldürmə kimi təsnif olunanda, qəsdən adam öldürmə halları üçün "Şərait konteksti – kütləvi iğtişaşlarla bağlı" adlanan belə xarakterli həyatdan məhrum etmə halları baş verən şərait kontekstinin statistik fərdiləşdirməsini həyata keçirməyə imkan verən bölünən dəyişənlər sistemindən istifadə olunur(bax. Cədvəl 3).

2.8. Silahlı münaqişə zamanı adam öldürmə

Beynəlxalq humanitar hüquqda silahlı münaqişənin iki növü arasında fərqləndirmə aparılır:[25] (1) Dövlətlər arasında hərbi əməliyyatlar aparılarkən baş verən beynəlxalq silahlı münaqişələr;[26] və (2) dövlət hakimiyyət orqanları ilə mütəşəkkil silahlı qruplar arasında və ya dövlət daxilində bu kimi qruplar arasında uzun müddət ərzində silahlı zorakılıq aktları törədilərkən baş verən beynəlxalq xarakterli olmayan silahlı münaqişələr (və ya daxili silahlı münaqişələr).[27]

Əgər münaqişənin birinci növü, bir qayda olaraq, dövlətlərin silahlı qüvvələri tərəfindən törədilən silahlı əməliyyatlar ilə əlaqədardırsa, beynəlxalq xarakterli olmayan silahlı münaqişələri müəyyən etmək və fərdiləşdirmək daha çətindir. Xüsusilə də, ölkə daxilində uzun müddət davam edən zorakılığın kütləvi tətbiqi zamanı kütləvi iğtişaşla daxili silahlı münaqişə arasında fərqləndirmə aparmaq əhəmiyyətlidir. Fərqliliyi müəyyən edən elementlər – *toqquşmaların intensivliyindən* (qarşıdurmalar kütləvi xarakter daşıyırmı və ya üsyançılara qarşı hökumət polisdən deyil, silahlı qüvvələrdən istifadə edirmi) və *qrupun mütəşəkkillik* dərəcəsindən (silahlı qrup kifayət qədər mütəşəkkil təşkil olunubmu, onun komandanlıq strukturu, baş qərargahı və hərbi əməliyyatları planlaşdırmaq və həyata keçirmək qabiliyyəti varmı) ibarətdir. Silahlı münaqişələrlə bağlı CSMBT çərçivəsində aşağıda göstərilən adam öldürmə növləri təsnif olunmalıdır:

- silahlı münaqişə zamanı hərbi əməliyyatlarda fəal iştirak etməyən mülki şəxsin muzdlu tərəfindən istənilən məqsədlə və ümumi niyyətdən kənara çıxmaqla qəsdən

[24] Bax: Silahlı münaqişənin anlayışı verilən bölmə - "Silahlı münaqişə zamanı həyatdan məhrum etmə".
[25] Həmçinin bax: D. Schindler, "The Different Types of Armed Conflicts According to the Geneva Conventions and Protocols". RCADI Vol. 163, 1979-II, p. 147, и МТБЮ, Ittihamçı Fatmira Limanca qarşı, qərar, IT-03-66-T, 30 noyabr 2005-ci il, 94–134-cü bəndlər.
[26] Cenevrə Konvensiyalarının ümumi 2-ci maddəsi.
[27] Cenevrə Konvensiyalarının ümumi 3-cü maddəsi.

öldürülməsi (münaqişə ilə əlaqədar və ya münaqişə kontekstində fəaliyyət göstərən) 11013-cü kateqoriyada hərbi cinayət kimi tövsif oluna bilər (Başqa kateqoriyalara daxil edilməyən digər cinayət əməlləri; Universal yurisdiksiya altına düşən əməllər; Müharibə cinayətləri);

- silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozan muzdluların digər muzdlular tərəfindən öldürülməsi də 11013-ə kodlaşdırıla bilər; Məsələn, hərbi əməliyyatlarda iştirakını dayandıran münaqişə tərəflərini qəsdən həyatdan məhrum etmə;[28]
- silahlı münaqişə zamanı bilavasitə silahlı münaqişə ilə əlaqədar olmayaraq muzdlu tərəfindən və ya hərbi əməliyyatlarda fəal iştirak etməyən mülki şəxs tərəfindən törədilən adam öldürməyə münaqişə ilə bağlı olan kimi baxılmamalıdır və münaqişə vəziyyətindən asılı olmayaraq adam öldürmənin hər hansı digər növünə aid edilməli və standart anlayışlara uyğun olaraq zorakı ölümlərin mövcud tipologiyaları çərçivəsində təsnif edilməlidir;
- muzdlu tərəfindən ölkədaxili qanunvericiliyə əsasən cinayət hesab edilən, ancaq hərbi cinayət olmayan adam öldürmə 0107 kodu altında təsnif edilməlidir (silahlı münaqişə zamanı adam öldürmə).

Adam öldürmənin müxtəlif hallarının ölçülməsi və fərdiləşdirilməsi üçün operativ imkanların olmadığı halda bu standartların tətbiq edilməsi çox çətin ola bilər və doğrudan da zorakılığın kütləvi tətbiqi zamanı adam öldürmə hallarının çox hissəsi qeydiyyata alınmamış qalır. Lakin, qeydiyyata alınmış adam öldürmə cinayətlərinin dəqiq cizgilərinin müəyyən edilməsi qəsdən adam öldürmə ilə digər həyatdan məhrum etmə halları arasındakı sərhədləri müəyyən etməyə, həmçinin məlumatların keyfiyyətini artırmağa və dünyanın müxtəlif ölkələri üzrə onların müqayisəliliyini yaxşılaşdırmağa kömək edəcək.

2.9. Qəsdən adam öldürmənin əlavə bölgüləri

Adam öldürmə cinayətləri üzrə qəsdən adam öldürmə xüsusi əməl kimi təsnifləşdirilir və sayılır. Qəsdən adam öldürmə cinayətləri ilə bağlı hadisə-sübut əsaslı siyasətlərin tərtib edilməsi üçün sosial məzmun və mexanizmlər üzrə daha ətraflı kəmiyyət informasiyalarına ehtiyac vardır. Müqayisə və analitik məqsədləri üçün qəsdən adam öldürmənin xüsusiyyətlərinə uyğun olaraq daha çox üç təsnifat meyarı uyğundur və onu hərtərəfli şəkildə müəyyən edə bilər.[29] Bu üç meyar (cinayətin törədilmə şəraiti, zərərçəkmiş şəxslə cinayətin icraçısı arasında olan qarşılıqlı münasibət və adam öldürmə üsulu) yalnız qəsdən

[28] Beynəlxalq humanitar hüquq hərbi əməliyyatlarda iştirakını dayandıran tərəflərin münaqişədə tərəflərin qəsdən həyatdan məhrum etmə, həmçinin münaqişədə tərəflərin xaincəsinə öldürülməsini qadağan edir. Cenevrə Konvensiyaları (1947-ci il).
[29] Qəsdən (başa çatdırılmış) adam öldürməklə yanaşı təsnifatın bu əlavə meyarları eynilə qəsdən adam öldürməyə cəhd etməyə də tətbiq oluna bilər.

adam öldürmə üçün tətbiq edilən üç əlavə bölgü cədvəlinin yaradılmasında istifadə edilmişdir. (bax: cədvəllər 3, 4 və 5).

3. CSMBT-nin tətbiqi

3.1. CSMBT məqsədləri üçün cinayətlərin təsnif edilməsi

CSMBT-nin tətbiqi məqsədilə bu və ya digər cinayətin CSMBT kateqoriyalarından birinə aid edilməsi vacibdir. Cinayət əməllərini təsnifləşdirməzdən əvvəl CSMBT-nin strukturu ilə tanış olmaq lazımdır. Yuxarıda qeyd edildiyi kimi, CSMBT iyerarxik təsnifatdır və ilk addım göstərilən konkret cinayət üçün 1-ci səviyyənin hansı kateqoriyasına daha uyğun olmasını dəqiqləşdirməkdir. 1-ci səviyyənin hər bir kateqoriyası onun əhatə etdiyi hərəkətlərin, hərəkətsizliyin və ya hadisələrin geniş dairəsi göstərilməklə düzgün kateqoriyanın seçilməsini asanlaşdırmaq üçün müəyyən olunur. Məsələn, ölümlə nəticələnən və ya öldürməyə yönələn əməllər 1-ci səviyyənin kateqoriyası olan 01-də təsnif olunur.[30] Analoji olaraq, seksual xarakterli təhlükəli əməllər 1-ci səviyyənin kateqoriyası olan 03-də təsnif olunur.

Daha sonra həmin cinayət 2, 3 və ya 4-cü səviyyələrin kateqoriyalarında təsnif edilməlidir. Məsələn, zorlamanı cinayət qanunvericiliyində nəzərdə tutulmuş qısa qeydin verilməsi, onun əmələ/hadisəyə əsaslanan digər anlayışlarla müqayisə edilməsi və hüquqi cəhətdən həmin əmələ daxil edilənlər və istisnaların göstərilməsi yolu ilə təsnifləşdirmək mümkündür. Cinayətin düzgün təsnifləşdirilməsi üçün CSMBT-nin bütün elementləri ilə tanış olmaq lazımdır. Təkcə qısa qeyd aparılmasından istifadə etmək kifayət etmir. Belə ki, terminlərin mənası və anlayışı milli hüquq sistemlərində istifadə olunan terminlərdən fərqlənə bilər və hətta bir ölkə daxilində müxtəlif yurisdiksiyalarda fərqli ola bilər.[31]

Cinayətin müəyyən olunmuş kateqoriyalar üzrə təsnifləşdirilməsi mümkün olmayan hallar üçün kateqoriyanın adında “digər” sözü ilə təqdim olunan (məsələn, digər dələduzluq əməlləri) əlavə kateqoriyalar mövcuddur. Cinayətləri bu əlavə kateqoriyalara mümkün qədər az daxil etmək üçün təsnifatda olan hər bir kateqoriyanı dəqiq yoxlamaq lazımdır.

CSMBT-nin milli səviyyədə tətbiqi ölkədaxili qanunvericilikdə nəzərdə tutulan cinayətlərin onun strukturuna diqqətli şəkildə aid edilməsini tələb edəcək tədrici proses olacaq. CSMBT və cinayətlərin milli təsnifatı arasında uyğunluğun milli cədvəlləri CSMBT-nin ölkə səviyyəsində tətbiqinə kömək edəcək. Birləşmiş Millətlər Təşkilatının Narkotik və Cinayətkarlıq İdarəsi bu prosesin dəstəklənməsi üçün təlimat qaydaları da daxil olmaqla,

[30] Hərbi cinayətlər, soyqırım və insanlıq əleyhinə olan cinayətlər kimi təsnif olunan cinayətlər istisna olmaqla, 1-ci Səviyyə 11-ci kateqoriyaya (“Universal yurisdiksiya altına düşən əməllər”) aid olunur.
[31] United Nations Economic Commission for Europe. Conference of European Statisticians. Report of the UNODC/UNECE Task Force on Crime Classification to the Conference of European Statisticians. 2011. Veb: www.unodc.org/documents/data-and-analysis/statistics/crime/Report_crime_classification_2012.pdf.

CSMBT-nin strukturuna uyğun olaraq cinayətkarlıq üzrə milli məlumatların tərtib olunmasına kömək edən dəstəkləyici sənədlər və əlavə vasitələr işləyib hazırlayacaq. Planlaşdırılan təlimat qaydaları – milli inzibati sistemlərin cinayətkarlıq üzrə statistik məlumatlarının CSMBT-yə ünvanlanması, CSMBT-də zərərçəkmiş şəxslərlə bağlı məlumatların əks olunması, qaydalar və kodlaşdırma problemləri üçün müxtəlif həcmlərdən ibarət olacaq.

3.2. CSMBT-də hüquqi daxil olunanlar və istisnaların istifadəsi

Daxil edilənlər

Hər kateqoriyanın bu kateqoriyada təsnif edilən daxil edilənlər siyahısı və ya cinayət əməlləri nümunələri və ya əməlləri/hadisələri vardır. Lakin, onlar altkateqoriyalar deyillər. Onlar cinayət əməllərinin bölüşdürülməsində praktiki tövsiyələrin təmin edilməsi və bir kateqoriya ilə digərinin arasında sərhədin müəyyən edilməsi məqsədilə siyahısı tutulmuş əlaqəli kateqoriyaya aid olan ümumi cinayət əməlləridir.[32] Məsələn, "Fauna və floranın mühafizə və ovlanması qadağan olunan növlərinin ticarəti və ya əldə edilməsi" (1003) kateqoriyasındakı daxil olunanlar onu göstərir ki, fauna və floranın növlərinin qanunsuz dövriyyəsi və onların qanunsuz ticarəti və ya onların əldə edilməsi bu kateqoriyaya aid edilən cinayətlərin bəzilərdir. Daxil edilənlər qəti olaraq müəyyən edilməyib və onların siyahısı gələcəkdə genişləndirilə bilər.

İstisnalar

Qeyd olunan kateqoriya ilə uyğunluq təşkil etməsinə baxmayaraq, bir çox kateqoriyanın istənilən kateqoriyada təsnif edilə bilən istisnalar siyahısı, cinayətlər və ya əməllərin nümunələri vardır. Hər istisna olunan cinayətdən sonra həmin cinayətin aid edilməli olduğu kateqoriyanın kodu göstərilmişdir.[33] Məsələn, "Fauna və floranın mühafizə və ovlanması qadağan olunan növlərinin ticarəti və ya əldə edilməsi" (1003) kateqoriyasında istisnalar onu göstərir ki, ev heyvanını oğurlama 0502-də; heyvanlar ilə davranış, onların yetişdirilməsi və ya saxlanması normalarını pozan cinayətlər 10091-də; mal-qara soyğunçuluğu 04014-də; mal-qara oğurluğu 05025-də kodlaşdırılır.

Ümumilikdə, istisnalar və daxil edilənlər cinayətlərə və kateqoriyaların hər birinə fərdi yanaşmaya kömək edir. Onlar əməllərin/hadisələrin yalnız bir kateqoriyaya aid edilməsini təmin etmək üçün kateqoriyalar arasında sərhədləri dəqiqləşdirir.

[32] World Health Organization. International Statistical Classification of Diseases and Related Health Problems 10th Revision, Volume 2 Instruction Manual. Page 19. 2010. Veb: www.who.int/classifications/icd/ICD10Volume2_en_2010.pdf. 33 Ibid., p. 20.
[33] Ibid., 20-ci səhifə.

3.3. Əlavə bölünən dəyişənlər

Bölünən dəyişənlər zərərçəkmiş şəxsin və icraçının xüsusiyyətləri kimi hər bir cinayətin mürəkkəbliyinin başa düşülməsi üçün cinayət haqqında əlavə məlumatları qeydə almağa imkan verir. Cədvəl A-da hər ayrı cinayət əməlinin/hadisənin və ya icraçının və zərərçəkmiş şəxsin xüsusiyyətlərinin daha ətraflı təsviri üçün istifadə oluna biləcək bölünən dəyişənlərin minimal toplusunun icmalı təqdim olunmuşdur. Hər kateqoriyanın qarşısındakı abreviaturalar cinayətkarlıq üzrə qeydlərdə dəyişənlərin kodlaşdırılması üçün qısa işarələnmiş təsvirlər verir.

Bölünən dəyişənlərin ("işarələrin") bir çoxu yalnız müəyyən cinayətlərin lazımi təhlilini təmin edir. Məsələn, "Cəhd edilmiş/başa çatdırılmış" (At) işarəsi 0101 kodlu "Qəsdən adam öldürmə"yə tətbiq olunmur (belə ki, ancaq başa çatdırılmış qəsdən adam öldürmə halları nəzərə alınır), həmçinin 0102 kodlu "Qəsdən adam öldürməyə cəhd"ə tətbiq olunmur (belə ki, burada ancaq adam öldürməyə cəhd etmə nəzərə alınır) və 0103 kodlu "Ehtiyatsızlıqdan adam öldürmə"yə tətbiq olunmur (belə ki, anlayışa görə öldürməyə cəhd istisna edilir). Lakin, cinayətin digər növləri üçün bu və ya digər bölünən dəyişənlər cinayətin müəyyən xüsusiyyətləri haqqında konseptual əhəmiyyətli məlumatları təmin edir:

- *"Silah növü"* (We) işarəsi cinayətin törədilməsində istifadə edilən silahların əsas kateqoriyaları üzrə zorakı cinayətləri fərqləndirməyə imkan verir;
- *"Şərait konteksti"* (SiC) işarəsi cinayətkarlıqla məşğul olan mütəşəkkil cinayətkar qrupların bir neçə mühüm növünə dair məlumatları təmin edir;
- *"Coğrafi yer"* (Geo) işarəsi ölkə daxilində cinayətin törədildiyi ərazini müəyyən etməyə imkan verir və "eksterritorial" kimi qeydə alınmış cinayətləri göstərir;
- *"Tarix və vaxt"* (DaT) işarəsi cinayət törədildiyi tarix və saatı dəqiq (əgər məlumdursa) göstərməyə imkan verir və maraq kəsb edən törəmə kateqoriyaların yaradılması üçün istifadə oluna bilər (məsələn, günün müəyyən vaxtında törədilmiş quldurluq);
- *"Cinayətin törədildiyi yer"* (Lo) işarəsi cinayətlərin törədildiyi yerlərin növlərinə dair məlumatları toplayır və cinayətlərin törədildiyi yerlər barədə səciyyəvi və ümumi əlamətləri müəyyən etməyə imkan verir (məsələn, evdə və ya həbsxanada);
- *"Motiv"* (Mo) işarəsi cinayətin törədilməsi motivlərinin bir neçə əsas konseptual əhəmiyyətli formalarını, xüsusilə də, nifrət zəminində zərərçəkmiş şəxsin xarakterik xüsusiyyətləri, etiqad və ya dəyərləri səbəbindən törədilmiş müəyyən cinayətləri xüsusi olaraq vurğulayır;

- *“Kibercinayətkarlıqla əlaqədar”* (Cy) işarəsi kompüter vasitəsilə törədilən müxtəlif növ cinayətləri fərdiləşdirməyə xidmət edir (məsələn, internet dələduzluğu, kibertəqib və ya elektron yayılma vasitəsilə müəllif hüquqlarının pozulması);
- *“Məlumatın mənbəyi”* (Rep) işarəsi qeydə alınmış cinayətlər haqqında daxil olan məlumat mənbələrinin təhlilini aparmağa imkan verir, (məsələn, müəyyən cinayətlər haqqında zərərçəkmiş şəxslər və ya şahidlər tərəfindən məlumat verilir və ya bilavasitə polis tərəfindən aşkar edilir)

Bundan əlavə, zərərçəkmiş şəxsə və icraçıya dair fərdi-izahlı bir sıra bölünən dəyişənlər də vardır.

Cədvəl: A Bölünən dəyişənlər[34]

Hadisələr üzrə bölgü	**Zərərçəkmiş şəxslər üzrə bölgü**	**Cinayət törətmiş şəxslər üzrə bölgü**	**Məlumatların təsviri/daxil edilənlər**
At – Cəhd edilmiş/başa çatdırılmış	**SV** – Zərərçəkmiş şəxsin cinsi	**SP** – Cinayətkarın cinsi	**Th** – hədə-qorxular
We – İstifadə edilmiş silahın növü	**AV** – Zərərçəkmiş şəxsin yaşı	**AP** – Cinayətkarın yaşı	**AA** – Əlbirlik
SiC – Şərait konteksti	**STV** – Zərərçəkmiş şəxsin yaş kateqoriyası (yetkinlik yaşına çatmamış/ yetkinlik yaşına çatmış)	**STP** – Cinayətkarın yaş kateqoriyası (yetkinlik yaşına çatmamış/ yetkinlik yaşına çatmış)	**Ac** – Sövdələşmə
Geo – Coğrafi yer	**ViP** – Zərərçəkmiş şəxslə cinayət törətmiş şəxs arasında əlaqə	**ViP** – Zərərçəkmiş şəxslə cinayət törətmiş şəxs arasında əlaqə	**CP** – Konspirasiya/plan-laşdırma/hazırlıq
DaT – Tarix və vaxt	**Cit** – Vətəndaşlıq	**Cit** – Vətəndaşlıq	**In** – Cinayətin törədilməsinə təhrikçilik
Lo – Cinayət törədildiyi yer	**LS** - Zərərçəkmiş şəxsin hüquqi statusu (fiziki/hüquqi şəxs)	**LS** – Cinayətkarın hüquqi statusu (fiziki/hüquqi şəxs)	
Mot – Motiv	**Int** - Zərərçəkmiş şəxsin sərxoşluq vəziyyəti	**Int** – Cinayət törətmiş şəxsin sərxoşluq vəziyyəti	
Cy – Kibercinayətkar-lıqla əlaqədar	**ES** – Zərərçəkmiş şəxsin iqtisadi fəaliyyətinin statusu	**EASt** - Cinayətkarın iqtisadi fəaliyyətinin statusu	
Rep – Məlumatın mənbəyi		**Rec** - İcraçının residivist statusu	
		Fe – Faktiki səhv	

[34] Hər bir element və dəyişən amil ancaq seçilmiş kateqoriyalara şamil oluna bilər.

3.4.Digər beynəlxalq təsnifatlarla qarşılıqlı əlaqə

Sağlamlığa fiziki zərər yetirən və ya ölüm ilə nəticələn cinayətlərə dair CSMBT Ümumdünya Səhiyyə Təşkilatının hazırladığı Xəstəliklərin Beynəlxalq Təsnifatı (ICD) ilə əlaqəlidir. ICD epidemiologiyada, səhiyyə sisteminin idarə olunmasında və kliniki təcrübələrdə uzun illərdir tətbiq olunan standart diaqnostik vasitədir.[35] ICD-10 öz strukturu çərçivəsində xəstəliyin və ölümün xarici səbəblərinin (fəsil XX) təsnifatını təmin edir və CSMBT-nin məqsədləri üçün ən mühüm kateqoriyalardan biri "hər hansı üsul ilə zərər yetirmək və ya öldürmək məqsədilə digər şəxs tərəfindən yetirilən xəsarətlər" kimi müəyyən edilən və "Zorakılıq" olaraq nəzərdə tutulan səbəblər qurupudur. Basqın nəticəsində zərərçəkmiş şəxs ölərsə, ölüm səbəbi ICD-10-da "Zorakılıq" kimi təsnif olunur və bu kimi ölüm hallarının statistik hesablanması tez-tez qəsdən adam öldürmənin sayının ölçülməsi üçün istifadə olunur və qətllərin sayının hesablanması üçün cinayət prosesinin statistik məlumatları ilə müqayisə olunur.

Ümumilikdə, CSMBT-də qəsdən adam öldürmə anlayışı və ICD-10-dakı fiziki zorakılıq tətbiq edilməsi nəticəsində ölüm anlayışı bir-birinə ziddiyyət təşkil etmir, belə ki, hər iki anlayış əməlin qəsdən törədilməsinin əlamətini tələb edir və əməlin qanunsuz olduğuna işarə edir (məsələn, ICD-10-da qanuni müdaxilə və ya hərbi əməliyyatlar nəticəsində həyatdan məhrum etmə hallarını istisna edilir). Bununla belə, CSMBT başlıca olaraq icraçıların müxtəlif səviyyəli məsuliyyətlərini müəyyən etdiyinə və müəyyən həyatdan məhrum etmə hallarının daha müfəssəl təsvirini verdiyinə görə iki təsnifat arasında bəzi uyğunsuzluqlar mövcuddur. Bu kimi ziddiyyət, məsələn, zəruri müdafiə zamanı həyatdan məhrum etmə hallarında olur (ICD-10-da bu hallar "fiziki zorakılıq tətbiq edilməsi nəticəsində ölüm" kateqoriyasına daxil edilir, CSMBT-də isə onlara zəruri müdafiə həddini aşmaqla "qəsdən adam öldürmə" kimi baxılır). Digər hallarda CSMBT qəsdən adam öldürmə və ya digər qanunsuz həyatdan məhrum etmə hallarına daxil olunma və ya çıxarılma üçün daha müfəssəl təsvirlər verir. Məsələn, hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən həddindən artıq gücün tətbiqi nəticəsində ölüm halları CSMBT-yə qəsdən adam öldürmə kimi daxil olunur, ancaq ICD-10-da onlar qəsdən adam öldürmə halları kimi daxil edilmirlər; analoji olaraq CSMBT-də müharibə vəziyyətlərində həyatdan məhrum etmənin müəyyən halları vəziyyətdən asılı olaraq "qəsdən adam öldürmə" və ya "silahlı münaqişə zamanı adam öldürmə" və ya "hərbi cinayətlər" kimi təsnifləşdirilə bilər, ICD-10-un müvafiq kateqoriyası bu cür fərqlilik yaratmır.

ICD-10-da bədən xəsarətlərinin yetirilməsi və ya öldürmənin ən müxtəlif mexanizmlərini əhatə edən "Zorakılıq" kateqoriyasının daha müfəssəl bölgüsü verilmişdir, CSMBT-də isə həyatdan məhrum etmə mexanizmləri üzrə qəsdən adam öldürmənin əlavə bölgüsünün

[35] İCD-10-un ən son versiya 1994-cü ildə qüvvəyə minmişdir və hal-hazırda 11-ci versiyası hazırlanır.

yaradılmasının ardıcıl yanaşması qəbul olunmuşdur (bax: Cədvəl 5, ICD-10-da X85-Y09 fiziki zorakılıq qrup kateqoriyalarına əsaslanan).

ICD-dən əlavə CSMBT, həmçinin ilk dəfə 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı Katibliyinin İqtisadi və Sosial Məsələlər üzrə Departamenti tərəfindən işlənib hazırlanmış və 2008-ci ildə təkrar baxılmış istehsal fəaliyyətinin beynəlxalq təsnifatı olan İqtisadi Fəaliyyətin bütün növləri üzrə Beynəlxalq Standart Sahə Təsnifatından (ISIC) istifadə edir. ISIC CSMBT-nin bölünən dəyişənlər cədvəlində iqtisadi sektorlar, kommersiya müəssisələri və idarələr üzrə cinayətdən zərər çəkən şəxsləri müəyyənləşdirmək məqsədilə yaradılmışdır. Bu, xüsusilə, kommersiya müəssisələrinə qarşı mütəşəkkil cinayətkar qrup tərəfindən törədilmiş cinayətlər və ya əməkdaşlar tərəfindən törədilən cinayətlər kimi kommersiya müəssisələrinə qarşı cinayətlərin eyniləşdirilməsi (müəyyən edilməsi) üçün faydalıdır.

4. Geniş və ətraflı struktur

Bölmə 01 Ölümlə nəticələnən və ya öldürməyə yönələn əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0101			**Qəsdən adam öldürmə**
0102			**Qəsdən adam öldürməyə cəhd**
0103			**Ehtiyatsızlıqdan adam öldürmə**
	01031		Cinayətkarcasına özünəgüvənmə nəticəsində adam öldürmə
	01032		Cinayətkarcasına etinasızlıq nəticəsində adam öldürmə
		010321	Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində adam öldürmə
		010322	Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə əlaqəli olmayan adam öldürmə
0104			**Özünü öldürməyə kömək etmə və ya özünü öldürmə həddinə çatdırma**
	01041		Özünü öldürməyə kömək etmə
	01049		Özünü öldürməyə köməketmə və ya özünü öldürmə həddinə çatdırma kimi digər əməllər
0105			**Evtanaziya**
0106			**Qanunsuz abort etmə**
0107			**Silahlı münaqişə zamanı adam öldürmə**
0109			**Ölümə səbəb olan və ya öldürməyə yönələn digər əməllər**
Bölmə 02 Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0201			**Basqın və hədə-qorxular**
	02011		Basqın
		020111	Ağır nəticələrə səbəb olan basqın
		020112	Az ağır nəticələrə səbəb olan basqın
	02012		Hədə-qorxu
		020121	Ağır nəticələrə səbəb olan hədə-qorxu
		020122	Az ağır nəticələrə səbəb olan hədə-qorxu
	02019		Digər basqın və ya hədə-qorxular

0202			**Şəxsiyyətin azadlığı əleyhinə olan əməllər**
	02021		Yetkinlik yaşına çatmayan şəxsin oğurlanması
		020211	Valideyn tərəfindən oğurlanma
		020212	Digər ailə üzvü tərəfindən oğurlanma
		020213	Qəyyum (himayəçi) tərəfindən oğurlanma
		020219	Yetkinlik yaşına çatmayan şəxslərlə bağlı digər oğurluq əmelləri
	02022		Qanunsuz azadlıqdan məhrum etmə
		020221	Adam oğurluğu
		020222	Azadlığın qanunsuz məhdudlaşdırılması
		020223	Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə
		020229	Qanunsuz azadlıqdan məhrum etmədə ehtiva edilən digər əməllər
	02029		**Şəxsiyyətin azadlığı əleyhinə olan digər əməllər**
		020291	Qanunsuz olaraq övladlığa götürmə
		020292	Qadını nikaha daxil olmağa məcbur etmə
		020299	Şəxsiyyətin azadlığı əleyhinə olan digər əməllər
0203			**Kölelik və istismar**
	02031		Kölelik
	02032		Məcburi əmək
		020321	Ev təsərrüfatında məcburi əmək
		020322	İstehsalatda məcburi əmək
		020323	Dövlət orqanları və ya Silahlı qüvvələrdə məcburi əmək
		020329	Digər məcburi əməkdə ehtiva edilən əməllər
	02039		Digər kölelik və istismar əmelləri
0204			**İnsan alveri**
	02041		Cinsi istismar məqsədilə insan alveri
	02042		Məcburi əmək və ya xidmət məqsədilə insan alveri
	02043		İnsan orqanlarının və toxumalarının qanunsuz çıxarılması məqsədilə insan alveri
	02044		Digər məqsədlər üçün insan alveri
0205			**Məcbur etmə**
	02051		Hədə-qorxu ilə tələb etmə və ya şantaj

	02059		Digər məcbur etmə əməlləri
0206			**Ehtiyatsızlıq**
	02061		Himayəsi altında olan şəxslərə qarşı cinayətkarcasına etinasızlıq
		020611	Himayəsi altında olan uşaqlara qarşı cinayətkarcasına etinasızlıq
		020612	Himayəsi altında olan digər asılı şəxslərə qarşı cinayətkarcasına etinasızlıq
		020619	**Himayəsi altında olan şəxslərə yönəlmiş cinayətkarcasına etinasızlıqda ehtiva edilən digər əməllər**
	02062		Səhlənkarlıq və ya qulluğa səhlənkar yanaşma
	02063		Nəqliyyat vasitəsinin idarə edilməsi zamanı ehtiyatsızlıq
	02069		Ehtiyatsızlıqla törədilən digər əməllər
0207			**Təhlükəli əməllər**
	02071		Sağlamlığa təhlükə yaradan əməllər
	02072		Psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi
		020721	Spirtli içkinin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi
		020722	Narkotik maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi
		020729	Digər güclü təsir edən maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi
	02079		Digər təhlükəli əməllər
0208			**Qorxu və ya emosional sarsıntı yaratmağa yönəlmiş hərəkətlər**
	02081		**Seksual qısnama**
		020811	İş yerində seksual qısnama
		020819	Digər seksual qısnama əməlləri
	02082		Təqib
	02089		Qorxu və ya emosional sarsıntı yaratmağa yönəlmiş digər əməllər
0209			**Böhtan və ya təhqir**
	02091		Zərərçəkmiş şəxsin xarakterik cəhətləri və xüsusiyyətləri ilə əlaqədar böhtan və ya təhqir
	02092		Zərərçəkmiş şəxsin inanc və ya dəyərləri ilə əlaqədar böhtan və ya təhqir

	02099		Digər böhtan və ya təhqir əmelləri
0210			**Ayrı-seçkilik**
	02101		Şəxsi ayrı-seçkilik
	02102		Qrup ayrı-seçkiliyi
	02109		Digər ayrı-seçkilik əmelləri
0211			**Şəxsiyyətə qarşı yönəlmiş əmellər**
	02111		Şəxsi həyatın toxunulmazlığını pozma
	02119		Şəxsiyyətə qarşı yönəlmiş digər əmellər
0219			**Şəxsə zərər vuran və ya zərər vurmaya yönəlmiş digər əmellər**
BÖLMƏ 03 Seksual xarakterli təhlükəli əmellər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0301			**Cinsi zorakılıq**
	03011		Zorlama
		030111	Zor tətbiq etməklə zorlama
		030112	Zor tətbiq etməməklə zorlama
		030113	Təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsi zorlama
		030119	Digər zorlama əmelləri
	03012		Seksual xarakterli zorakılıq hərəkətləri
		030121	Seksual xarakterli fiziki zorakılıq hərəkətləri
		030122	Seksual xarakterli qeyri-fiziki zorakılıq hərəkətləri
		030129	Hər hansı kateqoriyaya daxil edilməyən digər seksual xarakterli zorakılıq hərəkətləri
	03019		Digər seksual zorakılıq əmelləri
0302			**Cinsi istismar**
	03021		Yetkinlik yaşına çatmış şəxslərin cinsi istismarı
	03022		Uşaqların cinsi istismarı
		030221	Uşaq pornoqrafiyası
		030222	Uşaq fahişəliyi
		030223	Uşaqların cinsi istismara hazırlanması
		030229	Uşaqların cinsi istismarını nəzərdə tutan digər əmellər
	03029		Cinsi istismarı nəzərdə tutan digər əmellər
0309			**Seksual xarakterli digər təhlükəli əmellər**

BÖLMƏ 04 Şəxsə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən mülkiyyət əleyhinə yönəlmiş əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0401			**Soyğunçuluq**
	04011		Soyğunçuluq
		040111	İctimai yerdə soyğunçuluq
		040112	Şəxsi mülkiyyətdə olan yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən soyğunçuluq
		040119	Soyğunçuluqda ehtiva edilən digər əməllər
	04012		Tranzit zamanı dəyərli əşyalar və ya malların soyğunçuluğu
		040121	Avtomobil və ya digər nəqliyyat vasitəsinin soyğunçuluğu
		040129	Tranzit zamanı dəyərli əşyalar və ya malların soyğunçuluğu ilə bağlı digər əməllər
	04013		Təşkilat və ya müəssisədə soyğunçuluq
		040131	Maliyyə müəssisəsində soyğunçuluq
		040132	Qeyri-maliyyə müəssisəsində soyğunçuluq
	04014		Mal-qara soyğunçuluğu
	04019		Soyğunçuluqda ehtiva edilən digər əməllər
0409			**Şəxsə qarşı zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən və mülkiyyətə qarşı yönəlmiş digər əməllər**

BÖLMƏ 05 Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0501			**Quldurluq**
	05011		Kommersiya müəssisəsinə daxil olmaqla törədilən quldurluq
	05012		Fərdi yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən quldurluq
		050121	Fərdi yaşayış sahəsinə, habelə binaya qanunsuz olaraq girməklə törədilən quldurluq
		050122	Anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən quldurluq
	05013		İctimai yerlərdə quldurluq
	05019		Quldurluqda ehtiva edilən digər əməllər
0502			**Oğurluq**

	05021		Mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanması
		050211	Avtomobil və ya başqa nəqliyyat vasitəsinin oğurlanması
		050212	Avtomobil və ya başqa nəqliyyat vasitəsinin qanunsuz istifadəsi
		050213	Avtomobil və ya başqa nəqliyyat vasitəsinin hissələrinin oğurlanması
		050219	Mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanmasını nəzərdə tutan digər əməllər
	05022		Şəxsi əmlakın oğurlanması
		050221	Şəxsi əmlakın oğurlanması
		050222	Şəxsi əmlakın nəqliyyat vasitəsindən oğurlanması
		050229	Şəxsi əmlakın oğurlanmasını nəzərdə tutan digər əməllər
	05023		Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan oğurluq
		050231	Mağazadan oğurluq
		050239	Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan oğurluqda ehtiva edilən digər əməllər
	05024		Dövlət əmlakının oğurlanması
	05025		Mal-qaranın oğurlanması
	05026		Xidmətlərin oğurlanması
	05029		Oğurluqda ehtiva edilən digər əməllər
0503			**Əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqədar cinayətlər**
0504			**Əmlaka zərər vurma**
	05041		Dövlət əmlakına zərər vurma
	05042		Şəxsi əmlaka zərər vurma
	05043		Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatın əmlakına zərər vurma
	05049		Əmlaka zərər vurmada ehtiva edilən digər əməllər
0509			**Yalnız mülkiyyət əleyhinə yönəlmiş digər əməllər**
BÖLMƏ 06 Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0601			**Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar əməllər**
	06011		Şəxsi istehlak məqsədilə nəzarətdə olan

			narkotik vasitələri qanunsuz olaraq əldə etmə, sahiblik etmə, istifadə etmə, kultivasiya etmə və ya istehsal etmə
		060111	Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq əldə etmə, sahiblik etmə, istifadə etmə
		060112	Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq kultivasiya etmə və ya istehsal etmə
	06012		Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi, onları kultivasiya etmə və ya istehsal etmə
		060121	Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz dövriyyəsi
		060122	Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz hazırlanması
		060123	Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələri qanunsuz kultivasiya etmə
		060124	Şəxsi istehlak məqsədi olmadan prekursorların qanunsuz yayılması
		060129	Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi, onları kultivasiya etmə və ya istehsal etmədə ehtiva edilən digər əməllər
	06019		Narkotik vasitələr və ya prekursorlarla əlaqəli digər qanunsuz əməllər
0602			**Spirtli içki, tütün və başqa nəzarət edilən maddələrlə əlaqəli qanunsuz əməllər**
	06021		Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsi
		060211	Spirtli içki məhsullarının qanunsuz əldə edilməsi və ya istifadəsi
		060212	Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması
		060219	Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsini ehtiva edən digər əməllər
	06022		Tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsi
		060221	Tütün və tütün məmulatlarının qanunsuz əldə edilməsi və ya istifadəsi
		060222	Tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması
		060229	Tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsini ehtiva edən digər əməllər

	06029		Spirtli içki, tütün və ya digər nəzarət edilən maddələrlə əlaqəli digər qanunsuz əməllər
0609			**Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar digər qanunsuz əməllər**
BÖLMƏ 07 Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0701			**Dələduzluq**
	07011		Maliyyə dələduzluğu
		070111	Dövlətə qarşı maliyyə dələduzluğu
		070112	Fiziki və hüquqi şəxslərə qarşı maliyyə dələduzluğu
	07019		Dələduzluqda ehtiva edilən digər əməllər
0702			**Saxtakarlıq**
	07021		Ödəniş vasitələrinin saxtalaşdırılması
		070211	Nağd ödəniş vasitələrinin saxtalaşdırılması
		070212	Nağdsız ödəniş vasitələrinin saxtalaşdırılması
	07022		Malların saxtalaşdırılması
	07023		Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma
	07029		Digər saxtakarlıq əmələri
0703			**Korrupsiya**
	07031		Rüşvətxorluq
		070311	Rüşvət vermə (aktiv rüşvətxorluq)
		070312	Rüşvət alma (passiv rüşvətxorluq)
	07032		Mənimsəmə
	07033		Vəzifə səlahiyyətlərindən sui-istifadə
	07034		Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)
	07035		Qanunsuz varlanma
	07039		Digər korrupsiya cinayətləri
0704			**Cinayət fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlərlə bağlı əməllər**
	07041		Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma
	07042		Mədəni sərvətlərin qanunsuz dövriyyəsi
	07049		Cinayət yolu ilə əldə edilmiş gəlirlərlə bağlı digər əməllər

0709			**Dələduzluq, aldatma və ya korrupsiya ilə bağlı olan digər əməllər**
BÖLMƏ 08 İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0801			**İctimai qayda əleyhinə olan cinayətlər**
	08011		İctimai qayda əleyhinə zorakılıqla müşayiət olunan əməllər
	08012		Sosial və dini ictimai qaydalar əleyhinə olan əməllər
	08019		İctimai qayda əleyhinə olan digər əməllər
0802			**İctimai mənəviyyat əleyhinə cinayətlər**
	08021		Fahişəliyə cəlb etmə
	08022		Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma
	08029		İctimai mənəviyyat əleyhinə digər əməllər
0803			**İfadə azadlığına qarşı yönəlmiş əməllər**
	08031		İfadə azadlığının pozulmasına qarşı əməllər
	08032		Nəzarət edilən ictimai davranış qaydalarının ifadə edilməsi ilə bağlı əməllər
		080321	Dini təbliğat aparılması tələblərini pozma
		080322	Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması
		080329	Nəzarət edilən ictimai davranış qaydalarının ifadə edilməsi ilə bağlı digər əməllər
	08039		İfadə azadlığına qarşı yönəlmiş digər əməllər
0804			**Dövlət büdcəsinin gəlirləri və idarəetmə qaydaları əleyhinə olan əməllər**
	08041		Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər
	08042		Kommersiya və ya maliyyə fəaliyyətini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər
	08043		Mərc oyunlarının təşkili ilə bağlı müddəaları pozan əməllər
	08044		Qaçaqmalçılıq
	08045		Bazarın manipulyasiya edilməsi və ya insayderlərin ticarət əməliyyatları
	08049		Dövlət idarəetməsi və ya tənzimlənməsi haqqında müddəaları pozan digər əməllər
0805			**Miqrasiya ilə əlaqədar qanunsuz əməllər**
	08051		Qanunsuz miqrasiyanın təşkili

	08059		Miqrasiya ilə əlaqədar digər qanunsuz əməllər
0806			**Ədalət mühakiməsi əleyhinə yönəlmiş əməllər**
	08061		Ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma
	08062		Ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarını pozma
	08063		Cinayətkar niyyət
	08064		Qabaqcadan əlbir olma
	08069		Ədalət mühakiməsi əleyhinə olan digər əməllər
0807			**Demokratik seçkilər ilə əlaqədar qanunsuz əməllər**
	08071		Seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma
	08079		Demokratik seçkilər ilə əlaqədar digər qanunsuz əməllər
0808			**Əmək qanunvericiliyini pozan əməllər**
	08081		Kollektiv əmək müqaviləsi ilə bağlı müddəaların pozulması
	08082		Fərdi əmək müqaviləsi ilə bağlı müddəaların pozulması
0809			**İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş digər əməllər**
BÖLMƏ 09 İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
0901			**Silah, partlayıcı maddə və qurğular ilə əlaqədar əməllər**
	09011		**Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular saxlama və ya istifadə etmə**
		090111	Odlu silahın qanunsuz saxlanılması və ya ondan istifadə edilməsi
		090112	Digər növ silahların və ya partlayıcı maddələrin qanunsuz saxlanılması və ya istifadəsi
		090113	Kimyəvi, bioloji və ya radioaktiv materialların qanunsuz saxlanılması və ya istifadəsi
		090119	Qanunsuz olaraq silah, onun komplekt hissələrinin, döyüş sursatın, partlayıcı maddələr və qurğuların saxlanılması və ya istifadəsi ilə əlaqədar digər əməllər
	09012		**Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz dövriyyəsi**

		090121	Odlu silahların qanunsuz dövriyyəsi
		090122	Digər növ silahların və ya partlayıcı maddələrin qanunsuz dövriyyəsi
		090123	Kimyəvi, bioloji və ya radioaktiv materialların qanunsuz dövriyyəsi
		090129	Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz dövriyyəsi ilə əlaqədar digər əməllər
	09019		Silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular ilə əlaqədar digər qanunsuz əməllər
0902			**Sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş əməllər**
	09021		İş yerlərində sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş əməllər
	09029		Sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş digər əməllər
0903			**Kibercinayətlər**
	09031		Kompüter sisteminə qanunsuz daxil olma
	09032		Kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxilə
		090321	Kompüter sisteminə qanunsuz müdaxilə
		090322	Kompüter məlumatlarına qanunsuz müdaxilə
	09033		Kompüter məlumatlarını qanunsuz ələ keçirmə
	09039		Digər kibercinayətlər
0904			**Dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər**
0905			**Mütəşəkkil cinayətkar qrupun fəaliyyəti ilə əlaqədar əməllər**
	09051		Mütəşəkkil cinayətkar qrupda iştirak etmə
	09059		Mütəşəkkil cinayətkar qrupun fəaliyyəti ilə əlaqədar digər əməllər
0906			**Terrorçuluq**
	09061		Terrorçu təşkilatda iştirak etmə
	09062		Terrorçuluğu maliyyələşdirmə
	09069		Terrorçu təşkilatın fəaliyyəti ilə əlaqədar digər əməllər
0907			**Sağlamlığa zərər vurma ilə nəticələnməyən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma**
0909			**İctimai və dövlət təhlükəsizliyi əleyhinə olan digər əməllər**

BÖLMƏ 10 Ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
1001			**Ətraf mühiti çirkləndirən və ya ona ziyan vuran əməllər**
	10011		Atmosferi (havanı) çirkləndirmə
	10012		Suyu (su mənbələrini) çirkləndirmə
	10013		Torpaqları korlama
	10019		Ətraf mühiti çirkləndirən və ya ona ziyan vuran digər əməllər
1002			**Tullantıların daşınması və ya atılması ilə bağlı qanunsuz əməllər**
	10021		Dövlət sərhədləri daxilində tullantıların daşınması və ya atılması ilə bağlı əməllər
	10022		Tullantıların transsərhəd daşınması və ya atılması ilə əlaqədar əməllər
1003			**Fauna və floranın mühafizə və ya qadağan olunan növlərinin ticarəti və ya əldə edilməsi**
	10031		Fauna və floranın mühafizə olunan növlərinin qanunsuz ticarəti və ya əldə edilməsi
		100311	Fauna və floranın mühafizə olunan növlərinin dövlət sərhədləri daxilində qanunsuz ticarəti və ya əldə edilməsi
		100312	Fauna və floranın mühafizə olunan növlərinin transsərhəd dövriyyəsi
	10032		Qadağan edilən və ya nəzarətdə olan heyvan növlərinin ticarəti və ya əldə edilməsi
	10039		Fauna və floranın mühafizə və ya qadağan olunan növlərinin ticarəti və ya əldə edilməsini ehtiva edən digər əməllər
1004			**Təbii ehtiyatların tükənməsi və ya azalmasına səbəb olan qanunsuz əməllər**
	10041		Qanunsuz ağac kəsmə
	10042		Qanunsuz ov etmə, balıq və digər su bioresurslarını qanunsuz tutma və ya fauna və ya flora növlərini qanunsuz toplama
	10043		Faydalı qazıntıların qanunsuz çıxarılması
	10049		Təbii ehtiyatların tükənməsi və ya azalmasına səbəb olan digər qanunsuz əməllər
1009			**Ətraf mühitə zərər vurmağa yönəlmiş digər əməllər**
	10091		Heyvanlar əleyhinə yönəlmiş əməllər
	10099		Ətraf mühitə zərər vurmağa yönəlmiş digər əməllər

BÖLMƏ 11 Başqa kateqoriyalara daxil edilməyən digər cinayət əməlləri			
SƏVİYYƏ 02	**SƏVİYYƏ 03**	**SƏVİYYƏ 04**	**CİNAYƏT**
1101			**Universal yurisdiksiya altına düşən əməllər**
	11011		İşgəncə
	11012		Dəniz quldurluğu
	11013		Müharibə cinayətləri
		110131	Müharibə qanunlarını və adətlərini pozmaqla ölümə və ya sağlamlığa ağır zərər vurmaya səbəb olma
		110132	Silahlı münaqişə zamanı hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlaklarını məhv etmə, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq alma
		110133	Silahlı münaqişə zamanı zorlama, cinsi kölelik, məcburi fahişəlik, məcburi sterilizasiya, məcburi hamiləlik, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə
		110134	Silahlı münaqişə zamanı şəxsin azadlıq hüququ və ləyaqəti əleyhinə yönəlmiş əməllər
		110135	Uşaqların hərbi xidmətə çağırışı və ya hərbi xidmətə cəlb edilməsi
		110139	Digər müharibə cinayətləri
	11014		Soyqırım
	11015		İnsanlıq əleyhinə cinayətlər
	11016		Təcavüz cinayəti
	11019		Universal yurisdiksiya altına düşən digər əməllər
1102			**Gənclər və ya yetkinlik yaşına çatmayan şəxslərə qarşı yönəlmiş əməllər**
	11021		Status hüquqpozmaları
	11029		Gənclər və ya yetkinlik yaşına çatmayan şəxslərə qarşı yönəlmiş digər əməllər
1109			**Başqa kateqoriyalara daxil olmayan digər cinayət əməlləri**

Cədvəl: 1 Cinayətkarlığın Statistik Təsnifatı

BÖLMƏ 01	**Ölümlə nəticələnən və ya öldürməyə yönələn əməllər**	
0101 Qəsdən adam öldürmə Öldürmək və ya ciddi xəsarət yetirmək məqsədilə digər şəxsə qarşı törədilmiş qanunsuz həyatdan məhrumetmə	**+**	**Daxil olunanlar:** Qətl;[36] namus üstündə adam öldürmə;[37] ölüm kimi ağır nəticələrə səbəb olan basqın;[38] terror fəaliyyəti nəticəsində ölümə səbəb olma;[39] cehiz ilə əlaqədar adam öldürmə;[40] qadının öldürülməsi (femisid);[41] ananın yeni doğduğu uşağı qəsdən öldürməsi (infantisid);[42] könüllü törədilmiş qətl;[43] məhkəmədən kənar edamlar; cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə [44]
	-	**İstisnalar:** Qanuni müdaxilə nəticəsində ölüm;[45] zəruri müdafiə həddini aşmaqla qəsdən adam öldürmə;[46] qəsdən adam öldürməyə cəhd (0102); ehtiyatsızlıqdan adam öldürmə; (0103); cinayətkarcasına özünəgüvənmə nəticəsində adam öldürmə[47] (01031); özünü öldürməyə kömək etmə və ya özünü öldürmə həddinə çatdırma (0104); qanunsuz abort etmə (0106); evtanaziya (0105)
0102 Qəsdən adam öldürməyə cəhd etmə Öldürmək və ya ciddi xəsarət yetirmək məqsədilə digər şəxsi qanunsuz həyatdan məhrumetməyə cəhd etmə	**+**	**Daxil olunanlar:** Ağır qətl törətməyə cəhd etmə; terrorçuluq fəaliyyəti nəticəsində adam öldürməyə cəhd etmə; körpənin öldürülməsinə cəhd etmə; qadının öldürülməsinə cəhd etmə
	-	**İstisnalar:** Dölün qanunsuz öldürülməsinə nail olmaq və ya öldürülməsi məqsədilə sövdələşmə (0106)

[36] **Qətl -** digər şəxsi qəsdən həyatdan məhrum etmə.

[37] **Namus üstündə adam öldürmə -** şəxsin ailə üçün şərəfsizlik hesab olunan və xəyanət, cinsi münasibətlər və ya nikahdan kənar hamiləlik də daxil olmaqla cinsi və ya ailədaxili davranış qaydalarını pozması nəticəsində korlanmış ailənin namusunu bərpa etmək niyyəti ilə qohum və ya digər yaxınları tərəfindən öldürülməsi (World Health Organization. *Understanding and addressing violence against women*. 2012. Web: <http://apps.who.int/iris/bitstream/10665/77421/1/WHO_RHR_12.38_eng.pdf>.)

[38] **Ölüm kimi ağır nəticələrə səbəb olan basqın -** ölümə səbəb olacağı və ya sağlamlığa ağır zərər vuracağını bilərək fiziki zorakılıq nəticəsində qəsdən həyatdan məhrum etmə.

[39] **Terrorçuluq fəaliyyəti nəticəsində ölümə səbəb olma -** əhali arasında vahimə yaratmaq, yaxud hakimiyyət orqanlarının və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə və ya belə qərarın qəbul edilməməsinə təsir göstərmək məqsədi ilə kombatant (yəni münaqişə tərəfi) olmayan şəxsin öldürülməsinə və ya onun sağlamlığına ağır zərər vurulmasına yönəlmiş əməllər nəticəsində qəsdən adam öldürmə. (United Nations General Assembly. International Convention for the Suppression of the Financing of Terrorism. 1999. E/RES/54/109, Article 2(1b).

[40] **Cehiz ilə əlaqədar adam öldürmə -** nikaha daxil olduqdan öncə, daxil olduğu vaxt və daxil olduqdan sonra istənilən an cehiz verilməsi və ya qəbul edilməsi ilə əlaqədar qadının qanunuz öldürülməsidir. Cehiz nikahda bir tərəfin digər tərəfə təqdim etdiyi istənilən əmlak və ya aktivdir. (United Nations Division for the Advancement of Women. Good Practices in Legislation on "Harmful Practices" Against Women. Addis Ababa, Ethiopia. 2009. Web: <http://www.un.org/womenwatch/daw/egm/vaw_legislation_2009/Final report EGMGPLVAW.pdf>.)

[41] **Qadının öldürülməsi (femisid) -** qadına nifrət və digər gender səbəblərindən irəli gələrək qəsdən qanının öldürülməsi.

[42] **Ananın yeni doğduğu uşağı qəsdən öldürməsi (infantisid) -** ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi.

[43] **Könüllü törədilmiş qətl -** təhrik etməklə anlaqlı şəxsin digər şəxsi qəsdən həyatdan məhrum etməsi.

Qanunla icazə verilən və digər hallarda güc tətbiq etməklə adam öldürmə - zəruri və öz qulluq vəzifələrinin icra olunması tələb olunan müəyyən edilmiş daxili və beynəlxalq normalarla göstərilən həddin aşılması.

Cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə - hüquqpozan şəxslərin həbsə alınması cəhdi, kütləvi iğtişaşların qarşısının alınması, sabitliyin saxlanılması və digər qanuni hərəkətlərin gedişində hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən özünün və digər şəxslərin həyatını qorumaq məqsədi ilə zor tətbiq etməli olduğu hal.

[46] **Zəruri müdafiə həddini aşmaqla qəsdən adam öldürmə -** şəxsin özünü və ya digər şəxsləri müdaifiə edərkən qəsd edən şəxsi öldürməsi, əgər həmin vəziyyətdə bilavasitə öldürülmək və ya sağlamlığa ağır zərər vurulması təhlükəsi real olduqda və həmin təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün deyildirsə.

[47] **Cinayətkarcasına özünəgüvənmə nəticəsində adam öldürmə-** ölümlə nəticələnə biləcəyi imkanını qabaqcadan görərək lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edərək həyatdan məhrum etmə.

BÖLMƏ 01	Ölümlə nəticələnən və ya öldürməyə yönələn əməllər		
0103	**Ehtiyatsızlıqdan adam öldürmə** Ehtiyatsızlıqdan adam öldürmə	+	**Daxil olunanlar:** Ehtiyatsızlıqdan adam öldürmə; 01031-01032 – də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Ölüm kimi ağır nəticələrə səbəb olan basqın (0101); könüllü törədilmiş qətl (0101)
01031	**Cinayətkarcasına özünəgüvənmə nəticəsində adam öldürmə** Ölümlə nəticələnə biləcəyi imkanını qabaqcadan görərək lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman edərək həyatdan məhrum etmə	+	**Daxil olunanlar:** Ehtiyatsızlıqdan adam öldürmə; ciddi xəsarət yetirmək niyyəti olmadan ölümə səbəb olan bədən xəsarətinin yetirilməsi
		-	**İstisnalar:** 0103-də sadalanan bütün istisnalar tətbiq olunur
01032	**Cinayətkarcasına etinasızlıq nəticəsində adam öldürmə** Ölümlə nəticələnə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, şəxsin onları görmədən digər şəxsi həyatdan məhrum etməsi[48]	+	**Daxil olunanlar:** Cinayətkarcasına etinasızlıq nəticəsində adam öldürmə, hüquqi şəxs tərəfindən adam öldürmə; hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində adam öldürmə; 010321-010322-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Ölümə səbəb olmayan ehtiyazlıqdan törədilən əməllər (0206); 0103-də sadalanan bütün istisnalar tətbiq olunur
010321	**Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrin istismarı qaydalarının pozulması nəticəsində adam öldürmə** Nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olma.[49] - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Nasaz nəqliyyat vasitəsinin idarə edilməsi nəticəsində ölümə səbəb olma; yol hərəkəti qaydalarının pozulması nəticəsində ölümə səbəb olma; alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda nəqliyyat vasitələrinin idarə edilməsi nəticəsində ölümə səbəb olma; yol nəqliyyat hadisəsi nəticəsində adam öldürmə
		-	**İstisnalar:** Ölüm ilə nəticələnməyən nəqliyyat vasitəsinin idarə edilməsi ilə əlaqədar ehtiyatsızlıq (02063); ölüm ilə nəticələnməyən psixotrop maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda nəqliyyat vasitəsinin idarə olunması (02072); 01032-də sadalanan bütün istisnalar tətbiq olunur

[48] **Cinayətkarcasına etinasızlıq** - şəxsin öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməməsi.

[49] **Nəqliyyat vasitəsi** - yolda hərəkət üçün konstruksiya imkanları olan və insan tərəfindən idarə edilən qurğu, habelə onun qoşqusudur.

BÖLMƏ 01	Ölümlə nəticələnən və ya öldürməyə yönələn əməllər		
010322	**Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə əlaqəli olmayan adam öldürmə** Birbaşa zərərçəkmiş şəxsə qarşı yönəlməyən ehtiyatsızlıqdan adam öldürmə. - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Cinayətkarcasına özünəgüvənmə nəticəsində adam öldürmə, ölümə səbəb olan səhlənkarlıq
		-	**İstisnalar:** 01032-də sadalanan bütün istisnalar tətbiq olunur
0104	**Özünü öldürməyə kömək etmə və ya özünü öldürmə həddinə çatdırma** Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma və ya özünü öldürmək istəyən şəxsə məsləhətləri, göstərişləri və məlumatları ilə, alət və ya vasitələr vermək və ya maneələri aradan qaldırmaqla yardım etmə.	+	**Daxil olunanlar:** 01041-01049-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	
01041	**Özünü öldürməyə kömək etmə** Özünü öldürmək istəyən şəxsə məsləhətləri, göstərişləri və məlumatları ilə, alət və ya vasitələr vermək və ya maneələri aradan qaldırmaqla yardım etmə.[50]	+	**Daxil olunanlar:** Həkimin köməyi ilə evtanaziya hesab edilməyən özünü öldürmə; digər şəxsin köməyi ilə özünü öldürmə
		-	**İstisnalar:** Evtanaziya (0105); ölümə səbəb olan və ya öldürməyə yönələn digər əməllər (0109)
01049	**Özünü öldürməyə köməketmə və ya özünü öldürmə həddinə çatdırma kimi digər əməllər** 01041-də təsvir olunmayan digər şəxsin özünü öldürməsinə səbəb olan əməllər.	+	**Daxil olunanlar:** Razısalma və ya başqa üsullarla şəxsi özünü öldürməyə təhrik etmək
		-	
0105	**Evtanaziya** Xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma.[51]	+	**Daxil olunanlar:** Evtanaziya
		-	**İstisnalar:** Ölməyi arzulayan şəxsin özünü öldürməsinə kömək etmək

[50] World Health Organization. WHO Centre for Health Development. Glossary of Terms for Community Health Care and Services for Older Persons. 2004. Web: <http://www.who.int/kobe_centre/ageing/ahp_vol5_glossary.pdf>.
[51] World Health Organization. WHO Centre for Health Development. Glossary of Terms for Community Health Care and Services for Older Persons. 2004. Web: <http://www.who.int/kobe_centre/ageing/ahp_vol5_glossary.pdf>.

BÖLMƏ 01	Ölümlə nəticələnən və ya öldürməyə yönələn əməllər	
0106 Qanunsuz abort etmə Şəxsin dölü qəsdən qanunsuz məhv etməsi.[52]	+	**Daxil olunanlar:** Qanunsuz abort etmə; Qanunsuz abort etmə daxili qaunvericilikdə müəyyən olunduğu kimi; dölün qanunsuz məhv edilməsini dölün bədəninin gizli kənarlaşdırılması yolu ilə gizlədilməsi; qəsdən hamiləliyin süni surətdə dayandırılması və ölü doğum; qanunsuz abortun həyata keçirilməsinin təmin olunması; məcburi abort[53]
	-	**İstisnalar:** Qanuni abort etmə; Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə (02071)
0107 Silahlı münaqişə zamanı adam öldürmə Silahlı münaqişə zamanı hərbi cinayət hesab edilməyən həyatdan qanunsuz məhrumetmə. Müharibə cinayəti - 1101-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** muzdlu tərəfindən ölkədaxili qanunvericiliyə əsasən cinayət hesab edilən, ancaq hərbi cinayət olmayan adam öldürmə
	-	**İstisnalar:** Silahlı münaqişə zamanı qəsdən adam öldürmə kimi tövsif olunan həyatdan məhrum etmə (0101); Silahlı münaqişə ilə bağlı olan və hərbi cinayət hesab olunan həyatdan məhrum etmə
0109 Ölümə səbəb olan və ya öldürməyə yönələn digər əməllər 0101-0107-ci kateqoriyalarda göstərilməyən digər şəxsin ölümünə səbəb olan və ya onu öldürməyə yönələn əməllər	+	**Daxil olunanlar:** Ölümə səbəb olacağını bilə-bilə şəxsə kömək göstərməmə
	-	**İstisnalar:** 0101-0107 - də sadalanan bütün istisnalar tətbiq olunur

[52] Qanunsuz abort etmə daxili qaunvericilikdə müəyyən olunduğu kimi - həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə və xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə

[53] Qadının əvvəlcədən məlumatlandırılaraq razılığı olmadan üzərində abort etmə əməliyyatı həyata keçirmə; qadını əvvəlcədən və məlumatlandırılmış razılığı olmadan və ya həmin proseduru anlatmadan onun üzərində təbii artımın qarşısını almaq niyyəti ilə cərrahi müdaxilənin həyata keçirilməsi və ya həmin cərrahi müdaxilənin nəticəsi kimi təbii artımın qarşısının alınması (İstanbul Konvensiyası) Maddə 39. 2011 il.)

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
0201	**Basqın və hədə-qorxular** Sağlamlığa zərər vurma və ya digər zərər yetirmək məqsədilə zor tətbiq edilməsi və ya sağlamlığa zərər vurma və ya digər zərər yetirmək hədə-qorxusu	+	**Daxil olunanlar:** 02011-02019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Ölüm ilə nəticələnən ciddi basqın (0101); seksual xarakterli təhlükəli əməllər (03); mülkiyyətin ələ keçirilməsi məqsədilə zor tətbiq etmə (04); şəxsi müəyyən hərəkət etməyə məcbur etmək məqsədi ilə zor tətbiq etmə və ya hədələmə (0205)
02011	**Basqın** Qəsdən və ya ehtiyatsızlıqdan şəxsə fiziki gücün tətbiq edilməsi.[54]	+	**Daxil olunanlar:** 020111-020112-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0201-də sadalanan bütün istisnalar tətbiq olunur
020111	**Ağır nəticələrə səbəb olan basqın** Sağlamlığa ağır və az ağır zərər vurmaya səbəb olan qəsdən və ya ehtiyatsızlıqdan şəxsə fiziki gücün tətbiq edilməsi.[55] - Ehtiyatsızlıq - 54-cü qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Sağlamlığa ağır və az ağır zərər vurma; yaralama; ağırlaşdırıcı hallarda basqın; ağırlaşdırıcı hallarda sağlamlığa ağır zərər vurma; döymə; acsid turşusunu şəxsin üzərinə tökmə; qadın cinsiyyət orqanlarında şikəstedici əməliyyatlar; zəhərləmə; silah tətbiq etməklə basqın; məcburi sterilizasiya[56]; zor tətbiq etməklə insan qanının, orqanların və ya toxumaların götürülməsi
		-	**İstisnalar:** Ağır nəticələrə səbəb olan hədə-qorxu (020121); işgəncə (11011); 02011-də sadalanan bütün istisnalar tətbiq olunur
020112	**Az ağır nəticələrə səbəb olan basqın** Şəxsin sağlamlığa zərər vurmayan və ya yüngül zərər vurma ilə nəticələnən qəsdən və ya ehtiyatsızlıqdan fiziki gücün tətbiq edilməsi.[57] - Ehtiyatsızlıq - 54-cü qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Sağlamlığa yüngül zərər vurma; hücum; itələmə, təpikləmə, zərbə yetirmə, təpik atma, vurma, yerlə sürümə və ya atma
		-	**İstisnalar:** Az ağır nəticələrə səbəb olan hədəl-qorxu (020122); 02011-də sadalanan bütün istisnalar tətbiq olunur

[54] **Ehtiyatsızlıq –** Əmələin cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilməsi.

[55] Sağlamlığa ağır zərər vurma - insan həyatı üçün təhlükəli olan və ya görmə, eşitmə, nitq qabiliyyətinin və ya hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsinə, psixi pozuntuya və ya sağlamlığın başqa cür pozulmasına, əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmamaqla uzun müddətə itirilməsi ilə və ya təqsirkar üçün aşkar surətdə zərərçəkmiş şəxsin peşəkar əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar olan və ya hamiləliyin pozulmasına, şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsinə səbəb olan, yaxud sifətin silinməz dərəcədə eybəcərləşdirilməsində ifadə olunan zərər vurma.

Sağlamlığa az ağır zərər vurma - zərərçəkmiş şəxsin həyatı üçün təhlükəli olmayan və sağlamlığa ağır zərər vurmaya səbəb olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olmuş və ya ümumi əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmaqla əhəmiyyətli dərəcədə itirilməsi ilə nəticələnən sağlamlığa az ağır zərər vurma

[56] Əvvəlcədən məlumatlandırılmadan və razılığı olmadan və ya həmin proseduru dərk etməyən şəxsin nəsilartırma qabiliyyətindən məhrum edilməsi, yaxud qadının hamiləlikdən qorunması məqsədi ilə əməliyyat aparma. (Avropa Şurası. Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (İstanbul Konvensiyası). Maddə 39, 2011-ci il).

[57] **Sağlamlığa yüngül zərər vurma**- sağlamlığın qısa müddətə pozulmasına və ya ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmuş sağlamlığa yüngül zərər vurma

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02012	**Hədə-qorxu** Hədə-qorxunun həyata keçirilməsi imkanı real olduqda hər hansı hədələyici davranış.[58]	+	**Daxil olunanlar:** 020121-020122-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Şəxsi müəyyən hərəkət etməyə məcbur etmək məqsədi ilə zor tətbiq etmə hədə-qorxusu (0205); şahidə, məhkəmə və ya cinayət təqibi orqanları əməkdaşına hədə-qorxu (08061);səs verməyə təsir etmək məqsədi ilə seçicilərə hədə-qorxu gəlmə (08071); soyğunçuluq məqsədilə zor tətbiq etmə hədə-qorxusu (0401); seksual xarakterli bütün təhlükəli əməllər (03); zor tətbiq etmə hədə-qorxusu ilə insan alveri (0204); 0201-də sadalanan bütün istisnalar tətbiq olunur
020121	**Ağır nəticələrə səbəb olan hədə-qorxu** Öldürmək və ya ağır zərər yetirmək məqsədi ilə hədə-qorxu.[59] - Hədə-qorxu - 02012-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Öldürmək və ya sağlamlığa ağır və xüsusilə ağır zərər vurma hədə-qorxusu, ailə üzvü, dost və ya digər şəxsi öldürmə və ya onların sağlamlığa ağır və xüsusilə ağır zərər vurma hədə-qorxusu
		-	**İstisnalar:** 02012-də sadalanan bütün istisnalar tətbiq olunur
020122	**Az ağır nəticələrə səbəb olan hədə-qorxu** Sağlamlığa yüngül zərər vurma məqsədi ilə hədə-qorxu.[60] - Hədə-qorxu - 02012-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Sağlamlığa yüngül zərər vurma hədə-qorxusu, ailə üzvləri və ya dostun sağlamlığa yüngül zərər vurma hədə-qorxusu
		-	**İstisnalar:** 02012-də sadalanan bütün istisnalar tətbiq olunur
02019	**Digər basqınlar və ya hədə-qorxular** 02011-02012 kateqoriyalarda təsvir və ya təsnif olunmayan sağlamlığa zərər vurmaya və ya digər zərərə səbəb olan və ya sağlamlığa zərər vurma və ya digər zərər yetirməklə hədələyən əməllər.	+	
		-	**İstisnalar:** 0201-də sadalanan bütün istisnalar tətbiq olunur
0202	**Şəxsiyyətin azadlığı əleyhinə olan əməllər** Şəxsin tutulması və ya onun hərəkət etmə, yaxud şəxsi azadlığının məhdudlaşdırılması[61]	+	**Daxil olunanlar:** 02021-02029-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Kölelik və istismar (0203); insan alveri (0204); ifadə azadlığına qarşı yönəlmiş əməllər (0803); seksual xarakterli bütün təhlükəli əməllər (03)

[58] **Hədələyici davranış -** xəsarət və ya zərərin yetirilməsi qorxusuna səbəb olan qəsdən edilən davranış.
[59] **Ağır zərər vurma** 55-ci qeyddə müəyyən olunduğu kimi.
[60] **Yüngül zərərə** 58-ci qeyddə müəyyən olunduğu kimi.
[61] **Azadlıq**, ictimai sahədə azadlıq, köləlikdən azad olma və ya zülmkar idarə etmədən azad olmadır. *(United Nations. Universal Declaration of Human Rights. Web: <http://www.un.org/en/documents/udhr/>.).*

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02021	**Yetkinlik yaşına çatmayan şəxsin oğurlanması** Yetkinlik yaşına çatmamış şəxsin qanuni qəyyumundan və ya onu himayə etmək hüququ olan şəxsdən qanunsuz qaçırılması, gizlədilməsi və ya saxlanılması.	+	**Daxil olunanlar**: 020211-020219-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** adam oğurluğu (020221); qanunsuz olaraq övladlığa götürmə (020291); 0202-də sadalanan bütün istisnalar tətbiq olunur
020211	**Valideyn tərəfindən oğurlanma** Yetkinlik yaşına çatmamış şəxsin valideynlik hüquqlarından məhrum edilmiş valideyni tərəfindən oğurlanması. - Yetkinlik yaşına çatmamış şəxslərin oğurlanması - 02021-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Valideyn tərəfindən sərhədi keçməklə oğurlanması, valideyn tərəfindən ölkədaxilində oğurlanması
		-	**İstisnalar:** 02021-də sadalanan bütün istisnalar tətbiq olunur
020212	**Digər ailə üzvü tərəfindən oğurlanma** Yetkinlik yaşına çatmamış şəxsin valideyni olmayan və qəyyumluğa müstəsna hüququ olmayan digər ailə üzvü tərəfindən oğurlanması. - Yetkinlik yaşına çatmayan şəxsin oğurlanması - 02021-də müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 02021-də sadalanan bütün istisnalar tətbiq olunur
020213	**Qəyyum (himayəçi) tərəfindən oğurlanma** Yetkinlik yaşına çatmamış şəxsin valideyn və ya digər ailə üzvü olmayan və qəyyumluğa müstəsna hüququ olmayan qanuni qəyyum tərəfindən oğurlanması. - yetkinlik yaşına çatmamış şəxsin oğurlanması - 02021-də müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 02021-də sadalanan bütün istisnalar tətbiq olunur
020219	**Yetkinlik yaşına çatmayan şəxslərlə bağlı digər oğurluq əmelləri** 020211-020213-cü kateqoriyalarda təsvir və ya təsnif olunmayan yetkinlik yaşına çatmamış şəxsin digər oğurlanma halları. - Yetkinlik yaşına çatmamış şəxsin oğurlanması - 02021-də müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 02021-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02022	**Qanunsuz azadlıqdan məhrum etmə** Adam oğurluğu ilə bağlı olmayan qanunsuz azadlıqdan məhrum etmə.	+	**Daxil olunanlar:** Qaçırma, qanunsuz azadlıqdan məhrum etmə, nəqliyyat vasitəsinin tutulması, 020221-020229-da sadalanan bütün daxil olunanlar tətbiq olunur.
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmamış şəxsin oğurlanması (02021); 0202-də sadalanan bütün istisnalar tətbiq olunur
020221	**Adam oğurluğu** Şəxsin və ya şəxslərin onun (onların) öz iradəsinə (iradələrinə) zidd olaraq (o cümlədən fiziki gücdən istifadə etmək, təhdid, və ya aldatma ilə) onun (onların) azad edilməsi və ya kimisə nəyisə etməyi və ya etməməyi məcbur etmək üçün qanunsuz, hər hansı başqa iqtisadi mənfəət və ya digər maddi bəhrə götürmək məqsədi ilə qanunsuz tutulması və ya qaçırılması.	+	**Daxil olunanlar:** Oğurluq; açıq elan edilmiş oğurluq
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmamış şəxsin oğurlanması (02021); insan alveri (0204); qanunsuz övladlığa götürmə (020291); adamları girov götürmə (020222); 02022-də sadalanan bütün istisnalar tətbiq edilir
020222	**Azadlığın qanunsuz məhdudlaşdırılması** Şəxsin və ya şəxslərin onun (onların) öz iradəsinə (iradələrinə) zidd olaraq (o cümlədən fiziki gücdən istifadə etmək, təhdid, və ya aldatma ilə) başqa yerə daşınmadığı (aparılmadığı) halda qanunsuz tutulması və ya qaçırılması.	+	**Daxil olunanlar:** adamları girov götürmə; qanunsuz həbs etmə; qanunsuz saxlama; məcburi yoxaçıxma[62]
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmamış şəxsin oğurlanması (02021); insan alveri (0204); qanunsuz övladlığa götürmə (020291); qadını nikaha daxil olmağa məcbur etmə (020292); adam oğurluğu (020221); 02022-də sadalanan bütün istisnalar tətbiq olunur
020223	**Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə** Zor tətbiq etməklə və ya hədələmə ilə nəqliyyat vasitəsinin sərnişinləri ilə birgə qanunsuz tutulması. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Təyyarə, avtomobil, avtobus, gəmi və ya digər mühərrikli hərəkət vasitəsinin tutulması
		-	**İstisnalar:** Elektron sistem və ya rabitə vasitələrindən istifadə etməklə nəqliyyat vasitəsinin tutulması (0903); dəniz quldurluğu (11012); mühərrikli hərəkət vasitəsinin oğurlanması və ya digər oğurluq əməlləri (0502); soyğunçuluq (0401); 02022-də sadalanan bütün istisnalar tətbiq olunur

[62] **Məcburi yoxaçıxma** "şəxsin iradəsinə zidd olaraq həbs olunması, saxlanılması və ya qaçırılması və ya hər hansı digər vasitə ilə hakimiyyətin müxtəlif qolu və ya təsnifatlarından olan vəzifəli şəxslər və ya mütəşəkkil dəstə və ya hakimiyyətin birbaşa və ya dolayı dəstəyi, icazəsi və ya razılığı ilə onun adından fəaliyyət göstərən şəxslər tərəfindən şəxslərin tale və ya yerləşdiyi yer barədə məlumatları bildirməkdən və ya onların hüquqlarını tanımaqdan imtina etməklə qanunun müdafiəsindən istifadə etmək hüququndan məhrum edilərək azadlığını itirməsi" zamanı meydana çıxır. BMT. Hər bir şəxsin məcburi yoxaçıxmadan mühafizəsi haqqında Bəyannamə - Baş Assambleyanın 18 dekabr 1992-ci il tarixli 47/133 saylı Qətnaməsi. Veb: http://www.un.org/en/events/disappearancesday/background.shtml

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
020229	**Qanunsuz azadlıqdan məhrum etmədə ehtiva edilən digər əməllər** 020221-020223 kateqoriyalarda təsvir və ya təsnif olunmayan azadlıqdan məhrum etmə.	**+**	
		-	**İstisnalar:** 02022-də sadalanan bütün istisnalar tətbiq olunur
02029	**Şəxsiyyətin azadlığı əleyhinə olan digər əməllər** 02021-02022-ci kateqoriyalarında təsvir və ya təsnif olunmayan azadlıq əleyhinə olan əməllər. - Azadlıq - 61-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Qanunsuz övladlığa götürmə; qadını nikaha daxil olmağa məcbur etmə; 020291-02039-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0202-də sadalanan bütün istisnalar tətbiq olunur
020291	**Qanunsuz olaraq övladlığa götürmə** Uşaqların övladlığa götürülməsi, qəyyumluğa (himayəyə) və ya himayədar ailəyə tərbiyə olunmaq üçün verilməsi ilə bağlı qanunsuz hərəkətlər tamah məqsədi ilə törədildikdə.[63]	**+**	**Daxil olunanlar:** etibardan sui-istifadə etməklə övladlığa götürmə; qanunsuz övladlığa götürmə
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmayan şəxsin oğurlanması (02021); insan alveri (0204); adamları girov götürmə (020222); 02029-da sadalanan bütün istisnalar tətbiq olunur
020292	**Qadını nikaha daxil olmağa məcbur etmə** Qadını nikaha daxil olmağa məcbur etmə.[64]	**+**	**Daxil olunanlar:** qadını nikaha daxil olmağa məcbur etmə, nikah yaşına çatmayan şəxslə nikaha daxil olma
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmayanların oğurlanması (02021); qadını nikaha daxil olmağa məcbur etmək məqsədi ilə insan alveri (02044); adamları girov götürmə (020222); kölelik və istismar (0203); 02029-da sadalanan bütün istisnalar tətbiq olunur
020299	**Şəxsiyyətin azadlığı əleyhinə olan digər əməllər** 020291-020292 kateqoriyalarda təsvir və ya təsnif olunmayan azadlıq əleyhinə olan əməllər. - Azadlıq - 61-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmamış şəxslərin oğurlanması (02021); insan alveri (0204); adamları girov götürmə (020222); 02029-da sadalanan bütün istisnalar tətbiq olunur

[63] United Nations. Department of Economic and Social Affairs. *Child Adoption: Trends and Policies. 2009. Web: <http://www.un.org/esa/population/publications/adoption2010/child_adoption.pdf>.*
[64] United Nations. Division for the Advancement of Women. *Forced and Early Marriage: A Focus on Central and Eastern Europe and Former Soviet Union Countries with Selected Laws from other Countries*. Expert paper by Thomas, Cheryl. 2009. Web: <http://www.un.org/womenwatch/daw/egm/vaw_legislation_2009/Expert Paper EGMGPLHP _Cheryl Thomas revised_.pdf>.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
0203	**Kölelik və istismar** İnsan alveri olmayan maliyyə və ya digər xarakterli fayda əldə etmək üçün istismar məqsədi ilə şəxsin başqa yerə daşınması və ya hərəkətinin məhdudlaşdırılması.	+	**Daxil olunanlar:** 02031-02039-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** İnsan alveri (0204); cinsi istismar (0302); qadını nikaha daxil olmağa məcbur etmə (020292); əmək qanunvericiliyini pozan əməllər (0808)
02031	**Kölelik** Şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətləri tam və ya qismən həyata keçirmə.	+	**Daxil olunanlar:** Kölelik; borc asıllığı; əsarət
		-	**İstisnalar:** məcburi əmək (02032); 0203-də sadalanan bütün istisnalar tətbiq olunur
02032	**Məcburi əmək** Hədə-qorxu, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə qanunvericiliklə müəyyən edilmiş xüsusi hallardan başqa şəxsin azadlığını məhdudlaşdırmaqla müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur etmə.	+	**Daxil olunanlar:** 020321-020329-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Kölelik (02031); işin yerinə yetirilməsinə və ya xidmətin göstərilməsinə məcbur etmək məqsədi ilə insan alveri (02042); 0203-də sadalanan bütün istisnalar tətbiq olunur
020321	**Ev təsərrüfatında məcburi əmək** Üçüncü şəxsin şəxsi ev təsərrüfatında xidmətlərin göstərilməsi üçün məcburi əmək. - Məcburi əmək - 02032-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Məcburi ev əməyi; əməyin ev təsərrüfatında istismarı
		-	**İstisnalar:** 02032-də sadalanan bütün istisnalar tətbiq olunur
020322	**İstehsalatda məcburi əmək** İstehsalatda xidmətlərin göstərilməsi üçün məcburi əmək.[65] - Məcburi əmək - 02032-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Katorqa əməyindən istifadə olunan kənd təsərrüfatında, tikintidə, sənayedə, əyləncə sahəsində, balıqçılıqda, müəssisələrdə, fermalarda məcburi əmək
		-	**İstisnalar:** 02032-də sadalanan bütün istisnalar tətbiq olunur

[65] Beynəlxalq Əmək Təşkilatı. Məcburi Əmək Konvensiyası 1930 (No.29). İcbari və ya məcburi əmək haqqında Konvensiya. (Qüvvəyə mindiyi tarix: 1 may 1932-ci il). Cenevrə, İsveçrə. Veb: <https://www.ilo.org/dyn/normlex/en/f?p=1000:12100:0::NO::P12100_INSTRUMENT_ID:312174>.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
020323	**Dövlət orqanları və ya Silahlı Qüvvələrdə məcburi əmək** Dövlət orqanları üçün və ya Silahlı Qüvvələrdə xidmətlərin göstərilməsi ilə əlaqədar məcburi əmək. - Məcburi əmək - 02032-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Əmək düşərgələrində qanunsuz əmək
		-	**İstisnalar:** Uşaqların hərbi xidmətə çağırılması və ya cəlb edilməsi (110135); 02032-də sadalanan bütün istisnalar tətbiq olunur
020329	**Digər məcburi əməkdə ehtiva edilən əməllər** 020321-020323-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan məcburi əmək. - Məcburi əmək - 02032-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Məcburi dilənçilik
		-	**İstisnalar:** 02032-də sadalanan bütün istisnalar tətbiq olunur
02039	**Digər kölelik və istismar əmelləri** 02031-02032-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan kölelik və ya istismar.	**+**	
		-	**İstisnalar:** 0203-də sadalanan bütün istisnalar tətbiq olunur
0204 İnsan alveri Güc tətbiq etmək hədəsi ilə və ya güc tətbiq etməklə və ya məcburetmə, oğurlama, dələduzluq, aldatma, hakimiyyətdən və ya vəziyyətin zəifliyindən sui-istifadə etməklə yaxud da digər şəxsə nəzarət edən şəxsin razılığını almaq üçün ödəniş və ya mənfəət şəklində rüşvət verməklə insanların istismar məqsədi ilə cəlb edilməsi, daşınması, təhvil verilməsi, gizlədilməsi və ya alınması başa düşülür. İstismar en azı digər şəxslərin fahişəliyinin istismarını və ya cinsi istismarın digər formaları, icbari əməyi və ya xidmətləri, köləliyi, köləliyə bənzər adətləri, asılılıq vəziyyətini və ya orqanların çıxarılması.[66]		**+**	**Daxil olunanlar:** Yetkinlik yaşına çatmış şəxslərin alveri, uşaq alveri; 02041-02049-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Kölelik (02031); məcburi əmək (02032); əmək qanunvericiliyini pozan əməllər (0808); qadını nikaha daxil olmağa məcbur etmə (020292); seksual xarakterli bütün təhlükəli əməllər (03); basqın və ya hədə-qorxular (0201); şəxsiyyətin azadlığı əleyhinə yönəlmiş əməllər (0202); ictimai mənəviyyat əleyhinə digər əməllər (0802); miqrasiya ilə əlaqədar qanunsuz əməllər (0805)
02041	**Cinsi istismar məqsədilə insan alveri** Cinsi istismar məqsədləri üçün insan alveri. - İnsan alveri - 0204-də müəyyən olunduğu kimi - Cinsi istismar - 0302-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Cinsi istismar məqsədilə insan alveri
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmış şəxslərin insan alveri hesab edilməyən cinsi istismarı (03021); 0204-də sadalanan bütün istisnalar tətbiq olunur

[66] Birləşmiş Millətlər. ″ Transmilli mütəşəkkil cinayətkarlığa qarşı″ Konvensiyasının, onu tamamlayan ″ İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında″ Protokol. 2000. Veb: <http://www.uncjin.org/Documents/Conventions/dcatoc/final_documents_2/convention_ traff_eng.pdf>.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02042	**Məcburi əmək və ya xidmət məqsədilə insan alveri** Məcburi əmək və ya xidmət məqsədi ilə insan alveri.[67] - Məcburi əmək - 02032-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Məcburi əmək üçün insan alveri; köləlik və ya oxşar adətlər üçün insan alveri; servitut müqaviləsindən irəli gələn insan alveri; ev işləri üçün insan alveri
		-	**İstisnalar:** 0204-də sadalanan bütün istisnalar tətbiq olunur
02043	**İnsan orqanlarının və toxumalarının qanunsuz çıxarılması məqsədilə insan alveri** İnsan orqanlarının və toxumalarının qanunsuz çıxarılması məqsədi ilə insan alveri.[68] - İnsan alveri - 0204-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** İnsan orqanlarının və toxumalarının qanunsuz çıxarılması məqsədilə insan alveri; qaraciyərin çıxarılması üçün insan alveri
		-	**İstisnalar:** Himayəsi altında olan şəxslərə qarşı cinayətkarcasına etinasızlıq (02061); sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş əməllər (0902); 0204-də sadalanan bütün istisnalar tətbiq olunur
02044	**Digər məqsədlər üçün insan alveri** 02041-02043-cü kateqoriyalarda təsvir və ya təsnif olunmayan istismarın digər məqsədləri üçün insan alveri. - İnsan alveri - 0204-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** qadını nikaha daxil olmağa məcbur etmə üçün insan alveri; dəvə yarışları üçün insan alveri; cinayətlərin törədilməsi üçün insan alveri
		-	**İstisnalar:** 0204-də sadalanan bütün istisnalar tətbiq olunur
0205 Məcbur etmə Şəxsə zor tətbiq etmə, hədə-qorxu gəlmə, onun haqqında rüsvayedici məlumatlar yayma və təhqir hədəsi ilə müəyyən hərəkətlər etməsini tələb etmə. - Təhqir - 0209-da müəyyən olunduğu kimi.		+	**Daxil olunanlar:** Məcbur etmə; qəsb; şantaj; 02051-02059-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Məcburiyyət və ya digər hər hansı seksual xarakterli təhlükəli əməllər (03); soyğunçuluq (0401); insan alveri (0204); köləlik və istismar (0203); basqın və hədə-qorxular (0201); təhlükəli əməllər (0207); şahidə, məhkəmə və ya cinayət təqibi orqanları əməkdaşına hədə-qorxu gəlmə (08061); seçicinin səs verməsinə təsir etmək məqsədi ilə hədə-qorxu gəlmə (08071); böhtan və ya təhqir (0209)

[67] **Xidmətlər** şəxsin özünün könüllü görəcəyini təklif etmədiyi işi hədə-qorxu ilə görməsi. Beynəlxalq Əmək Təşkilatı. Məcburi Əmək Konvensiyası 1930 (No.29). İcbari və ya məcburi əmək haqqında Konvensiya. (Qüvvəyə mindiyi tarix: 1 may 1932-ci il). Cenevrə, İsveçrə.Veb: <https://www.ilo.org/dyn/normlex/en/f?p=1000:12100:0::NO::P12100_INSTRUMENT_ID:312174>.).

[68] **Orqan** orqanizmin strukturunu, vaskulyarizasiyasını təmin edən,vacib müstəqil səviyyəsi ilə fiziolji funksiyaları inkişaf etdirmək bacarığı olan müxtəlif toxumalardan ibarət insan orqanizminin fərqli və həyati vacib hissəsidir. (World Health Organization. Global Glossary of Terms and Definitions on Donations and Transplantation. Geneva, Switzerland, 2009. Web: <http://www.who.int/transplantation/activities/GlobalGlossaryonDonationTransplantation.pdf>.).

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02051	**Hədə-qorxu ilə tələb etmə və ya şantaj** Yazılı və ya şifahi hədə-qorxu gəlməklə müəyyən əmənin edilməsini tələb etmə.[69]	+	**Daxil olunanlar:** Şəxslər, müəssisə, təşkilat və ya idarələrdən hədə-qorxu ilə tələb etmə
		-	**İstisnalar:** 0205-də sadalanan bütün istisnalar tətbiq olunur
02059	**Digər məcbur etmə əmələlləri** 02051-də təsvir və ya təsnif olunmayan məcbur etmə əmələlləri. - Məcbur etmə - 0205-də müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 0205-də sadalanan bütün istisnalar tətbiq olunur
0206 Ehtiyatsızlıq Şəxsin ehtiyatsız davranışları nəticəsində sağlamlığa zərər vurulması. - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi. - Ehtiyatsızlıq- 54-cü qeyddə müəyyən olunduğu kimi.		+	**Daxil olunanlar:** 02061-02069-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Cinayətkarcasına etinasızlıq nəticəsində adam öldürmə (01032); təhlükəli əməl nəticəsində sağlamlığa zərər vurma və ya belə təhlükə yaratma (0207)
02061	**Himayəsi altında olan şəxslərə qarşı cinayətkarcasına etinasızlıq** Qanunla üzərlərinə öhdəlik qoyulan və ya cavabdeh şəxslərin qayğı göstərmək vəzifəsinə cinayətkarcasına etinasız yanaşdığından sağlamlığa zərər vurulması.[70] - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** 020611-020619-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0206-da sadalanan bütün istisnalar tətbiq olunur

[69] **Müəyyən əməl** - mülkiyyətin mənimsənilməsi, pul vəsaitlərinin mənimsənilməsi və ya xidmətlərin göstərilməsi və ya mənfəətlərin verilməsi daxildir. **Yazılı və ya şifahi** hədə-qorxu gəlmə - informasiyanın açıqlamaq hədə-qorxusu, zor tətbiq etmə hədə-qorxusu, bədən xəsarəti yetirmə hədə-qorxusu və ya cinayət təqibinin başladılması hədə-qorxusu.

[70] **Qayğı göstərmək vəzifəsi - bu halda** anlaqlı şəxsin başqa şəxslərə və cəmiyyətə ayıq-sayıq, diqqətli və ehtiyatlı davranmalı olduğunun tələb edilməsini imkan verən öhdəlik.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
020611	**Himayəsi altında olan uşaqlara qarşı cinayətkarcasına etinasızlıq** Qanunla üzərlərinə öhdəlik qoyulan və ya cavabdeh şəxslərin qayğı göstərmək vəzifəsinə cinayətkarcasına etinasız yanaşdığından uşağın sağlamlığına zərər vurulması. - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi. - Qayğı göstərmək vəzifəsi - 70-ci qeyddə müəyyən olunduğu kimi. - Uşaq - milli qanunvericilikdə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** himayəsi altında olan uşağa qarşı cinayətkarcasına etinasızlıq; uşağa qarşı cinayətkarcasına etinasızlıq; uşağa qayğı göstərməmək
		-	**İstisnalar:** 02061-də sadalanan bütün istisnalar tətbiq olunur
020612	**Himayəsi altında olan digər asılı şəxslərə qarşı cinayətkarcasına etinasızlıq** Qanunla üzərlərinə öhdəlik qoyulan və ya cavabdeh şəxslərin qayğı göstərmək vəzifəsinə cinayətkarcasına etinasız yanaşdığından asılı yetkinlik yaşına çatmış şəxslərin sağlamlığına zərər vurulması.[71] - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi. - Qayğı göstərmək vəzifəsi - 70-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Ahıl şəxslərə qarşı cinayətkarcasına etinasızlıq; qayğısı altında olan yetkinlik yaşına çatmış şəxslərə qarşı cinayətkarcasına etinasızlıq; qayğısı altında olan ahıl şəxslərə qarşı cinayətkarcasına etinasızlıq; qayğıya ehtiyacı olan ahıl şəxsə qayğı göstərməmək
		-	**İstisnalar:** 02061-də sadalanan bütün istisnalar tətbiq olunur
020619	**Himayəsi altında olan şəxslərə yönəlmiş cinayətkarcasına etinasızlıqda ehtiva edilən digər əməllər** 020611-020612 kateqoriyalarda təsvir və ya təsnif olunmayan qanunla üzərlərinə öhdəlik qoyulan və ya cavabdeh şəxslərin qayğısına qalmaq vəzifəsinə cinayətkarcasına etinasız yanaşdığından sağlamlığa zərər vurulması. - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi. - Qayğı göstərmək vəzifəsi - 70-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Ailə münasibətləri ilə əlaqədar etinasızlıq; ailə qarşısında öhdəliklərin pozulması; işçinin/stajçının zəehtiyaclarının təmin edilməməsi
		-	**İstisnalar:** Ev heyvanlarına lazımi qulluğun göstərilməməsi ilə bağlı cinayətkarcasına etinasızlıq (10091); 02061-də sadalanan bütün istisnalar tətbiq olunur

[71] **Asılı şəxs** - başqa şəxs və ya şəxslər tərəfindən göstərilən himayə və dəstəyin olmayacağı halda təhlükədə olacaq şəxs.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02062	**Səhlənkarlıq və ya qulluğa səhlənkar yanaşma** Vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olarsa	**+**	**Daxil olunanlar:** Müalicənin təyin edilməsində tibbi etinasızlıq; tibbi prosedurların keçirilməsində kobud etinasızlıq; vəzifəyə yararsızlıq; peşəkarlıq borcunu yerinə yetirərkən kobud etinasızlıq; pilotların, gəmi kapitanlarının və digər nəqliyyat vasitələrini idarə edən şəxslərin etinasızlığı
		-	**İstisnalar:** Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə əlaqəli olmayan adam öldürmə (010322); 0206-da sadalanan bütün istisnalar tətbiq olunur
02063	**Nəqliyyat vasitəsinin idarə edilməsi zamanı ehtiyatsızlıq** Şəxsin nəqliyyat vasitəsini idarə edərkən ehtiyatsız davranışları nəticəsində sağlamlığa zərər vurması. - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi. - Ehtiyatsızlıq - 54-cü qeyddə müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Nəqliyyat vasitəsinin ehtiyatsız idarə edilməsi; nəqliyyat vasitəsini idarə edərkən fikrin yayınması; mühərrikli nəqliyyat vasitəsini idarə edərkən ehtiyatın gözlənilməsinə etinasız münasibət göstərmə; sağlamlığa zərər vurulmasına səbəb olan yol nəqliyyat hadisəsi yerində qaçma
		-	**İstisnalar:** Pilotların, gəmi kapitanlarının və digər nəqliyyat vasitələrini idarə edən şəxslərin ehtiyatsızlığı (02062); psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi (02072); Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində adam öldürmə (010321); 0206-da sadalanan bütün istisnalar tətbiq olunur
02069	**Ehtiyatsızlıqla törədilən digər əməllər** 02061-02063-cü kateqoriyalarda təsvir və ya təsnif olunmayan ehtiyatsız davranışlar nəticəsində sağlamlığa zərər vurulması. - Cinayətkarcasına etinasızlıq - 48-ci qeyddə müəyyən olunduğu kimi. - Ehtiyatsızlıq - 54-cü qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Zərərçəkmiş şəxsə köməyin göstərilməməsi; piyadaların ehtiyatsız davranışları səbəbindən hüquqpozmalar
		-	**İstisnalar:** 0206-da sadalanan bütün istisnalar tətbiq olunur
0207 Təhlükəli əməllər Şəxsin təhlükəli davranışının zərər vura biləcəyini bildiyi halda həmin hərəkətə yol verməsi nəticəsində sağlamlığa zərər vurulması.[72]		**+**	**Daxil olunanlar:** 02071-02079-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Ölümə səbəb olan təhlükəli davranış (01); ehtiyatsızlıq nəticəsində sağlamlığa zərər vurma (0206)

[72] **Təhlükəli əməl** xəsarət və ya zərər vura biləcək əməl və ya davranışdır.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02071	**Sağlamlığa təhlükə yaradan əməllər** Təhlükəli əməl nəticəsində sağlamlığa təhlükə yaratma.[73] - Təhlükəli əməl - 72-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Ərzaq məhsulları və ya dərmanların tərkibinin dəyişdirilməsi[74]; zərərli ərzaq məhsulları və ya içkilərin satışı; intoksikasiya vasitəsilə aludəçilik yaradan yapışqan, həlledicilər və ya digər maddələrin qanunsuz alışı, satışı və ya yayılması; İİV/QİÇS-in qəsdən yoluxdurulması
		-	**İstisnalar:** Peşə vəzifələrinin etinasız icra edilməsi nəticəsində şəxsin sağlamlığına zərər vurma (02062); dərmanların və respet malların saxtalaşdırılması (07022); 0207-də sadalanan bütün istisnalar tətbiq olunur
02072	**Psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi** Psixotrop maddələrin və ya nəzarət edilən digər narkotik vasitələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi və şəxsin sağlamlığına zərər vurulması. - Psixotrop maddələr - 98-ci qeyddə müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Narkotik maddələrin və ya psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsini idarə edərkən sağlamlığa zərər vurulması; 020721-020729-da sadalanan bütün daxil edilənlər tətbiq olunur
		-	**İstisnalar:** Psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi ölümə səbəb olarsa (010321); yol hərəkəti qaydalarının pozulması sağlamlığa zərər vurulması ilə nəticələnmədikdə (0907); dövriyyəsinə nəzarət olunan narkotik vasitələr və ya prekursorlar ilə əlaqədar qanunsuz əməllər (0601); nəqliyyat vasitəsinin sürmək məqsədi ilə qaçırılması və ya oğurlanmış maşının riskli idarə edilməsi (050212); nəqliyyat vasitəsinin idarə edilməsi zamanı ehtiyatsızlıq (02063); 0207-də sadalanan bütün istisnalar tətbiq olunur
020721	**Spirtli içkinin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi** Spirtli içkinin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi və şəxsin sağlamlığına zərər vurulması - nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Spirtli içkinin təsiri altında sürmək; spirtli içkinin təsiri altında yol nəqliyyat hadisəsi törətmək
		-	**İstisnalar:** Spirtli içki ilə əlaqədar qanunsuz əməllər (0602); 02072-də sadalanan bütün istisnalar tətbiq olunur
020722	**Narkotik maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi** Qanunsuz narkotik maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi və şəxsin sağlamlığına zərər vurulması. - Nəzarətdə olan narkotik vasitələr - 98-ci qeyddə müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Qanunsuz narkotik maddənin təsiri altında sürmək; qanunsuz narkotik maddənin təsiri altında yol nəqliyyat hadisəsi törətmək
		-	**İstisnalar:** Dövriyyəsinə nəzarət olunan narkotik vasitələr və ya prekursorlar ilə əlaqədar qanunsuz əməllər (0601); 02072-də sadalanan bütün istisnalar tətbiq olunur

[73] **Sağlamlıq** xəstəliyin və xəsarətin olmadığı haldır.

[74] Ərzaq məhsulları və ya dərmanların tərkibinin dəyişdirilməsi, qida məhsullarına yad, yararsız və yaxud kimyəvi reaksiyaya girə bilməyən maddələri əlavə etməklə və ya məhsulun dəyərli və vacib inqredientlərin tərkibə daxil etməməklə və ya çıxarmaqla yalnış təəssürat oyatmaq və ya dəyər vermək, yaxud çatışmazlıqları gizlətmək. (Food and Agriculture Organization. Perspectives and guidelines on food legislation, with a new model food law Page 209. Rome, Italy. 2005. Web: <http://www.fao.org/fileadmin/user_upload/legal/docs/ls87-e.pdf>.).

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
020729	**Digər güclü təsir edən maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi** Digər güclü təsir edən maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi və şəxsin sağlamlığına zərər vurulması - Prekusorlar - 98-ci qeyddə müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	**+**	
		-	**İstisnalar:** Nəqliyyat vasitəsinin idarə edilməsinə aid edilməyən dövriyyəsinə nəzarət edilən narkotik vasitələr və ya digər psixotrop maddələr ilə əlaqədar əməllər (06); 02072-də sadalanan bütün istisnalar tətbiq olunur
02079	**Digər təhlükəli əməllər** 02071-02072-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan təhlükəli davranış və ya hərəkət nəticəsində sağlamlığa zərər vurulması. - Təhlükəli əməl - 72-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** hiylə işlətməklə sağlamlığa zərər vurulması
		-	**İstisnalar:** 0207-də sadalanan bütün istisnalar tətbiq olunur
0208 Qorxu və ya emosional sarsıntı yaşatmağa yönəlmiş hərəkətlər Şəxsin davranışı nəticəsində yaranan qorxu və ya emosional sarsıntı. - Emosional sarsıntı - əqli və ya psixoloji ağrıdır.		**+**	**Daxil olunanlar:** Təqib etmə; kiber-qorxutma; seksual xarakterli olmayan təcavüz; şəxsə daim telefon zəngləri etmə; 02081-02089-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Nəzarət edilən ictimai davranış qaydalarının ifadə edilməsi ilə bağlı əməllər (08032); böhtan və ya təhqir (0209)
02081	**Seksual qısnama** Əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya seksual yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış.[75]	**+**	**Daxil olunanlar:** seksual qısnama; təhqiredici materialların yayılması; 020811-020819-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Seksual xarakterli qeyri-fiziki zorakılıq hərəkətləri (030122); şəxsə qarşı zor tətbiq etmə, hədə-qorxu gəlmə, onun haqqında rüsvayedici məlumatlar yayma və təhqir hədə-qorxusu ilə müəyyən hərəkətlər etməsini tələb etmə (0205); basqın və hədə-qorxular (0201); böhtan və ya təhqir (0209); 0208-də sadalanan bütün istisnalar tətbiq olunur

[75] **Seksual qısnama -** davranışlarının nalayiq olduğunu anlayan şəxs tərəfindən həmin davranışları özünə qarşı təhqiramiz hesab edən şəxsə yönəlmiş nalayiq rəftar. Bura şəxsi alçaldan və ya onun ləyaqətinə aşağılayan, yaxud şəxsiyyətinə toxunan və ya ruhi həyəcan yaradan qınanılan və qəbuledilməz rəftar daxildir. (*United Nations. Policy on Prevention of Harassment*. Web: <http://www.un.org/womenwatch/osagi/UN_system_policies/(FAO)Policy_on_the_prevention_of_harassment.pdf>.).

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
020811	**İş yerində seksual qısnama** İş yerində həmkarı, rəhbəri və ya digər iş yoldaşları tərəfindən və ya işlə əlaqədar qısnamaya məruz qalma. - Seksual qısnama - 75-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** İş yerində qısnama; iş yerində kollektiv acılama; iş yerində sıxışdırılma
		-	**İstisnalar:** 02081-də sadalanan bütün istisnalar tətbiq olunur
020819	**Digər seksual qısnama əməlləri** Şəxs tərəfindən iş yerindən kənar və işlə əlaqəli olmayan qısnamaya məruz qalma. - Seksual qısnama - 75-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Kollektiv acılama və ya iş yerindən kənarda sıxışdırılma; təqib hesab olunmayan hədə-qorxu xarakterli telefon zəngləri; narahatçılıq yaratma; həyəcan və ya qorxuya səbəb olan əməllər
		-	**İstisnalar:** 02081-də sadalanan bütün istisnalar tətbiq olunur
02082	**Təqib** Arzu olunmaz ünsiyyət, izlənmə və ya şəxsi müşahidə etmək.	+	**Daxil olunanlar:** Kiber-təqib; təqib
		-	**İstisnalar:** Seksual xarakterli qeyri-fiziki zorakılıq hərəkətləri (030122); şəxsin şəxsi həyatına qanunsuz və əsassız müdaxilə edilməsi (0211); 0208-də sadalan bütün istisnalar tətbiq olunur
02089	**Qorxu və ya emosional sarsıntı yaratmağa yönəlmiş digər əməllər** 02081-02082 kateqoriyalarda təsvir və ya təsnif olunmayan və qorxu və ya emosional sarsıntı yaradan əməl.	+	**Daxil olunanlar:** Psixoloji zorakılıq
		-	**İstisnalar:** 0208-də sadalan bütün istisnalar tətbiq olunur
0209	**Böhtan və ya təhqir** Böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma. Təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma.	+	**Daxil olunanlar:** Böhtan; iftira; təhqir; 02091-02099-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Şəxsin böhtan və təhqir hədə-qorxusu ilə müəyyən hərəkətlər etməsini tələb etmə (0205); şəxsin nüfuzuna xələl yetirmək niyyəti olmadan qorxu və ya emosional sarsıntı yaratmağa yönəlmiş əməllər (0208)
02091	**Zərərçəkmiş şəxsin xarakterik cəhətləri və xüsusiyyətləri ilə əlaqədar böhtan və ya təhqir** Zərərçəkmiş şəxsin xarakterik cəhətləri və ya xüsusiyyətləri ilə əlaqədar böhtan və ya təhqir.[76] Böhtan və ya təhqir - 0209-da müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Böhtan; iftira; təhqir
		-	**İstisnalar:** Şəxsi böhtan və təhqir hədəsi ilə müəyyən hərəkətlər etməsini tələb etmə (0205); şəxsin nüfuzuna xələl yetirmək niyyəti olmadan qorxu və ya emosional sarsıntı yaratmağa yönəlmiş əməllər (0208)

[76] Xarakter və xüsusiyyətlərə cins, gender, cinsi oriyentasiya, yaş, dil, etnik mənşə, əlillik və / və ya irq daxil edilir.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02092	**Zərərçəkmiş şəxsin inanc və ya dəyərləri ilə əlaqədar böhtan və ya təhqir** Zərərçəkmiş şəxsin inanc və ya dəyərləri ilə əlaqədar böhtan və ya təhqir.[77] - Böhtan və ya təhqir - 0209-da müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Dini mənsubiyyət, siyasi baxışlar, sosial və ya iqtisadi baxışlara görə böhtan və ya təhqir
		-	**İstisnalar:** Zərərçəkənin etiqad və dəyərləri əsas obyekt olsa da, cinayət motiv ilə müəyyən olunur; Ayrı-seçkilik (0210); 0209-da sadalanan bütün istisnalar tətbiq olunur
02099	**Digər böhtan və ya təhqir əməlləri** 02091-02092 kateqoriyalarda təsvir və ya təsnif olunmayan böhtan və ya təhqir. - Böhtan və ya təhqir - 0209-da müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Böhtan və təhqir konkret müəyyən edilməyən hallarda böhtan, iftira, təhqir; şərəf və ya ləyaqəti alçaltmağa yönəlmiş böhtan və təhqir
		-	**İstisnalar:** 0209-da sadalan bütün istisnalar tətbiq olunur
0210 Ayrı-seçkilik Məqsədi, yaxud nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınması, istifadə olunması, yaxud həyata keçirilməsini ləğv etmə və ya pisləşdirmək olan, irqi, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirmə, istisna, məhdudiyyət, yaxud üstün tutma.[78]		+	**Daxil olunanlar:** Şəxsi ayrı-seçkilik, qrup ayrı-seçkiliyi, etiqad və dəyərlərə və ya xüsusiyyətlərə və xarakterə görə ayrı-seçkilik; 02101-02109-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** İfadə azadlığına qarşı yönəlmiş əməllər (0803)
02101	**Şəxsi ayrı-seçkilik** Şəxsə qarşı yönəlmiş ayrı-seçkilik və qanunsuz rəftar. - Ayrı-seçkilik - 0210-da müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Məşğulluq sahəsində ayrı-seçkilik, əmək haqqının ödənilməsi sahəsində ayrı-seçkilik, mənzil təminatı sahəsində şəxsi ayrı-seçkilik
		-	**İstisnalar:** Qrup ayrı-seçkiliyi (02102)

[77] İnanc və ya dəyərlərə dini etiqadlar, siyasi baxışlar və / və ya iqtisadi və sosial baxışlar daxil edilir.
[78] Birləşmiş Millətlər. İrqi Ayrı-seçkiliyin Bütün Formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya. 1969. Veb:<http://www.ohchr.org/EN/ProfessionalInterest/Pages/CERD.asp&xgt;>.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02102	**Qrup ayrı-seçkiliyi** Kollektiv kimi görünən bir qrup şəxsə qarşı yönəlmiş ayrı-seçkilik və qanunsuz rəftar. - Ayrı-seçkilik - 0210-da müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Məşğulluq, əmək haqqının ödənilməsi, mənzil təminatı sahəsində qrupa qarşı yönəlmiş ayrı-seçkilik; gender, cinsi, yaş, əlillik, irqi, cinsi oriyentasiya, din, siyasi, sosial və ya iqtisadi baxışların əsasında qrup ayrı-seçkiliyi
		-	**İstisnalar:** qrupun ifadə azadlığına qarşı yönəlmiş əməllər (0803); şəxsi ayrı-seçkilik (02101)
02109	**Digər ayrı-seçkilik əmələri** 02101-02102 kateqoriyalarda təsvir və ya təsnif olunmayan ayrı-seçkilik və qanunsuz rəftar. - Ayrı-seçkilik - 0210-da müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Şəxs və ya qrup şəxsə qarşı yönəlmiş ayrı-seçkiliyi həyata keçirmək üçün digərlərini təhrik etmə
		-	**İstisnalar:** 0210-da sadalanan bütün istisnalar tətbiq olunur
0211 Şəxsiyyətə qarşı yönəlmiş əməllər Şəxsin şəxsi həyatına və ya digər hüquqlarına qanusuz və əsaslandırılmamış müdaxilə etmə.[79]		**+**	**Daxil olunanlar:** 02111-02119-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Şəxsin şəxsi həyatına müdaxilə hesab edilməyən kompüter məlumatlarına və ya kompüter sistemlərinə daxil olma (0903); təqib (02082); şəxsi intim həyatına müdaxilə və ya digər seksual xarakterli əməllər (03); mülkiyyət toxunulmazlığının pozulması (0509)
02111	**Şəxsi həyatın toxunulmazlığını pozma** Şəxsi həyata müdaxilə etmə və ya qarışma. - Şəxsi həyat - 79-cu qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Şəxsi həyat hüququnun pozulması; yazışma sirrinin pozulması; telefon danışıqlarının dinlənilməsi; yalnız qalmaq hüququnun pozulması və ya şəxsi problemlərə müdaxilə etmək; şəxsi kompüter fayllarına daxil olma; yazışmaya müdaxilə etmə
		-	**İstisnalar:** 0211-də sadalanan bütün istisnalar tətbiq olunur

[79] **Şəxsi həyat** şəxsin fərdi muxtariyyəti və ya digər insanlar tərəfindən təqib və ya narahat edilməməsi halı.

BÖLMƏ 02	Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn əməllər		
02119	**Şəxsiyyətə qarşı yönəlmiş digər əməllər** 02111-də təsvir və ya təsnif olunmayan şəxsin şəxsi həyatına və ya digər hüquqlarına qanunsuz və əsaslandırılmamış müdaxilə etmə. - Şəxsi həyat 79-cu qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Qəbir və ya meyit üzərində təhqiredici hərəkət; insan orqan və ya toxumaların qanunsuz çıxarılması məqsədi ilə insan alveri olmayan bədən üzvlərinin ticarəti; qəbrin dağıdılması; meyitin qanunsuz istifadəsi; qəbir yerlərinin qanunsuz qazılması
		-	**İstisnalar:** 0211-də sadalanan bütün istisnalar tətbiq olunur
0219 **Şəxsə zərər vuran və ya zərər vurmaya yönəlmiş digər əməllər** 0201-0211 kateqoriyalarda təsvir və ya təsnif olunmayan şəxsə zərər vuran və ya zərər vurmaya yönəlmiş əməllərdir.		**+**	**Daxil olunanlar:** Fiziki zorakılıq və ya mənəvi qəddarlıqla ifadə olunan qeyri-etik rəftar
		-	**İstisnalar:** 0201-0211-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 03	Seksual xarakterli təhlükəli əməllər		
0301	**Cinsi zorakılıq** Razılığı və ya tam razılığı olmadan qorxutma, zor tətbiq etmə, aldatma, məcbur etmə, hədə-qorxu gəlmə, narkotik vasitələr və ya spirtli içkilərdən istifadə etməklə və ya vəzifə səlahiyyətlərindən sui-istifadə, yaxud tutduğu mövqedən istifadə etməklə cinsi əlaqədə olma, cinsi əlaqədə olmaya cəhd etmə və seksual diqqət göstərməklə ünsiyyət yaratmaq.	+	**Daxil olunanlar:** 03011-03012-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Fahişəlikdən və ya cinsi əlaqədə olmadan pul, sosial və ya siyasi mənfəət əldə edilməsi üçün qulluq mövqeyindən, vəzifə səlahiyyətlərindən və ya etibardan sui-istifadə etmə, yaxud zor tətbiq etmə (0302); məcbur etmə (0205); fahişəlik və ya pornoqrafiya ilə bağlı cinayətlər və zorlama hesab edilməyən insest və eksgibisionizm kimi ictimai qaydanın seksual normalarını pozan başqa əməllər (0802); fiziki zorakılıqlar və ya hədə-qorxular (0201); seksual xarakterli təhlükəli əməllər olmayan kölelik və istismar (0203); cinsi istismar məqsədi ilə insan alveri (02041); təhlükəli əməllər (0207); seksual qısnama və təqib (0208)
03011	**Zorlama** Zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma (seksual nüfuz etmə).[80]	+	**Daxil olunanlar:** 030111-030119-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0301-də sadalanan bütün istisnalar tətbiq olunur
030111	**Zor tətbiq etməklə zorlama** Zərərçəkmiş şəxsin razılığı olmadan zor tətbiq etməklə seksual nüfuz etmə. - Seksual nüfuz etmə – 80-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Fiziki güc tətbiq etməklə seksual nüfuz etmə
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmayan şəxslə cinsi əlaqədə olma (030113); 03011-də sadalanan bütün istisnalar tətbiq olunur
030112	**Zor tətbiq etməməklə zorlama** Zərərçəkmiş şəxsin razılığı olmadan zor tətbiq etməməklə seksual nüfuz etmə. - Seksual nüfuz etmə – 80-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Cinsi əlaqədə olmaq üçün aldatma; narkotik vasitələrin təsiri altında zərərçəkmiş şəxsi zorlama; şəxsin razılığı olmadan və zor tətbiq etmədən seksual nüfuz etmə
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmayan şəxslə cinsi əlaqədə olma (030113); 03011-də sadalanan bütün istisnalar tətbiq olunur

[80] **Seksual nüfuz etmə** istənilən bədən üzvü və ya əşya ilə qadın cinsi orqanlarına və ya bədən üzvlərinə daxil olma.

BÖLMƏ 03	Seksual xarakterli təhlükəli əməllər		
030113	**Təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsi zorlama** Təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə seksual nüfuz etmə. - Seksual nüfuz etmə – 80-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxslə cinsi əlaqədə olma; Təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə qarşı digər zorlama əməlləri
		-	**İstisnalar:** 03011-də sadalanan bütün istisnalar tətbiq olunur
030119	**Digər zorlama əməlləri** 030111-030113-cü kateqoriyalarda təsvir edilməyən və ya daxil edilməyən zorlama əməlləri. - Zorlama – 03011-də müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 03011-də sadalanan bütün istisnalar tətbiq olunur
03012	**Seksual xarakterli zorakılıq hərəkətləri** Zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmə. - Zorlama – 03011-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Narkotik vasitələrin təsiri altında zərərçəkmiş şəxsə qarşı seksual xarakterli zorakılıq hərəkətləri etmə; uşaqbazlıq; zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə seksual xarakterli digər zorakılıq hərəkətləri etmə; 030121-030129-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Zorlama (03011); 0301-də sadalanan bütün istisnalar tətbiq olunur
030121	**Seksual xarakterli fiziki zorakılıq hərəkətləri** Şəxslə cinsi əlaqədə olmaqla ona qarşı fiziki zorakılıq hərəkətləri etmə. - Seksual xarakterli zorakılıq hərəkətləri - 03012-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Narkotik vasitələrin təsiri altında seksual xarakterli fiziki zorakılıq hərəkətləri; tutduğu mövqedən sui-istifadə etməklə seksual xarakterli zorakılıq hərəkətləri etmə
		-	**İstisnalar:** 03012-də sadalanan bütün istisnalar tətbiq olunur
030122	**Seksual xarakterli qeyri-fiziki zorakılıq hərəkətləri** Şəxsə fiziki zorakılıq hərəkətləri etmədən ona qarşı seksual xarakterli zorakılıq hərəkətləri etmə. - Seksual xarakterli təcavüz – 03012-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Cinsi təcavüz; seksual xarakterli təhlükə
		-	**İstisnalar:** 03012-də sadalanan bütün istisnalar tətbiq olunur
030129	**Hər hansı kateqoriyaya daxil edilməyən digər seksual xarakterli zorakılıq hərəkətləri** 030121-030122-ci kateqoriyalarda təsvir edilməyən və ya daxil edilməyən seksual xarakterli təcavüz halları. - Zorlama – 03011-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Vuayerizm[81]
		-	**İstisnalar:** 03012-də sadalanan bütün istisnalar tətbiq olunur

[81] **Vuayerizm** Qismən soyunmuş, çılpaq və ya cinsi münasibətdə olan və izləndiklərindən şübhələnməyən şəxslərə baxmaq nəticəsində alınan şəhvət hissi

BÖLMƏ 03	Seksual xarakterli təhlükəli əməllər		
03019	**Digər seksual zorakılıq əmələri** 03011-03012-ci kateqoriyalarda təsvir edilməyən və ya daxil edilməyən seksual zorakılıq əmələri. Zorlama – 03011-də müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 0301-də sadalanan bütün istisnalar tətbiq olunur
0302 **Cinsi istismar** Tutduğu qulluq mövqeyindən, vəzifə səlahiyətlərindən və ya etibardan sui-istifadə etməklə və ya zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə fahişəlikdən və cinsi əlaqədə olmadan maliyyə, maddi, sosial və ya siyasi mənfəət əldə etmə.[82]		+	**Daxil olunanlar:** 03021-03029-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Zorlama (03011); cinsi zorakılıq (0301); ictimai mənəviyyat əleyhinə cinayətlər (0802); vəzifə səlahyyətlərindən sui-istifadə (07033); basqın və ya hədə-qorxular (0201); seksual xarakterli təhlükəli əməllər hesab olunmayan kölelik və istismar (0203); cinsi istismar məqsədi ilə insan alveri (02041); təhlükəli əməllər (0207); status cinayətləri (11021)
03021	**Yetkinlik yaşına çatmış şəxslərin cinsi istismarı** Yetkinlik yaşına çatmış şəxslərin cinsi istismarı. - Cinsi istismar – 0302də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Yetkinlik yaşına çatmış şəxslərin fahişəliyə cəlb edilməsi; etibarından sui-istifadə edilərək istismar edilməsi; fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə
		-	**İstisnalar:** 0302-də sadlanan bütün istisnalar tətbiq olunur
03022	**Uşaqların cinsi istismarı** Uşağın cinsi istismarı. - Cinsi istismar – 0302də müəyyən olunduğu kimi. - Uşaq – daxili qanunvericilikdə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** uşaqların cinsi istismar edilməsi; 030221-030229-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Yetkinlik yaşına çatmayan şəxsi zorlama (030113); 0302-də sadalanan bütün istisnalar tətbiq olunur

[82] **Fahişəlik** pul və ya digər formada verilən mükafat müqabilində cinsi əlaqədə olmaq.

BÖLMƏ 03	Seksual xarakterli təhlükəli əməllər		
030221	**Uşaq pornoqrafiyası** Uşaq pornoqrafiyasının yaradılması məqsədi ilə uşaqların əldə edilməsi, hazırlanması, vasitəçilik və nəzarət edilməsi və / və ya uşaq pornoqrafiyasının saxlanılması, yayılması, yayımlanması, ötürülməsi, nümayişi və ya satışı.[83] - Uşaq – milli qanunvericilikdə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Uşaq pornoqrafiyasının yaradılması məqsədi ilə uşaqların əldə edilməsi və hazırlanması; Uşaq pornoqrafiyası ilə bağlı vasitəçilik və uşaqlara nəzarət edilməsi və / və ya uşaq pornoqrafiyasının saxlanılması, yayılması, yayımlanması, ötürülməsi, nümayişi və ya satışı
		-	**İstisnalar:** Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma (08022); 03022-də sadalanan bütün istisnalar tətbiq olunur
030222	**Uşaq fahişəliyi** Mükafat və ya digər haqq forması müqabilində uşaqdan seksual xarakterli fəaliyyətdə istifadə olunması.[84] - Fahişəlik – 82-ci qeyddə müəyyən olunduğu kimi. - Uşaq – milli qanunvericilikdə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Uşaq fahişəliyi, uşaqların yoldan çıxarılmaı (aldadılması), fahişəliyə cəlb edilməsi və ya verlməsi
		-	**İstisnalar:** 03022-də sadalanan bütün istisnalar tətbiq olunur
030223	**Uşaqların cinsi istismara hazırlanması** Uşaqla əsas məqsədi onu cinsi əlaqə qurmağa hazırlamaqla bağlı olan əməllər.[85] - Uşaq – milli qanunvericilikdə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Uşağın (internetdə) virtual hazırlanması; internet vasitəsi ilə uşaqla kontaktın yaradılması və ona seksual xarakterli materialların nümayişi; uşaqla şəxsi kontaktın yaradılması və onu tədricən seksual xarakterli materiallarla tanış edilməsi
		-	**İstisnalar:** 0302-də sadalanan bütün istisnalar tətbiq olunur
030229	**Uşaqların cinsi istismarını nəzərdə tutan digər əməllər** 030221-030223-cü kateqoriyalarda təsvir edilməyən və ya daxil edilməyən uşaqların cinsi istismarı. - Cinsi istismar – 0302-də müəyyən olunduğu kimi. - Uşaq – milli qanunvericilikdə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Uşaqlara qarşı yönəlmiş əxlaqsız hərəkətlər; uşağı cinsi münasibətdə olmağa və ya pornoqrafiyaya baxmağa məcbur etmə; uşaq seks turizmi[86]
		-	**İstisnalar:** 03022-də sadalanan bütün istisnalar tətbiq olunur

[83] **Uşaq pornoqrafiyası** real və ya qeyri-real açıq-aydın seksual hərəkətlər edən uşağı göstərən, yaxud başlıca olaraq seksual məqsədlər üçün uşağın cinsiyyət orqanlarını nümayiş etdirən istənilən material (Avropa Şurası Uşaqların cinsi istismar və cinsi zorakılıqdan müdafiəsi Konvensiyasının 20-ci maddəsi).

[84] "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultətiv Protokolunun 3-cü maddəsinin 1-ci bəndinin b) yarımbəndi.

[85] Council of Europe "Sexual violence against children - The European legislative framework and outline of Council of Europe conventions and European Union policy." Page 63. Web:<http://www.coe.int/t/dg3/children/1in5/Source/PublicationSexualViolence/Ruelle.pdf>.

[86] **Uşaq seks turizmi** bir yerdən başqa yerə səyahət edən və uşaqların cinsi istismarını nəzərdə tutan sahibkarlıq fəaliyyətidir (UNICEF, Commercial Sexual Exploitation of Children (CSEC) and Child Sexual Abuse (CSA) in the Pacific: A regional report. Suva, Fiji, 2006. Web: http://www.unicef.org/eapro/Pacific_CSEC_report.pdf).

BÖLMƏ 03	Seksual xarakterli təhlükəli əməllər		
03029	**Cinsi istismarı nəzərdə tutan digər əməllər** 03021-03022-ci kateqoriyalarda göstərilməyən və ya daxil edilməyəyn cinsi istismar. - Cinsi istismar – 0302də müəyyən olunduğu kimi.	**+**	
		-	**İstisnalar:** 0302-də sadalanan bütün istisnalar tətbiq olunur
0309 **Seksual xarakterli digər təhlükəli əməllər** 0301-0302-ci kateqoriyalarda təsvir edilməyən və ya daxil edilməyən seksual xarakterli zərərli əməllər.		**+**	
		-	**İstisnalar:** Cinsi zorakılıq (0301); cinsi istismar (0302); məcbur etmə (0205); fahişəlik və ya pornoqrfiya ilə bağlı cinayətlər və zorlama hesab edilməyən insest və eksgibisionizm kimi ictimai qaydanın seksual normalarını pozan başqa əməllər (0802); səlahyyətlərdən sui-istifadə (07033); fiziki zorakılıqlar və ya hədə-qorxular (0201); seksual xarakterli zərərli əməllər olmayan köləlik və istismar (0203); cinsi istismar məqsədi ilə insan alveri (02041); böhtan və təhqir (0207); 03021-0302-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 04	Şəxsə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən mülkiyyət əleyhinə yönəlmiş əməllər		
0401	**Soyğunçuluq** Soyğunçuluq, yəni özgənin əmlakını açıq talama.	+	**Daxil olunanlar:** özgənin əmlakını açıq talama; 04011-04019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** yalnız mülkiyyət əleyhinə yönəlmiş cinayətlər (05); basqın və hədə-qorxular (0201); cinayət fəaliyyəti nəticəsində əldə edilən gəlirlərlə bağlı əməllər (0704); əmlaka zərər vurma (0504); qanunsuz azadlıqdan məhrum etmə (02022); hədə-qorxu ilə tələb etmə və ya şantaj (02051)
04011	**Soyğunçuluq** Özgənin şəxsi əmlakını açıq talama.[87] - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** 04011-04019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0401-də sadalanan bütün istisnalar tətbiq olunur
040111	**İctimai yerdə soyğunçuluq** İctimai yerdə şəxsi əmlakın açıq talanması.[88] - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi. - Şəxsi əmlak - 87-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Küçədə soyğunçuluq
		-	**İstisnalar:** 0401-də sadalanan bütün istisnalar tətbiq olunur
040112	**Şəxsi mülkiyyətdə olan yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən soyğunçuluq** Şəxsi mülkiyyətdə olan yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən soyğunçuluq.[89] - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi. - Şəxsi əmlak - 87-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə şəxsi mülkiyyətdə olan yaşayış sahəsində, habelə binada, anbarda və ya başqa saxlanc yerlərində açıq talama
		-	**İstisnalar:** 0401-də sadalanan bütün istisnalar tətbiq olunur

[87] **Şəxsi əmlak** daşınmaz əmlakdan başqa şəxsin istənilən əmlakı.
[88] **İctimai yer** hər kəs üçün açıq və daxil ola biləcəyi (gedə biləcəyi) yerdir.
[89] **Şəxsi məkan** ancaq şəxsi məqsədlər və şəxsi yığıncaqların keçirilməsi üçün nəzərdə tutulmuş və başqa şəxslərin sərbəst daxil ola bilməyəcəyi (gedə bilməyəcəyi) yerdir.

BÖLMƏ 04	Şəxsə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən mülkiyyət əleyhinə yönəlmiş əməllər		
040119	**Soyğunçuluqda ehtiva edilən digər əməllər** 040111-040112-ci kateqoriyada təsvir edilməyən və ya daxil olmayan açıq talama. - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Müxtəlif yerlərdə açıq talama
		-	**İstisnalar:** 0401-də sadalanan bütün istisnalar tətbiq olunur
04012	**Tranzit zamanı dəyərli əşyalar və ya malların soyğunçuluğu** Tranzit zamanı soyğunçuluq. - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** 040121-040122-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0401-də sadalanan bütün istisnalar tətbiq olunur
040121	**Avtomobil və ya digər nəqliyyat vasitəsində soyğunçuluq** Avtomobil və ya digər nəqliyyat vasitəsinin açıq talanması. - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi – 49-cu qeyddə müəyyən olunduğu kimi	**+**	**Daxil olunanlar:** Avtomobil və ya digər nəqliyyat vasitəsinin açıq talanması
		-	**İstisnalar:** Mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanması (05021); 04012-də sadalanan bütün istisnalar tətbiq olunur
040129	**Tranzit zamanı dəyərli əşyalar və ya malların soyğunçuluğu ilə bağlı digər əməllər** 040121-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan dəyərli əşyların və ya malların tranzit zamanı açıq talanması ilə bağlı digər əməllər. - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Tranzit zamanı yükün açıq talanması
		-	**İstisnalar:** 04012-də sadalanan bütün istisnalar tətbiq olunur
04013	**Təşkilat və ya müəssisədə soyğunçuluq** Təşkilat və ya müəssisədə açıq talama. - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** 040131-040132-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0401-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 04	Şəxsə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən mülkiyyət əleyhinə yönəlmiş əməllər		
040131	**Maliyyə müəssisəsində soyğunçuluq**[90] - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Bankda soyğunçuluq; bankomatda soyğunçuluq
		-	**İstisnalar:** 04013-də sadalanan bütün istisnalar tətbiq olunur
040132	**Qeyri-maliyyə müəssisəsində soyğunçuluq** Qeyri-maliyyə müəssisəsində açıq talama. - Maliyyə müəssisəsi- 90-cı qeyddə müəyyən olunduğu kimi. - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Poçt bölmələrində açıq talama; benzin doldurma stansiyalarında açıq talama
		-	**İstisnalar:** 04013-də sadalanan bütün istisnalar tətbiq olunur
04014	**Mal-qara soyğunçuluğu** Sahibindən mal-qaranın açıq talanması.[91] - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** İribuynuzlu heyvanların, keçi, qoyun, toyuq və ya digər mal-qaranın açıq talanması
		-	**İstisnalar:** Mal-qaranın oğurlanması (05025); 0401-də sadalanan bütün istisnalar tətbiq olunur
04019	**Soyğunçuluqda ehtiva edilən digər əməllər** 0401-ci kateqoriyada təsvir edilməyən və ya daxil olmayan soyğunçuluq halları. - Soyğunçuluq - 0401-də müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 0401-də sadalanan bütün istisnalar tətbiq olunur
0409	**Şəxsə qarşı zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən və mülkiyyətə qarşı yönəlmiş digər əməllər** 0401-ci kateqoriyada təsvir və ya təsnif olunmayan şəxsə qarşı zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilən və mülkiyyətə qarşı yönəlmiş əməllər.	+	**Daxil olunanlar:** ərazi yurisdiksiyası baxımından qeyri-müəyyən olan ərazidə talama
		-	**İstisnalar:** Əmlaka zərər vurma (0504); yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər (05); basqın və hədə-qorxular (0201); cinayət fəaliyyəti nəticəsində əldə edilən gəlirlərlə bağlı əməllər (0704); soyğunçuluq (0401); qanunsuz azadlıqdan məhrum etmə (02022); 0401-də sadalanan bütün istisnalar tətbiq olunur

[90] **Maliyyə müəssisəsi** maliyyə əməliyyatları ilə məşğul olan dövlət və özəl müəssisələr.
[91] **Mal-qara** qida məhsullarının, liflərin alınması və ya işlər gördürülməsi üçün inək, qoyun, toyuq, donuz, at və digər növ əhliləşdirilmiş heyvanlar (United Nations. Food and Agriculture Organization. Livestock Statistics. Web: <www.fao.org/.../eufao.../SUA_FBS_Workshop_Background_LivestockStatics>.).

BÖLMƏ 05	Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər		
0501 Quldurluq Quldurluq, yəni özgənin əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın.		+	**Daxil olunanlar:** özgənin əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın; 05011-05019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** oğurluq (0502); cinayət fəaliyyəti nəticəsində əldə edilən gəlirlərlə bağlı əməllər (0704); əmlaka zərər vurma (0504); soyğunçuluq (0401)
05011	**Kommersiya müəssisəsinə daxil olmaqla törədilən quldurluq** Kommersiya müəssisəsinə daxil olmaqla törədilən quldurluq.[92] - Quldurluq – 0501-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** əmlakı ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı kommersiya müəssisəsinə edilən basqın
		-	**İstisnalar:** 0501-də sadalanan bütün istisnalar tətbiq olunur
05012	**Fərdi yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən quldurluq.** Fərdi yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən quldurluq.[93] - Quldurluq – 0501-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** fərdi yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə əmlakı ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı basqın
		-	**İstisnalar:** 0501-də sadalanan bütün istisnalar tətbiq olunur
050121	**Fərdi yaşayış sahəsinə, binaya qanunsuz olaraq girməklə törədilən quldurluq** Zərərçəkmiş şəxsin bir qayda olaraq ilin əksər hissəsini yaşadıqları yaşayış sahəsinə, binaya qanunsuz olaraq girməklə törədilən quldurluq . - Quldurluq – 0501-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Zərərçəkmiş şəxsin daimi yaşadığı yer olan ev, mənzil və ya digər yaşayış sahəsinə, binaya qanunsuz olaraq girməklə törədilən quldurluq
		-	**İstisnalar:** 0501-də sadalanan bütün istisnalar tətbiq olunur

[92] **Kommersiya müəssisəsinin yeri** tikili və ya kommersiya və sənaye müəssisəsinin yerləşdiyi və üzərində xidməti binalar, emalatxanalar, klublar, fabriklər, xidmət stansiyaları, otellər, ticarət mərkəzləri, mağazalar, ferma torpaqları, anbarlar və digər torpaq sahələri və digər binaların yerləşdiyi torpaq sahəsidir.

[93] Fərdi yaşayış sahəsi şəxsin mülkiyyətində olan və ya onun kirayələdiyi və ya icarəyə götürdüyü daşınmaz əmlakdır.

BÖLMƏ 05	Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər		
050122	**Anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən quldurluq** Zərərçəkmiş şəxslərin il ərzində ancaq müvəqqəti olduğu yerlərə qanunsuz olaraq girməklə törədilən quldurluq. - Quldurluq – 0501-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Anbara və ya başqa saxlanc yerlərinə qanunsuz olaraq girməklə törədilən quldurluq
		-	**İstisnalar:** 0501-də sadalanan bütün istisnalar tətbiq olunur
05013	**İctimai yerlərdə quldurluq** İctimai yerlərə daxil olmaqla törədilən quldurluq[94] - Quldurluq – 0501-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** İctimai yerlərə daxil olmaqla törədilən quldurluq
		-	**İstisnalar:** 0501-də sadalanan bütün istisnalar tətbiq olunur
05019	**Quldurluqda ehtiva edilən digər əməllər** 05011-05013-cü kateqoriyalarda təsvir və ya təsnif olunmayan quldurluq. - Quldurluq – 0501-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Hərəkət edən (və ya daşınan) evlərə daxil olmaqla törədilən quldurluq; ictimai, şəxsi və ya kommersiya binaları kimi təsnif edilməyən yerlərə daxil olmaqla törədilən quldurluq
		-	**İstisnalar:** 0501-də sadalanan bütün istisnalar tətbiq olunur
0502 Oğurluq Oğurluq, yəni özgənin əmlakını gizli olaraq talama.		+	**Daxil olunanlar:** 05021-05029-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** cinayət fəaliyyəti nəticəsində əldə edilən gəlirlərlə bağlı əməllər (0704); dələduzluq (0701); soyğunçuluq (0401); əmlaka zərər vurma (0504); quldurluq (0501); əqli mülkiyyət hüquqlarını pozma (0503); dələduzluqda ehtiva edilən digər əməllər (07019)

[94] **İctimai yer** hər kəs üçün açıq və daxil ola biləcəyi (gedə biləcəyi) yerdir.

BÖLMƏ 05	Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər		
05021	**Mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanması** Mühərrikli nəqliyyat vasitələrinin və ya onun hissələrinin oğurlanması.[95] - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Mühərrikli nəqliyyat vasitəsi – 95-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** 050211-050219-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Avtomobil və ya digər nəqliyyat vasitəsində soyğunçuluq (040121); 0502-də sadalanan bütün istisnalar tətbiq olunur
050211	**Avtomobil və ya başqa nəqliyyat vasitəsinin oğurlanması** Mühərrikli quru nəqliyyat vasitəsinin oğurlanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Mühərrikli quru nəqliyyat vasitəsi – 95-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Avtomobilin, furqonun və ya yük maşınının oğurlanması; motosikletin oğurlanması
		-	**İstisnalar:** Avtomobil və ya başqa nəqliyyat vasitəsinin qanunsuz istifadəsi (050212); Avtomobil və ya başqa nəqliyyat vasitəsinin hissələrinin oğurlanması (050213); şəxsi əmlakın oğurlanması (050221); 05021-də sadalanan bütün istisnalar tətbiq olunur
050212	**Avtomobil və ya başqa nəqliyyat vasitəsinin qanunsuz istifadəsi** Nəqliyyat vasitəsi sahibinin razılığı olmadan və zor tətbiq etmədən, zor tətbiq hədəsi, məcbur etmə və ya etibardan sui-istifadə halları olmadan şəxsdən və ya təşkilatdan müvəqqəti olaraq götürmək niyyəti ilə mühərrikli nəqliyyat vasitəsinə qanunsuz sahib olma və ya onun əldə edilməsi. - Mühərrikli quru nəqliyyat vasitəsi – 95-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Avtomobilin şəxsi müvəqqəti istifadə məqsədi ilə qaçırılması
		-	**İstisnalar:** Avtomobil və ya başqa nəqliyyat vasitəsinin oğurlanması (050211); Avtomobil və ya başqa nəqliyyat vasitəsinin hissələrinin oğurlanması (050213); mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanmasını nəzərdə tutan digər əməllər (050219); şəxsi əmlakın oğurlanması (050221); 05021-də sadalanan bütün istisnalar tətbiq olunur
050213	**Avtomobil və ya başqa nəqliyyat vasitəsinin hissələrinin oğurlanması** Mühərrikli quru nəqliyyat vasitəsinin hissələrinin oğurlanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Hissə - 95-ci qeyddə müəyyən olunduğu kimi. - Mühərrikli quru nəqliyyat vasitəsi – 95-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** nəqliyyat vasitəsinin təkərlərinin, mühərriklərinin oğurlanması; nəqliyyat vasitəsinin şüşə və digər hissələrinin oğurlanması
		-	**İstisnalar:** Şəxsi əmlakın oğurlanması (050221); 05021-də sadalanan bütün istisnalar tətbiq olunur

[95] **Mühərrikli nəqliyyat vasitəsi** avtomobillər, motosikletlər, su və hava gəmiləri daxil olmaqla hərəkətə gətirən qurğu və ya mühərrik vasitəsi ilə işləyən özüyeriyən nəqliyyat vasitəsidir.
Mühərrikli quru nəqliyyat vasitəsi avtomobillər, motosikletlər, avtobuslar, yük maşınları, tikinti və kənd təsərrüfatı texnikaları daxil olmaqla yolda hərəkət edən hərəkətə gətirən qurğulu bütün quru nəqliyyat vasitələridir.
Nəqliyyat vasitəsinin hissələri xüsusi olaraq nəqliyyat vasitəsi üçün nəzərdə tutulan və hərəkətə gətirən qurğu, akkumulyator, təkər və şüşələr də daxil olmaqla onun işləməsini təmin edən istənilən və ya əvəzedici elementdir.

BÖLMƏ 05	Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər		
050219	**Mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanmasını nəzərdə tutan digər əməllər** 050211-050213-cü kateqoriyalarda təsvir və ya bu kateqoriyalara daxil olmayan mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanmasını nəzərdə tutan digər əməllər. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. Mühərrikli nəqliyyat vasitəsi – 95-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Hava və su gəmilərinin oğurlanması; hava və su gəmilərinin hissələrinin oğurlanması
		-	**İstisnalar:** şəxsi əmlakın nəqliyyat vasitəsindən oğurlanması (050222); talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə (020223); 05021-də sadalanan bütün istisnalar tətbiq olunur
05022	**Şəxsi əmlakın oğurlanması** Şəxsi əmlakın oğurlanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. Şəxsi əmlak – 87-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Şəxsi əmlakın oğurlanması; 050221-050229-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanması (05021); sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan oğurluq (05023); dövlət əmlakının oğurlanması (05024); mal-qaranın oğurlanması (05025); ev heyvanlarının oğurlanması (05025); 0502-də sadalanan bütün istisnalar tətbiq olunur
050221	**Şəxsi əmlakın oğurlanması** Şəxsi əmlakın şəxsdən oğurlanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Şəxsi əmlak – 87-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Cibgirlik
		-	**İstisnalar:** şəxsi əmlakın oğurlanmasını nəzərdə tutan digər əməllər (050229); 05022-də sadalanan bütün istisnalar tətbiq olunur
050222	**Şəxsi əmlakın nəqliyyat vasitəsindən oğurlanması** Şəxsi əmlakın nəqliyyat vasitəsindən oğurlanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi. - Şəxsi əmlak – 87-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Nəqliyyat vasitəsindən əşyaların oğurlanması; benzin və ya yağın nəqliyyat vasitəsindən boşaldılması
		-	**İstisnalar:** Mühərrikli nəqliyyat vasitəsinin hissələrinin oğurlanması (050213); 05022-də sadalanan bütün istisnalar tətbiq olunur
050229	**Şəxsi əmlakın oğurlanmasını nəzərdə tutan digər əməllər** 050221-050222-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan şəxsi əmlakın oğurlanmasını nəzərdə tutan digər əməllər. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Şəxsi əmlak – 87-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** 050221-050222-ci kateqoriyalarda göstərilməyən yerlərdə şəxsi əmlakın oğurlanması.
		-	**İstisnalar:** 05022-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 05	Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər		
05023	**Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan oğurluq** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan nəqliyyat vasitəsi olmayan daşınar əmlakın oğurlanması. - Daşınar əmlak – daşınmaz hesab edilməyən istənilən əmlak. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan nəqliyyat vasitəsi olmayan daşınar əmlakın oğurlanması; 050231-050239-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Kommersiya müəssisəsinə daxil olmaqla törədilən quldurluq (05011); təşkilat və ya müəssisədə soyğunçuluq (04013); dövlət əmlakının oğurlanması (05024); şəxsi əmlakın oğurlanması (05022); mal-qaranın oğurlanması (05025); mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanması (05021); 0502-də sadalanan bütün istisnalar tətbiq olunur
050231	**Mağazadan oğurluq** Mağazadan malların gizli olaraq talanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Mağazadan malların gizli olaraq talanması
		-	**İstisnalar:** 05023-də sadalanan bütün istisnalar tətbiq olunur
050239	**Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan oğurluqda ehtiva edilən digər əməllər** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan oğurluqda ehtiva edilən digər əməllər. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan işçinin oğurluq etməsi.
		-	**İstisnalar:** 05023-də sadalanan bütün istisnalar tətbiq olunur
05024	**Dövlət əmlakının oğurlanması** Nəqliyyat vasitəsi olmayan istənilən dövlət əmlakının oğurlanması.[96] - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Nəqliyyat vasitəsi - 49-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Dövlət əmlakının oğurlanması.
		-	**İstisnalar:** xidmətlərin oğurlanması (05026); təşkilat və ya müəssisədə soyğunçuluq (04013); mühərrikli nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanması (05021); şəxsi əmlakın oğurlanması (05022); sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatdan oğurluq (05023); mal-qaranın oğurlanması (05025); 0502-də sadalanan bütün istisnalar tətbiq olunur
05025	**Mal-qaranın oğurlanması** Mal-qaranın oğurlanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi. - Mal-qara - 91-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** İnək, toyuq, qoyun, balıq və s. oğurluğu.
		-	**İstisnalar:** mal-qara soyğunçuluğu (04014); şəxsi əmlakın oğurlanmasını nəzərdə tutan digər əməllər (050229); 0502-də sadalanan bütün istisnalar tətbiq olunur

[96] **Dövlət əmlakı** dövlətin mülkiyyətində olan əmlakdır.

BÖLMƏ 05	Yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər		
05026	**Xidmətlərin oğurlanması** Xidmətin oğurlanması. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Elektrik enerjisi, su və ya digər kommunal xidmətlərin oğurlanması; televiziya və radio ötürücü qurğularının oğurlanması; gediş haqqının ödənilməsindən yayınma; xidmət haqqlarının ödənilməsindən yayınma
		-	**İstisnalar:** Dələduzluq (0701); 0502-də sadalanan bütün istisnalar tətbiq olunur
05029	**Oğurluqda ehtiva edilən digər əməllər** 05021-05026-cı kateqoriyalarda təsvir edilməyən və ya daxil olmayan oğurluq, əmlaka ziyan vurma cinayətləri. - Oğurluq - 0502-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Poçt göndərişlərinin oğurlanması, aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlaka ziyan vurma
		-	**İstisnalar:** 0502-də sadalanan bütün istisnalar tətbiq olunur
0503 **Əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqədar cinayətlər** Müəlliflik hüququ; patent hüququ, əmtəə nişanları və digər əqli mülkiyyət hüquqları obyektlərinin qanunsuz surətinin çıxarılması, istifadəsi, dərc edilməsi və ya digər hüquq pozmaları.[97]		**+**	**Daxil olunanlar:** Əqli mülkiyyət hüquqları obyektinin oğurlanması; müəlliflik hüquqlarının pozulması; müəlliflik hüquqlarının qanunsuz mənimsənilməsi; kompyüter proqramlarının kontrafaksiyası (saxtalaşdırılması); sənayedə casusluq
		-	**İstisnalar:** malların saxtalaşdırılması (07022); oğurluq (0502); Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma (0704); dələduzluqda ehtiva edilən digər əməllər (07019); saxtakarlıq (0702); kibercinayətlər (0903)
0504 **Əmlaka zərər vurma** Əmlakın qəsdən məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması**.**		**+**	**Daxil olunanlar:** Yandırma; partlatmaqla əmlaka zərər vurma; vandalizm; su basqını yaratmaq; sürücünün əmlaka zərər vuraraq yol nəqliyyat hadisəsi yerindən qaçması; mühərrikli nəqliyyat vasitəsini qəsdən zədələmə; 05041-05049-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** quldurluq (0501); kibercinayətlər (0903); heyvanlar əleyhinə yönəlmiş əməllər (10091); ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər (10)
05041	**Dövlət əmlakına zərər vurma** Dövlət əmlakının qəsdən məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması. - Dövlət əmlakı – 96 -cu qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Dövlət obyektlərinin məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması.
		-	**İstisnalar:** 0504-də sadalanan bütün istisnalar tətbiq olunur

[97] **Əqli mülkiyyət** ixtira, ədəbiyyat və incəsənət əsərləri, həmçinin ticarət əməliyyatlarında istifadə olan simvollar, obrazlar və adlar (World Intellectual Property Organization. Basic Definitions. Geneva, Switzerland: Web: <http://www.wipo.int/about-ip/en/studies/publications/ip_definitions.htm>.).
Patent yeni hazırlanma üsulu və ya yeni məsələnin texniki həllini təklif edən məhsul və ya texnologiyanın ixtirasına görə verilən müstəsna hüquqdur (World Intellectual Property Organization. *Basic Definitions*. Geneva, Switzerland: Web: <http://www.wipo.int/about-ip/en/studies/publications/ip_definitions.htm>.).
Müəlliflik hüququ ədəbiyyat və incəsənət əsərlərini yaradan şəxslərə həmin əsərlərə münasibətdə müstəsna hüququn verilməsini izah edən hüquqi termindir (World Intellectual Property Organization. *Basic Definitions*. Geneva, Switzerland: Web:<http://www.wipo.int/about-ip/en/studies/publications/ip_definitions.htm>.).
Əmtəə nişanı müəyyən fiziki və ya hüquqi şəxslərə mal və xidmətlərin mal və xidmətlər kimi identifikləşdirilməsi üçün verilmiş fərqləndirici nişandır (World Intellectual Property Organization. Basic Definitions. Geneva, Switzerland. Web: <http://www.wipo.int/about-ip/en/studies/publications/ip_definitions.htm>.).

05042	**Şəxsi əmlaka zərər vurma** Şəxsi əmlakın qəsdən məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması.	**+**	**Daxil olunanlar:** Şəxsi əmlakın qəsdən məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması.
		-	**İstisnalar:** 0504-də sadalanan bütün istisnalar tətbiq olunur
05043	**Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatın əmlakına zərər vurma** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatın əmlakının qəsdən məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması.	**+**	**Daxil olunanlar:** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatın əmlakının qəsdən məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması.
		-	**İstisnalar:** 05042-də sadalanan bütün istisnalar tətbiq olunur
05049	**Əmlaka zərər vurmada ehtiva edilən digər əməllər** 05041-05043-cü kateqoriyalarda təsvir edilməyən və ya daxil olunmayan əmlakın qəsdən məhv edilməsi, zədələnməsi və ya yararsız hala salınması.	**+**	
		-	**İstisnalar:** 0504-də sadalanan bütün istisnalar tətbiq olunur
0509 Əmlaka zərər vurmada ehtiva edilən digər əməllər 0501-0504-cü kateqoriyalarda təsvir edilməyən və ya daxil edilməyən əmlaka zərər vurmağa yönəlmiş əməllər.		**+**	**Daxil olunanlar:** Əmlakın qanunsuz mənimsənilməsi; yaşayış yerinə və ya torpağa zor tətbiq etməklə daxil olma və ya onlara sahib olma
		-	**İstisnalar:** Əmlaka ziyan vurma (0504); kibercinayətlər (0903); ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər (10); 0501-0504-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 06	Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər		
0601	**Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar əməllər** Şəxsi istehlak məqsədilə və ya şəxsi istehlak məqsədi olmadan narkotik vasitələr, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz emalı, saxlanılması, alışı, istifadəsi, dövriyyəsi, becərilməsi və ya hazırlanması.[98]	+	**Daxil olunanlar:** 06011-06019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi (02072); narkotik və spirtli içkinin təsiri altında nəqliyyat vasitələrinin idarə edilməsi nəticəsində adam öldürmə (010321)
06011	**Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq əldə etmə, sahiblik etmə, istifadə etmə, kultivasiya etmə və ya istehsal etmə** Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq əldə etmə, sahiblik etmə, istifadə etmə, kultivasiya etmə və ya istehsal etmə. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi.	+	**Daxil olunanlar:** Narkotik vasitələri qanunsuz olaraq əldə etmə; narkotik vasitələri qanunsuz olaraq istifadə etmə; şəxsi istifadə üçün narkotik vasitələrin becərilməsi; 060111-060112-da sadalanan bütün istisnalar tətbiq olunur
		-	**İstisnalar:** 0601 - da sadalanan bütün istisnalar tətbiq olunur
060111	**Şəxsi istehlak məqsədilə qanunsuz olaraq nəzarətdə olan narkotik vasitələri əldə etmə, sahiblik etmə, istifadə etmə** Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq əldə etmə, sahiblik etmə, istifadə etmə. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi.	+	**Daxil olunanlar:** Narkotik vasitələri qanunsuz olaraq əldə etmə; narkotik vasitələri qanunsuz olaraq sahiblik etmə və ya istifadə etmə.
		-	**İstisnalar:** 06011 - da sadalanan bütün istisnalar tətbiq olunur
060112	**Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq kultivasiya etmə və ya istehsal etmə** Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq kultivasiya etmə və ya istehsal etmə. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi.	+	**Daxil olunanlar:** Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq kultivasiya etmə və ya istehsal etmə
		-	**İstisnalar:** 06011 - da sadalanan bütün istisnalar tətbiq olunur

[98] **Nəzarətdə olan narkotik vasitələr** narkotik vasitə və ya psixotrop maddələr 1961-ci il edilmiş dəyişikliklərlə "Narkotik vasitələr" haqqında BMT-nin Vahid Konvensiyası və 1971-ci il "Psixotrop maddələr" haqqında BMT-nin Konvensiyasında müəyyən olunduğu kimi.
Prekursorlar narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədi ilə istifadə edilən maddələr. 1988-ci il Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında BMT-nin Konvensiyası.

BÖLMƏ 06	Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər		
06012	**Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi, onları kultivasiya etmə və ya istehsal etmə** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi, onları kultivasiya etmə və ya istehsal etmə. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi. - Prekursorlar – 98-ci qeyddə göstərildiyi kimi.	**+**	**Daxil olunanlar:** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi, onları kultivasiya etmə və ya istehsal etmə, 060121-060129 - da sadalanan bütün istisnalar tətbiq olunur
		-	**İstisnalar:** 0601- də sadalanan bütün istisnalar tətbiq olunur
060121	**Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz dövriyyəsi** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz dövriyyəsi. Nəzarətdə olan narkotik vasitələr – 98 - ci qeyddə göstərildiyi kimi.	**+**	**Daxil olunanlar:** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz dövriyyəsi
		-	**İstisnalar:** Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (08042), Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041), 06012-də sadalanan bütün istisnalar tətbiq olunur
060122	**Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz hazırlanması** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz hazırlanması. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi.	**+**	**Daxil olunanlar:** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin qanunsuz hazırlanması
		-	**İstisnalar:** Şəxsi istehlak məqsədilə nəzarətdə olan narkotik vasitələri qanunsuz olaraq kultivasiya (060112); 06012-də sadalanan bütün istisnalar tətbiq olunur
060123	**Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələri qanunsuz kultivasiya etmə** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələri qanunsuz kultivasiya etmə. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi.	**+**	**Daxil olunanlar:** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan nar vasitələri qanunsuz kultivasiya etmə
		-	**İstisnalar:** Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələri qanunsuz kultivasiya etmə (060112); 06012-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 06	Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər		
060124	**Şəxsi istehlak məqsədi olmadan prekursorların qanunsuz yayılması** Şəxsi istehlak məqsədi olmadan prekursorların qanunsuz yayılması. - Prekursorlar – 98-ci qeyddə göstərildiyi kimi.	**+**	**Daxil olunanlar:** Şəxsi istehlak məqsədi olmadan prekursorların qanunsuz yayılması
		-	**İstisnalar:** 06012- də sadalanan bütün istisnalar tətbiq olunur
060129	**Şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi, onları kultivasiya etmə və ya istehsal etmədə ehtiva edilən digər əməllər** 060121-060124-cü kateqoriyalarda təsvir və ya təsnif olunmayan şəxsi istehlak məqsədi olmadan nəzarətdə olan narkotik vasitələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi, onları kultivasiya etmə və ya istehsal etmədə ehtiva edilən digər əməllər . Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi. Prekursorlar – 98-ci qeyddə göstərildiyi kimi.	**+**	**Daxil olunanlar:** Narkotik vasitələrin qanunsuz hazırlanması, istehsalı və ya becərilməsi məqsədi ilə avadanlıqların qanunsuz ticarəti
		-	**İstisnalar:** 06012- də sadalanan bütün istisnalar tətbiq olunur
06019	**Narkotik vasitələr və ya prekursorlarla əlaqəli digər qanunsuz əməllər** 06011-06012-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan şəxsi istehlak məqsədilə və ya şəxsi istehlak məqsədi olmadan narkotik vasitələr və ya prekusorlarla əlaqəli digər qanunsuz əməllər. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi. - Prekursorlar – 98-ci qeyddə göstərildiyi kimi.	**+**	**Daxil olunanlar:** Saxta reseptlərin verilməsi, rəsmiləşdiriliməsi və ya onlarla bağlı əqdin bağlanması; narkotik vasitələrin tərkibi ilə əlaqəli qanunsuz əməllər; narkotik vasitələrin istifadə edilməsinə həvəsləndirmə; nəzarət edilən maddələrin qanunsuz reklamı
		-	**İstisnalar:** Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (08042), Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041), 0601-də sadalanan bütün istisnalar tətbiq olunur
0602 Spirtli içki, tütün və başqa nəzarət edilən maddələrlə əlaqəli qanunsuz əməllər şəxsi istehlak məqsədilə və ya şəxsi istehlak məqsədi olmadan spirtli içki, tütün məhsulları və ya başqa nəzarət edilən maddələrin qanunsuz əməllər.		**+**	**Daxil olunanlar:** 06021-06029-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi (02072); status hüquqpozmaları (11021); Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində adam öldürmə (010321); Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (08042), Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041)

BÖLMƏ 06	Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər		
06021	**Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsi** Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsi.	**+**	**Daxil olunanlar:** Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsi; 060211-060219-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0602-də sadalanan bütün istisnalar tətbiq olunur
060211	**Spirtli içki məhsullarının qanunsuz əldə edilməsi və ya istifadəsi** Spirtli içki məhsullarının qanunsuz əldə edilməsi və ya istifadəsi.	**+**	**Daxil olunanlar:** Spirtli içki məhsullarının qanunsuz əldə edilməsi və ya istifadəsi
		-	**İstisnalar:** status hüquqpozmaları (11021); 06021- də sadalanan bütün istisnalar tətbiq olunur
060212	**Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması** Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması.	**+**	**Daxil olunanlar:** Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması
		-	**İstisnalar:** 06021- də sadalanan bütün istisnalar tətbiq olunur
060219	**Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsini ehtiva edən digər əməllər** 060211-060219-cu kateqoriyalarda təsvir və ya təsnif olunmayan şəxsi istehlak məqsədilə və ya şəxsi istehlak məqsədi olmadan Spirtli içki məhsullarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsini ehtiva edən digər əməllər.	**+**	**Daxil olunanlar:** Spirtli içki məhsullarının qanunsuz reklamı; spirtli içki məhsullarının qəbul edilməsinə həvəsləndirmə
		-	**İstisnalar:** 06021- də sadalanan bütün istisnalar tətbiq olunur
06022	**Tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsi** Şəxsi istehlak məqsədilə və ya şəxsi istehlak məqsədi olmadan tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsi.	**+**	**Daxil olunanlar:** 060221-060229-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0602- də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 06	Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər		
060221	**Tütün və tütün məmulatlarının qanunsuz əldə edilməsi və ya istifadəsi** Şəxsi istehlak məqsədilə tütün və tütün məmulatlarının qanunsuz əldə edilməsi və ya istifadəsi.	**+**	**Daxil olunanlar:** şəxsi istehlak məqsədilə tütün və tütün məmulatlarının qanunsuz əldə edilməsi və ya istifadəsi
		-	**İstisnalar:** status hüquqpozmaları (11021); 06022 - də sadalanan bütün istisnalar tətbiq olunur
060222	**Tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması** Şəxsi istehlak məqsədi olmadan tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması.	**+**	**Daxil olunanlar:** şəxsi istehlak məqsədi olmadan tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi və ya yayılması
		-	**İstisnalar:** 06022- də sadalanan bütün istisnalar tətbiq olunur
060229	**Tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsini ehtiva edən digər əməllər** 060221-060222-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan şəxsi istehlak məqsədilə və ya şəxsi istehlak məqsədi olmadan tütün və tütün məmulatlarının qanunsuz istehsalı, dövriyyəsi, əldə edilməsi və ya istifadəsini ehtiva edən digər əməllər.	**+**	**Daxil olunanlar:** Tütün və tütün məmulatlarının qanunsuz reklamı; tütün məmulatlarının qəbul edilməsinə həvəsləndirmə
		-	**İstisnalar:** 06022- də sadalanan bütün istisnalar tətbiq olunur
06029	**Spirtli içki, tütün və ya digər nəzarət edilən maddələrlə əlaqəli digər qanunsuz əməllər** 06021-06022-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan şəxsi istehlak məqsədilə və ya şəxsi istehlak məqsədi olmadan spirtli içki, tütün və ya digər nəzarət edilən maddələrlə əlaqəli digər qanunsuz əməllər.	**+**	**Daxil olunanlar:** Nəzarətdə olan maddələrdən dopinq kimi istifadə edilməsi; digər şəxsləri dopinqdən istifadəyə həvəsləndirilmə; nəzarətdə olan maddələrin qanunsuz ticarəti
		-	**İstisnalar:** 06021-06022- də sadalanan bütün istisnalar tətbiq olunur
0609 **Nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar digər qanunsuz əməllər** 0601-0602-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan narkotik vasitələr və ya digər nəzarət olunan psixoaktiv maddələrlə əlaqəli qanunsuz əməllər. - Nəzarətdə olan narkotik vasitələr – 98-ci qeyddə göstərildiyi kimi.		**+**	
		-	**İstisnalar:** Psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi (02072); status hüquqpozmaları (11021); Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində adam öldürmə (010321); Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (8042), Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041); 0601-0602-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 07	Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri		
0701 Dələduzluq Dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə.		+	**Daxil olunanlar:** İpoteka dələduzluğu; maliyyə dələduzluğu; özünü başqa şəxs kimi təqdim etmə, fərdi məlumatların əldə edilməsi məqsədilə dələduzluq; istehlakçıların aldadılması; 07011-07019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** oğurluq (0502); Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (08042); Demokratik seçkilər ilə əlaqədar digər qanunsuz əməllər (08079); qanunsuz varlanma (07035)
07011	**Maliyyə dələduzluğu** Şəxsi mənfəət əldə etmək məqsədilə maliyyə əməliyyatları ilə bağlı dələduzluq. Buraya bank hesabları, kredit kartları, çeklər, mağaza kartları və ya onlayn bank sistemi daxildir. - Dələduzluq – 0701-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Bank dələduzluğu; investisiya sahəsində dələduzluq; çeklər/kredit kartları ilə bağlı dələduzluq; mağaza kartları ilə bağlı dələduzluq; internet vasitəsi ilə bank xidmətlərinin göstərilməsi sahəsində dələduzluq; 070111-070112-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma (07041); mənimsəmə (07032); 0701-də sadalanan bütün istisnalar tətbiq olunur
070111	**Dövlətə qarşı maliyyə dələduzluğu** Dövlətə qarşı maliyyə dələduzluğu. - Maliyyə dələduzluğu – 07011-də müəyyən olunduğu kimi	+	**Daxil olunanlar:** dövlətin maliyyə vəsaitlərindən dələduzluq yolu ilə istifadə edilməsi
		-	**İstisnalar:** Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041); 07011-də sadalanan bütün istisnalar tətbiq olunur
070112	**Fiziki və hüquqi şəxslərə qarşı maliyyə dələduzluğu** Fiziki və hüquqi şəxslərə qarşı maliyyə dələduzluğu.[99] - Maliyyə dələduzluğu – 07011-də müəyyən olunduğu kimi	+	**Daxil olunanlar:** İpoteka dələduzluğu; qiymətli kağızlarla bağlı dələduzluq; investisiya sahəsində dələduzluq; bank dələduzluğu
		-	**İstisnalar:** 07011-də sadalanan bütün istisnalar tətbiq olunur

[99] **Fiziki şəxs -** hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir.
Hüquqi şəxs - Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir.

BÖLMƏ 07	Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri		
07019	**Dələduzluqda ehtiva edilən digər əməllər** 07011-ci kateqoriyada təsvir edilməyən və daxil olmayan dələduzluq növləri. Dələduzluq – 0701-də müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etməyə yönəlmiş əməllər
		-	**İstisnalar:** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma (07041); mənimsəmə (07032); qanunsuz varlanma (07035); Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041); 0701-də sadalanan bütün istisnalar tətbiq olunur
0702 **Saxtakarlıq** Saxta malların və ya saxta malların hazırlanması üçün nəzərdə tutulan alətlərin düzəldilməsi, hazırlanması, satışı, buraxılışı və ya saxlanılması.		**+**	**Daxil olunanlar:** saxta pul və ya qiymətli kağızları hazırlama və ya satma; alətlərin, predmetlərin, kompüter proqramlarının və digər saxtalaşdırma vasitələrinin hazırlanması, əldə edilməsi və ya saxlanılması; bilə-bilə saxta malların, pul nişanlarının və ya sənədlərin idxalı, ixracı, daşınması, qəbul edilməsi və ya əldə edilməsi; 07021-07029-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Dələduzluqda ehtiva edilən digər əməllər (07019); saxta vizadan istifadə (0805); əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqəli cinayətlər (0503); qaçaqmalçılıq (08044)
07021	**Ödəniş vasitələrinin saxtalaşdırılması** Kompüter sistemlərindən istifadə etməklə və ya etməməklə saxta ödəniş vasitələrinin özünün və ya saxta ödəniş vasitələrinin hazırlanması üçün nəzərdə tutulan alətlərin düzəldilməsi, hazırlanması, satışı, buraxılışı və ya saxlanılması.	**+**	**Daxil olunanlar:** Qəpik və ya kağız pulların saxtalaşdırılması; möhür və ya biletlərin saxtalaşdırılması; nağdsız ödəniş vasitələrinin saxtalaşdırılması; 070211-070219-da sadalanan bütün daxil olmalar tətbiq olunur
		-	**İstisnalar:** 0702-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 07	Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri		
070211	**Nağd ödəniş vasitələrinin saxtalaşdırılması** Kompüter sistemlərindən istifadə etməklə və ya etməməklə saxta nəğd ödəniş vasitələrinin özünün və ya saxta nəğd ödəniş vasitələrinin hazırlanması üçün nəzərdə tutulan alətlərin düzəldilməsi, hazırlanması, satışı, buraxılışı və ya saxlanılması.[100]	+	**Daxil olunanlar:** Satış məqsədi ilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satma; kompüter proqramlarının və kağız pulların və qəpiklərin saxtalaşdırılmasının və dəyişdirilməsinin digər vasitələrinin hazırlanması, əldə edilməsi və ya saxlanılması; bilə-bilə saxta banknot və qəpiklərin idxalı, ixracı, daşınması, qəbul edilməsi və ya əldə edilməsi
		-	**İstisnalar:** maliyyə dələduzluğu (07011); cinayət fəaliyyəti nəticəsində əldə edilən gəlirlərlə bağlı əməllər (0704); 07021-də sadalanan bütün istisnalar tətbiq olunur
070212	**Nağdsız ödəniş vasitələrinin saxtalaşdırılması** Kompüter sistemlərindən istifadə etməklə və ya etməməklə saxta nağdsız ödəniş vasitələrinin özünün və ya saxta nağdsız ödəniş vasitələrinin hazırlanması üçün nəzərdə tutulan alətlərin düzəldilməsi, hazırlanması, satışı, buraxılışı və ya saxlanılması.[101]	+	**Daxil olunanlar:** saxta nağdsız ödəniş vasitələrinin hazırlanması və ya saxtalaşdırılması; kompüter proqramlarının və nağdsız ödəniş vasitələrinin digər saxtalaşdırma vasitələrinin hazırlanması, əldə edilməsi və ya saxlanılması dələduzluğu; bilə-bilə saxta nağdsız ödəniş vasitələrinin idxalı, ixracı, daşınması, qəbul edilməsi və ya əldə edilməsi
		-	**İstisnalar:** Nağd ödəniş vasitələrinin saxtalaşdırılması (070211); maliyyə dələduzluğu (07011); cinayət fəaliyyəti nəticəsində əldə edilən gəlirlərlə bağlı əməllər (0704); 07021-də sadalanan bütün istisnalar tətbiq olunur
07022	**Malların saxtalaşdırılması** Əmtəə nişanı, patent, firma adı və ya digər üsullarla qorunan məhsulların özünün və ya saxta məhsulların hazırlanması üçün nəzərdə tutulan alətlərin düzəldilməsi, hazırlanması, satışı, buraxılışı və ya saxlanılması. - Əmtəə nişanı və patent – 97-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Məhsulların (çanta, ayaqqabı, dərman vasitələrinin) saxtalaşdırılması ilə əlaqədar əməllər; saxta məhsul və ya alətlərin düzəldilməsi üçün nəzərdə tutulmuş predmetlərin saxlanılması; saxta dərman preparatları; əczaçılıq məhsullarının saxtalaşdırılması
		-	**İstisnalar:** sağlamlığa təhlükə yaradan əməllər (02071); qaçaqmalçılıq (08044); əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqəli cinayətlər (0503); 0702-də sadalanan bütün istisnalar tətbiq olunur

[100] **Nağd ödəniş vasitələri –** əsginaz və qəpiklər.
[101] **Nağdsız ödəniş vasitələri** – kredit kartları, çeklər, virtual valyutalar və debet kartlar kimi əsginaz və qəpik olmayan ödəniş vasitələri.

BÖLMƏ 07	Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri		
07023	**Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma** Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma	+	**Daxil olunanlar:** Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma
		-	**İstisnalar:** dələduzluq (0701); Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə (0805); əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqəli cinayətlər (0503); 0702-də sadalanan bütün istisnalar tətbiq olunur
07029	**Digər saxtakarlıq əməlləri** 07021-07023-cü kateqoriyalarda təsvir edilməyən və ya daxil olmayan saxta malların özünün və ya saxta malların hazırlanması üçün nəzərdə tutulan alətlərin düzəldilməsi, hazırlanması, satışı, buraxılışı və ya saxlanılması.	+	
		-	**İstisnalar:** 0702-də sadalanan bütün istisnalar tətbiq olunur
0703 Korrupsiya Birləşmiş Millətlər Təşkilatının korrupsiya əleyhinə Konvensiyası və korrupsiya əleyhinə digər beynəlxalq-hüquqi sənədlərdə müəyyən olunan qanunsuz əməllər.[102]		+	**Daxil olunanlar:** Rüşvət vermə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi; Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi; 07031-07039-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** məcbur etmə (0205)

[102] BMT-nin Narkotik və Cinayətkarlıqla mübarizə İdarəsi. BMT-nin korrupsiya əleyhinə Konvensiyası. Vyana, Avstriya, 2004-cü il. Veb. <http://www.unodc.org/documents/treaties/UNCAC/Publications/Convention/08-50026_E.pdf>.

BÖLMƏ 07	Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri		
07031	**Rüşvətxorluq** Vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi	+	**Daxil olunanlar:** vəzifəli şəxslərin rüşvətlə ələ alınması; xarici dövlətlərin vəzifəli şəxslərinin və beynəlxalq dövlətlərarası təşkilatların qulluqçularının rüşvətlə ələ alınması; 070311-070312-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** məcbur etmə (0205); 0703-də sadalanan bütün istisnalar tətbiq olunur
070311	**Rüşvət vermə (aktiv rüşvətxorluq)** Rüşvət vermə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi.[102]	+	**Daxil olunanlar:** vəzifəli şəxsə rüşvət verilməsi; xarici dövlət vəzifəli şəxsə və beynəlxalq dövlətlərarası təşkilatların qulluqçusuna rüşvət verilməsi
		-	**İstisnalar:** 07031-də sadalanan bütün istisnalar tətbiq olunur
070312	**Rüşvət alma (passiv rüşvətxorluq)** Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi.[102]	+	**Daxil olunanlar:** vəzifəli şəxs tərəfindən rüşvətin qəbul edilməsi; xarici dövlət vəzifəli şəxs və ya beynəlxalq dövlətlərarası təşkilatların qulluqçusu tərəfindən rüşvətin qəbul edilməsi
		-	**İstisnalar:** 07031-də sadalanan bütün istisnalar tətbiq olunur
07032	**Mənimsəmə** təqsirkara etibar edilmiş özgə əmlakını talama.[103]	+	**Daxil olunanlar:** təqsirkara etibar edilmiş özgə əmlakını talama
		-	**İstisnalar:** yalnız mülkiyyət əleyhinə yönəlmiş əməllər (05); maliyyə dələduzluğu (07011); 0703-də sadalanan bütün istisna olunanlar tətbiq olunur

[103] **Talama** - özgənin əmlakını tamah məqsədi ilə hüquqazidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə və özünün və ya başqa şəxslərin xeyrinə keçirməsidir.
Mənimsəmə və ya israf etmə - başqa şəxsin sərəncamında olan pul vəsaitləri və ya əmlakı onun razılığı olmadan etibardan sui-istifadə etmək yolu ilə öz şəxsi istifadəsi üçün qanunsuz istifadə olunması (BMT-nin Narkotik və Cinayətkarlıqla mübarizə İdarəsi. BMT-nin korrupsiya əleyhinə Konvensiyası. Vyana, Avstriya, 2004-cü il)

BÖLMƏ 07	Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri		
07033	**Vəzifə səlahiyyətlərindən sui-istifadə** Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsinin fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurması.[102]	+	**Daxil olunanlar:** Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsinin fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurması
		-	**İstisnalar:** 0703-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
07034	**Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)** Şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün, birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklif və ya vədin qəbul edilməsi, və ya bu cür maddi və sair nemətin, imtiyazın və ya güzəştin təklif olunması, vəd edilməsi və ya verilməsi.[102]	+	**Daxil olunanlar:** Şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün, birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklif və ya vədin qəbul edilməsi; Şəxsə öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin təklif olunması, vəd edilməsi və ya verilməsi
		-	**İstisnalar:** 0703-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
07035	**Qanunsuz varlanma** Vəzifəli şəxsin aktivlərinin qanuni gəlirləri ilə əsaslandırılması mümkün olmayan əhəmiyyətli dərəcədə böyüməsinin təmin edilməsi.[102]	+	**Daxil olunanlar:** qanunsuz varlanma
		-	**İstisnalar:** Dələduzluq (0701); 0703-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
07039	**Digər korrupsiya cinayətləri** 07031-07035-ci kateqoriyalarda təsvir edilməyən və ya daxil olunmayan korrupsiya cinayətləri ilə bağlı digər əməllər. - Korrupsiya – 0703-də müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Maraqların toqquşması; vicdansız mənimsəmə
		-	**İstisnalar:** 0703-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
0704	**Cinayət fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlərlə bağlı əməllər** Birbaşa və ya dolayısı ilə cinayət yolu ilə pul vəsaitlərinin və ya digər əmlakın əldə edilməsi, onlara sahiblik edilməsi və ya onlardan istifadə edilməsi.	+	**Daxil olunanlar:** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın saxlanılması; 07041-07049-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Əmlak və ya pul vəsaitlərinin bilavasitə törədilməsi nəticəsində əldə olunduğu cinayətlər bu səviyyədə kodlaşdırılmır

BÖLMƏ 07	Dələduzluq, aldatma və ya korrupsiya cinayətləri		
07041	**Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma** Əmlakın cinayət mənbəyinin gizlədilməsi və ya ört-basdır edilməsi və ya əsas cinayətin törədilməsində iştirak etmiş şəxsə öz əməllərinə görə hüquqi məsuliyyətdən yayınması üçün köməkliyin göstərilməsi məqsədi ilə əmlakın cinayət yolu ilə əldə olunduğunu bildiyi halda əmlakın konversiyası və ya ötürülməsi, həmçinin əsl xarakterinin, mənbəyinin, olduğu yerin, sərəncam vermək üsulunun dəyişdirilməsi, əmlakın başqa yerə daşınmasının və ya ona aid olduğunun gizlədilməsi və ya ört-basdır edilməsi.[104]	+	**Daxil olunanlar:** Əmlakdan təyinatı üzrə istifadə etməmə və ya ötürmə; əmlakla bağlı məlumatın qanunsuz olaraq gizlədilməsi və ya ört-basdır edilməsi; yuyulan çirkli pulların qanunsuz əldə edilməsi, saxlanılması və ya istifadə edilməsi; "öz-özlüyündə leqallaşdırma"; cinayət fəaliyyəti nəticəsində əldə olunmuş gəlirlərin gizlədilməsi və ya davamlı saxlanılması
		-	**İstisnalar:** 0704-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
07042	**Mədəni sərvətlərin qanunsuz dövriyyəsi** Mədəni sərvətlərinin qanunsuz satışı, yayılması, dövriyyəsində vasitəçilik, daşınması, idxalı, ixracı və ya saxlanılması.[105]	+	**Daxil olunanlar:** Mədəni sərvətlərinin qanunsuz dövriyyəsi; əmlakın oğurlanması və ona zərər yetirilməsi hesab olunmayan mədəni sərvətlərlə bağlı olan cinayətlər
		-	**İstisnalar:** oğurluq (0502); Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (08042); Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041); 0704-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
07049	**Cinayət yolu ilə əldə edilmiş gəlirlərlə bağlı digər əməllər** 07041-07042-ci kateqoriyalarda təsvir olunmayan və bu kateqoriyalara daxil olunmayan birbaşa və ya dolayısı ilə cinayət törədilməsi nəticəsində əldə edilmiş pul vəsaitlərinin və ya əmlakın əldə edilməsi, sahiblik edilməsi və ya istifadə olunması halları.	+	**Daxil olunanlar:** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın saxlanılması; Cinayət yolu ilə pul vəsaitlərinin və ya digər əmlakın əldə edilməsi, emalı, satışı və qanunsuz dövriyyəsi, digər malların istehsalı üçün istifadə edilməsi (leqallaşdırılması); Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın gizlədilməsi
		-	**İstisnalar:** oğurluq (0502); 0704-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
0709 **Dələduzluq, aldatma və ya korrupsiya ilə bağlı olan digər əməllər** 0701-0704-ci kateqoriyalarda təsvir olunmayan və bu kateqoriyalara daxil olunmayan dələduzluq, aldatma və ya korrupsiya ilə bağlı olan digər əməllər.		+	
		-	**İstisnalar:** Zərərçəkmiş şəxsin xarakterik cəhətləri və xüsusiyyətləri ilə əlaqədar böhtan və ya təhqir (020291); zor tətbiq etməməklə zorlama (030112); Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041); qəsdən müflisləşmə (08042); qaçaqmalçılıq (08044); miqrasiya ilə əlaqədar qanunsuz hərəkətlər (0805); demokratik seçkilər ilə əlaqədar qanunsuz əməllər (08079); 0701-0704-də sadalanan bütün istisnalar tətbiq olunur

[104] BMT-nin Narkotik və Cinayətkarlıqla mübarizə İdarəsi. BMT-nin transmilli mütəşəkkil cinayətkarlıq əleyhinə Konvensiyası və ona əlavə edilən Protokollar. Nyu-York, Nyu-York ştatı, 2004-cü il. Veb:<https://www.unodc.org/documents/treaties/UNTOC/Publications/TOC Convention/TOCebook-e.pdf>.).

[105] **Mədəni sərvətlər -** arxeologiya, tarix, ədəbiyyat, incəsənət və elm üçün əhəmiyyəti nəzərə alınaraq iştirakçı dövlət tərəfindən xüsusi olaraq idxal nəzarəti kimi göstərilən dini və ya dünyəvi xarakterli dəyərlərdir (YUNESCO-nun Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında 14 noyabr 1970-ci il tarixli Konvensiya. Veb: <http://www.unesco.org/new/en/culture/themes/illicit-traffic-of-cultural-property/1970-convention>

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
0801	**İctimai qayda əleyhinə olan cinayətlər** İctimai qayda əleyhinə olan əməllər.[106]	+	**Daxil olunanlar:** Dilənçilik; zibilləmə; qanunsuz yığıncağın təşkil edilməsi; xuliqanlıq; 08011-08019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** İctimai mənəviyyat əleyhinə cinayətlər (0802)
08011	**İctimai qayda əleyhinə zorakılıqla müşayiət olunan əməllər** Cəmiyyətin üzvlərində ciddi sarsıntı, qorxu və sağlamlığa zərər vurmaya səbəb olan zorakılığın tətbiq olunması.	+	**Daxil olunanlar:** Qiyam; kütləvi iğtişaşlar; xuliqanlıq; idman tədbirləri zamanı aqressiv davranış
		-	**İstisnalar:** basqın və hədə-qorxular (0201); 0801-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08012	**Sosial və dini ictimai qaydalar əleyhinə olan əməllər** Sosial və dini ictimai qaydalar əleyhinə olan əməllər.[107]	+	**Daxil olunanlar:** İctimai yerdə sərxoşluq etmək; ətrafdakıları narahat etmə; təhqiramiz ifadələr işlətmə və ya təhqiramiz davranış; avaralıq; dini mərasimlərin keçirilməsinə mane olma; məişət səs-küyünə qarşı mübarizə tələblərini pozma
		-	**İstisnalar:** psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi (02072); Nəzarət edilən ictimai davranış qaydalarının ifadə edilməsi ilə bağlı əməllər (08032); ətraf mühiti çirkləndirən və ya ona ziyan vuran əməllər (1001); status hüquqpozmaları (11021); 0801-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08019	**İctimai qayda əleyhinə olan digər əməllər** 08011-08012-ci kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyalara daxil olunmayan ictimai qayda əleyhinə yönəlmiş əməllər. - İctimai qayda - 106-cı qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Qanunsuz yığıncaq təşkil etmə; qanunsuz yığıncaqda iştirak etmə, şəxsi qanunsuz yığıncaqda iştiraka cəlb etmə, qanunsuz yığıncağın keçirildiyi yeri zəbt etmə
		-	**İstisnalar:** 0801-də sadalanan bütün istisna olunanlara tətbiq olunur

[106] **İctimai qayda** - ictimai ədəb və əxlaq qaydalarına uyğun davranış.
[107] **Sosial və dini ictimai qaydalar** - cəmiyyətin üzvləri və dini kitablar, dini təlimlər tərəfindən müəyyən edilən davranış qaydalarıdır.

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
0802	**İctimai mənəviyyat əleyhinə cinayətlər** Ümumi qəbul olunmuş ictimai mənəviyyat normalarını pozan əməllər.[108]	+	**Daxil olunanlar:** Pornoqrafiya və fahişəliklə bağlı cinayətlər; cinsi münasibətlərin qanunsuz formaları; 08021-08029-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Seksual xarakterli bütün təhlükəli əməllər (03); şəxsi həyatın toxunulmazlığını pozma (020111); cinsi istismar məqsədi ilə insan alveri (02041)
08021	**Fahişəliyə cəlb etmə** Gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmə - İctimai əxlaq normaları – 108-ci qeyddə müəyyən olunduğu kimi. - Fahişəlik – 82-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Gəlir və ya başqa fayda əldə etmək məqsədi ilə cinsi xidmətlərin təklif edilməsi; cinsi xidmətləri təşkil etmə; uşaq seks-turizmi hesab olunmayan seks-turizm
		-	**İstisnalar:** fahişəlik hesab edilməyən cinsi istismar (0302); uşaq fahişəliyi (030222); 0802-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08022	**Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma** Pornoqrafik materialları və ya əşyaları yayma və ya reklam məqsədilə qanunsuz hazırlama, yayma, reklam etmə, habelə pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyalar ilə qanunsuz ticarət.[109] - İctimai əxlaq normaları – 108-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Pornoqrafik materialları və ya əşyaları yayma və ya reklam məqsədilə qanunsuz hazırlama, yayma, reklam etmə, habelə pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyalar ilə qanunsuz ticarət
		-	**İstisnalar:** Uşaq pornoqrafiyası (030221); cinsi istismar (0302); 0802-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08029	**İctimai mənəviyyat əleyhinə digər əməllər** 08021-08022-ci kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyalara daxil olunmayan ümumi qəbul olunmuş ictimai əxlaq normalarını pozan əməllər. - İctimai əxlaq normaları – 108-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** ictimai yerdə cinsi əlaqədə olma; cinsi münasibətlərin qanunsuz formaları; zorlama və ya cinsi zorakılıq hesab olunmayan qohumluq əlaqələri olan şəxsə qarşı cinsi xarakterli cinayət; heyvana təcavüz; seksual xarakterli əxlaqa zidd yazılar, şəkillər və ya əşyaları yayma
		-	**İstisnalar:** 0802-də sadalanan bütün istisna olunanlar tətbiq olunur

[108] **İctimai əxlaq normaları** - cəmiyyətin üzvləri üçün cinsi həyatla bağlı ümumqəbul olunmuş seksual davranış qaydalarıdır.
[109] **Pornoqrafiya -** real və ya qeyri-real açıq-aydın seksual hərəkətlər edən şəxsi göstərən, yaxud başlıca olaraq seksual məqsədlər üçün şəxsin cinsiyyət orqanlarını nümayiş etdirən istənilən material.

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
0803	**İfadə azadlığına qarşı yönəlmiş əməllər** İfadə azadlığının sərbəstliyinin məhdudlaşdırılmasına yönəlmiş əməllər.[110]	+	**Daxil olunanlar:** 08031-08039-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Qanunsuz senzura; söz azadlığının qanunsuz məhdudlaşdırılması; yaradıcılıq azadlığının məhdudlaşdırılması
08031	**İfadə azadlığının pozulmasına qarşı əməllər** İfadə azadlığı sərbəstliyinə qarşı yönəlmiş əməllər. - İfadə azadlığı - 110-cu qeyddə müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** məcbur etmə (0205)
08032	**Nəzarət edilən ictimai davranış qaydalarının ifadə edilməsi ilə bağlı əməllər** Nəzarət edilən ictimai davranış qaydalarının ifadə edilməsi ilə bağlı materialların dərc edilməsi, istehsalı, saxlanılması, yayılması və ya nümayişi.	+	**Daxil olunanlar:** 080321-080329-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Uşaq pornoqrafiyası (030221); Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma (08022)
080321	**Dini təbliğat aparılması tələblərini pozma** Qadağan olunmuş dini materialların dərc edilməsi, ifadə edilməsi, istehsalı, saxlanılması, yayılması və ya nümayişi.	+	**Daxil olunanlar:** Allaha qarşı asilik; dindən üz çevirmə; prozelitizm
		-	**İstisnalar:** Ayrıseçkilik (0210); zərərçəkmiş şəxsə onun inancı və ya dəyərlərinə görə böhtan və ya təhqir (02092); 08032-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
080322	**Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması** Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədilməsi	+	**Daxil olunanlar:** Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədilməsi
		-	**İstisnalar:** böhtan və ya təhqir (0209); ayrıseçkilik (0210); 08032-də sadalanan bütün istisna olunanlar tətbiq olunur

[110] **İfadə azadlığı -** maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı (BMT. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə. Veb: <http://www.un.org/en/documents/udhr/>**).**

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
080329	**Nəzarət edilən ictimai davranış qaydalarının ifadə edilməsi ilə bağlı digər əməllər** 080321-080322-ci kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyalara daxil olunmayan qadağan olunmuş və ya nəzarət olunan materialların yayılması. - İfadə azadlığı - 110-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** qadağan olunmuş və ya nəzarət olunan materialların yayılması.
		-	**İstisnalar:** 08032-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08039	**İfadə azadlığına qarşı yönəlmiş digər əməllər** 08031-08032-ci kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyalara daxil olunmayan ifadə azadlığına nəzarətlə bağlı əməllər. - İfadə azadlığı - 110-cu qeyddə müəyyən olunduğu kimi.	+	
		-	
0804 **Dövlət büdcəsinin gəlirləri və idarəetmə qaydaları əleyhinə olan əməllər** Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəalara və idarəetmə qaydaları əleyhinə olan əməllər .		+	**Daxil olunanlar:** Vergi ödəməkdən yayınma; hüquqi şəxslərin cinayət törətməsi; Qumarxana təşkil etmə və ya saxlama; 08041-08049-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Ehtiyatsızlıq (0206); təhlükəli əməllər (0207); dələduzluq, aldatma və ya korrupsiya ilə bağlı olan əməllər (07); mədəni sərvətlərin qanunsuz dövriyyəsi (07042)
08041	**Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər** Dövlət büdcəsinin gəlirləri ilə bağlı digər müddəaları pozan əməllər.	+	**Daxil olunanlar:** dövlət büdcəsinə köçürmələrlə bağlı cinayətlər
		-	**İstisnalar:** dələduzluq, aldatma və ya korrupsiya ilə bağlı olan əməllər (07); miqrasiya ilə əlaqədar qanunsuz əməllər (0805); 0804-də sadalanan bütün istisna olunanlara tətbiq olunur
08042	**Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər** Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər.	+	**Daxil olunanlar:** Müflisləşmə zamanı qanunsuz hərəkətlər; qəsdən müflisləşmə; firma adları və əmtəə nişanları ilə bağlı tələbləri pozan cinayətlər; ticarət sahəsini tənzimləyən normaları pozan əməllər; dələduzluq hesab olunmayan investisiya və ya səhmlər sahəsində cinayətlər; sələmçilik
		-	**İstisnalar:** Əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqəli cinayətlər (0503); dələduzluq, aldatma və ya korrupsiya ilə bağlı olan əməllər (07); sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş əməllər (0902); ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər (10); 0804-də sadalanan bütün istisna olunanlar tətbiq olunur

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
08043	**Qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi** Lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən və qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsinin vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurması, habelə xeyli miqdarda gəlir əldə etməklə törədilməsi	+	**Daxil olunanlar:** Lotereyaların (stimullaşdırıcı lotereyalar istisna olmaqla) buna hüququ olmayan şəxs tərəfindən və qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkili və ya keçirilməsinin vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurması, habelə xeyli miqdarda gəlir əldə etməklə törədilməsi
		-	**İstisnalar:** 0804-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08044	**Qaçaqmalçılıq** Gömrük dələduzluğu və malların hər hansı gizli formada gömrük sərhədindən keçirilməsi ilə bağlı olan əməllər.[111]	+	**Daxil olunanlar:** Malların qaçaqmalçılığı; qaçaqmalçılıq mallarının qanunsuz dövriyyəsi
		-	**İstisnalar:** Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (08042); malların saxtalaşdırılması (07022); 0804-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08045	**Bazarın manipulyasiya edilməsi və ya insayderlərin ticarət əməliyyatları** Bazarın manipulyasiyası edilməsi və ya insayderlərin ticarət əməliyyatları.[112] - Bazarın manipilyasiya edilməsi – 112-ci qeyddə müəyyən olunduğu kimi. - İnsayderlərin ticarət əməliyyatları – 112-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Məxfi məlumatlar əsasında maliyyə məhsullarının ticarəti (insayder əməliyyatları), bazar ilə əlaqədar məlumatların qanunsuz açıqlanması, bazar ilə əlaqədar məlumatlardan sui-istifadə halları, bazar əməliyyatlarının manipulyasiyası, qiymətlərin müəyyən olunması
		-	**İstisnalar:** 0804-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08049	**Dövlət idarəetməsi və ya tənzimlənməsi haqqında müddəaları pozan digər əməllər** Dövlət büdcəsinin gəlirləri haqqında normaları pozan və 08041-08045-ci kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyalara daxil olunmayan əməllər.	+	**Daxil olunanlar:** Mədəni irsin qanunsuz istifadə edilməsi; mədəniyyət abidələrinin dağıdılması və ya onlara zərər yetirilməsi; dövlət idarəetməsi əleyhinə digər əməllər
		-	**İstisnalar:** 0804-də sadalanan bütün istisna olunanlar tətbiq olunur

[111] **Qaçaqmalçılıq -** gömrük dələduzluğu və malların hər hansı gizli formada gömrük sərhədindən keçirilməsidir. (Ümumdünya Gömrük Təşkilatı. Gömrük Cinayətlərinin Qarşısının alınması, Araşdırılması və Cəzalandırılması üzrə Qarşılıqlı İnzibati Yardım Konvensiyası (Nayrobi Konvensiyası 1977), Maddə 1, "d" bəndi. Veb: <http://www.wcoomd.org/en/about-us/legal-instruments/~/media/574B25F13D9C4D4BA44AB4CD50A967C5.ashx>.).

[112] **Bazarı manipulyasiya etmə -** tələb və təklifə dair yanlış və ya aldadıcı məlumatlar verən və ya verə bilən əqdlər bağlanması və ya tapşırıqlar (sifarişlər) verilməsi, saxta vasitələrdən istifadə etməklə, yaxud törəmə maliyyə alətləri ilə saxtakarlıqla müşayiət olunan əqdlərin bağlanması və ya belə əqdlərin bağlanması üçün tapşırıq verilməsi, kütləvi informasiya və ya hər hansı digər vasitələrlə törəmə maliyyə alətlərinə dair yanlış və yayındırıcı təsəvvür yaradan və ya yarada biləcək xəbərlərin, şayiələrin və digər məlumatın yayılması.

İnsayderlərin ticarət əməliyyatları - insayder tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan *insayd* məlumatdan tamah və ya başqa şəxsi niyyətlə qanunsuz olaraq istifadə edilməsi və ya əqdlərin bağlanması üçün üçüncü şəxslərə verilməsi. (European Union. Directive European Parliament and of the Council on Criminal Sanctions for Market Abuse (Market Abuse Directive). Strasbourg, 16 April, 2014. Veb: <http://register.consilium.europa.eu/doc/srv?l=EN&f=PE%208%202014%20REV%201>.).

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
0805	**Miqrasiya ilə əlaqədar qanunsuz əməllər** Miqrasiya ilə əlaqədar qanunsuz əməllər.[113]	+	**Daxil olunanlar:** Əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə; xarici vətəndaşların qanunsuz işlədilməsi və yerləşdirilməsi; miqrasiya ilə bağlı yalan məlumatlar vermə; 08051-08059-da sadalanan bütün daxil edilənlər tətbiq olunur
		-	**İstisnalar:** İnsan alveri (0204); Zərərçəkmiş şəxsin xarakterik cəhətləri və xüsusiyyətləri ilə əlaqədar böhtan və ya təhqir (020291); Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma (07023)
08051	**Qanunsuz miqrasiyanın təşkili** Vətəndaşlığı və ya daimi yaşayış yeri olmayan şəxsin dövlət ərazisinə qeyri-qanuni daxil olunmasından birbaşa və ya dolayı yolla, maliyyə və ya digər maddi mənfəətin əldə olunması.[114] [115]	+	**Daxil olunanlar:** Miqrantların qanunsuz daşınması ilə əlaqədar cinayətlər; qanunsuz daşınan miqrantların sığınacaqla təmin olunması
		-	**İstisnalar:** 0805-də sadalanan bütün istisna olunanlar tətbiq olunur
08059	**Miqrasiya ilə əlaqədar digər qanunsuz əməllər** 08051-də təsvir və ya təsnif olunmayan miqrasiya ilə əlaqədar digər qanunsuz əməllər. - Miqrasiya - 113-cü haşiyədə müəyyən edildiyi kimi.	+	**Daxil olunanlar:** Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə; ölkəyə daxil olmaq üçün saxta sənəddən istifadə etmə; xarici vətəndaşın qeyri-qanuni olaraq işlədilməsi və ya evlə təmin olunması; xarici vətəndaşın qanunsuz qalmasını asanlaşdırmaq və ya təşkil etmək
		-	**İstisnalar:** 0805-də sadalanan bütün istisna olunanlar tətbiq olunur

[113] **Miqrasiya** - şəxsin və ya qrup şəxslərin transsərhəd, yaxud ölkə sərhədləri daxilində hərəkətidir. (International Organization for Migration. Key migration terms. Veb: <http://www.iom.int/cms/en/sites/iom/home/about-migration/key-migration-terms-1.html>.).

[114] BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi. BMT-nin ″ Transmilli mütəşəkkil cinayətkarlığa qarşı″ Konvensiyasını tamamlayan ″ Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı″ Protokolu, 2000-ci il. Veb: <http://www.uncjin.org/Documents/Conventions/dcatoc/final_documents_2/convention_smug_eng.pdf>.

[115] **Qanunsuz giriş -** qəbul edən ölkəyə qanuni giriş üçün vacib olan tələblərə riayət etmədən sərhədi keçmə (BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi. BMT-nin ″ Transmilli mütəşəkkil cinayətkarlığa qarşı″ Konvensiyasını tamamlayan ″ Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı″ Protokolu, 2000-ci il. Web: <http://www.uncjin.org/Documents/Conventions/dcatoc/final_documents_2/convention_smug_eng.pdf>.).

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
0806	**Ədalət mühakiməsi əleyhinə yönəlmiş əməllər** Ədalət mühakiməsi əleyhinə yönəlmiş əməllər.[116]	+	**Daxil olunanlar:** Həbs etmə zamanı müqavimət göstərmə; Azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma; ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma; Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə; Bilə-bilə yalan xəbərçilik etmə; Azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma; məhkəmə hökmünü, qərarını, yaxud digər aktını icra etməmə; məhkəmə çağırışlarına riayət olunmaması; məhkəməyə hörmətsizlik etmə; cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalırının normal fəaliyyətini pozma; sübutları saxtalaşdırma; 08061-08069-da sadalanan bütün daxil edilənlər tətbiq olunur
		-	**İstisnalar:** Ölümlə nəticələnən əməllər (01); basqın və hədə-qorxu hesab olunan əməllər (0201)
08061	**Ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma** Ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma.[117]	+	**Daxil olunanlar:** Ədalət mühakiməsinin həyata keçirilməsinə mane olma məqsədilə məhkəmə fəaliyyətinə hər hansı formada müdaxilə etmə; İşin obyektiv, tam və hərtərəfli aparılmasına mane olmaq məqsədilə prokurorun, müstəntiqin və ya təhqiqatçının fəaliyyətinə hər hansı formada müdaxilə etmə
		-	**İstisnalar:** 0806-da sadalanan bütün istisna olunanlar tətbiq olunur
08062	**Ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarını pozma** Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə.[118] - Ədalət mühakiməsi - 116-cı haşiyədə müəyyən edildiyi kimi.	+	**Daxil olunanlar:** Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə
		-	**İstisnalar:** 0806-da sadalanan bütün istisna olunanlar tətbiq olunur
08063	**Cinayətkar niyyət** Şəxsin cinayətkarlarla ünsiyyətdə olmaqla və ya alət və ya başqa materialları saxlamaqla cinayət törətmək niyyətində olmasına işarə edən davranış.	+	**Daxil olunanlar:** Cinayət niyyəti; cinayət törətmək üçün istifadə olunan alətlərin qanunsuz saxlanılması
		-	**İstisnalar:** Mütəşəkkil cinayətkar qrupda iştirak etmə (0905); 0806-da sadalanan bütün istisnalar tətbiq olunur

[116] **Ədalət mühakiməsi –** məhkəmələr tərəfindən həyata keçirilən fəaliyyətdir.
[117] **Ədalət mühakiməsinin həyata keçirilməsi -** ədalət mühakiməsinin işini təmin edən prosedurlardır.
[118] Məhkəmənin hökmü — şəxsin təqsirləndirildiyi əməllərdə onun təqsirli olub-olmaması, təqsirləndirilən şəxsə cəza tətbiq edilib-edilməməsi haqqında birinci və apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışı nəticəsində hakimin (hakimlərin) çıxardığı qərardır.

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
08064	**Qabaqcadan əlbir olma** Cinayət əməlini törətmək üçün digər şəxslərlə sövdələşmə, əməkdaşlıq etmə və ya plan qurma.	+	**Daxil olunanlar:** Cinayət əməlini törətmək üçün sövdələşmə/plan qurma; hazırlıq
		-	**İstisnalar:** Qəsdən adam öldürmə ilə bağlı sövdələşmə (0101); evtanaziya üçün sövdələşmə (0105); dövlət təhlükəsizliyi əleyhinə sövdələşmə (0904); konkret cinayətin törədilməsi ilə bağlı sövdələşmə sövdələşmə hesab olunur; 0806-da sadalanan bütün istisnalar tətbiq olunur
08069	**Ədalət mühakiməsi əleyhinə olan digər əməllər** 08061-08064-cü kateqoriyalarda təsvir və ya təsnif olunmayan ədalət mühakiməsi və ya hüquq mühafizə orqanlarının fəaliyyətinə qarşı əməllər.	+	**Daxil olunanlar:** məhkəməyə hörmətsizlik etmə; cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalırının normal fəaliyyətini pozma
		-	**İstisnalar:** 0806-da sadalanan bütün istisna olunanlar tətbiq olunur
0807 **Demokratik seçkilər ilə əlaqədar qanunsuz əməllər** Demokratik seçkilər ilə əlaqədar əməllər.[119]		+	**Daxil olunanlar:** Vətəndaşın seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə maneolma; seçki komissiyasının üzvü tərəfindən seçki (referendumda iştirak) sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, bilə-bilə səslərin düzgün hesablanmaması, səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin pozulması; seçki kampaniyasının maliyyələşdirilməsi qaydalarının pozulması; 08071-08079-da sadalanan bütün daxil edilənlər tətbiq olunur
		-	
08071	**Seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma** Vətəndaşın seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə maneolma.	+	**Daxil olunanlar:** Vətəndaşın seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə maneolma; vətəndaşı öz iradəsinə zidd səs verməyə məcbur etmə
		-	**İstisnalar:** məcbur etmə (0205); dələduzluq (0701)
08079	**Demokratik seçkilər ilə əlaqədar digər qanunsuz əməllər** 08071-də təsvir və ya təsnif olunmayan demokratik seçkilər ilə əlaqədar əməllər. - Demokratik seçkilər - 119-cu haşiyədə müəyyən edildiyi kimi.	+	**Daxil olunanlar:** Seçki komissiyasının üzvü tərəfindən seçki (referendumda iştirak) sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, bilə-bilə səslərin düzgün hesablanmaması, səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin pozulması; seçki kampaniyasının maliyyələşdirilməsi qaydalarının pozulması; seçkilərdə demokratik prosesin qanunsuz manipulyasiyası
		-	**İstisnalar:** dələduzluq (0701)

[119] **Demokratik seçkilər –** əhalinin hər hansı şəxsi (şəxsləri) hakimiyyət orqanlarına seçməsi qərarını qəbul etdiyi rəsmi prosesdir

BÖLMƏ 08	İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər		
0808	**Əmək qanunvericiliyini pozan əməllər** Əmək qanunvericiliyini pozan cinayət əməlləri.[120]	+	**Daxil olunanlar:** əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi; əmək haqqının minimum məbləği ilə bağlı cinayətlər; uşaq əməyi; qanunsuz olaraq işçinin iş yerinin dəyişdirilməsi və qanunsuz olaraq işdən çıxarılması; 08081-08082-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Miqrasiya ilə əlaqədar qanunsuz əməllər (0805); ehtiyatsızlıq (0206); səhlənkarlıq (02062); sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş əməllər (0902); əmək haqqı ödənilməsində və ya muzdla işə götürmədə ayrı-seçkilik (02010); məcburi əmək (02032); məcburi əmək məqsədi ilə insan alveri (02042)
08081	**Kollektiv əmək müqaviləsi ilə bağlı müddəaların pozulması** Kollektiv əmək müqaviləsini pozan cinayət əməlləri.[121]	+	**Daxil olunanlar:** Kollektiv müqaviləni pozan əməllər; həmkarlar ittifaqı ilə əlaqədar əməllər
		-	**İstisnalar:** 0808-də sadalanan bütün istisnalar tətbiq olunur
08082	**Fərdi əmək müqaviləsi ilə bağlı müddəaların pozulması** Fərdi əmək müqaviləsinə zidd olan cinayət əməlləri.[122]	+	**Daxil olunanlar:** Əmək haqqı ödənilməsi və əmək müqaviləsi ilə bağlı cinayətlər; qanunsuz olaraq işçinin iş yerinin dəyişdirilməsi və qanunsuz olaraq işdən çıxarılması
		-	**İstisnalar:** sağlamlığa təhlükə yaradan əməllər (02071); seksual xarakterli qeyri-fiziki zorakılıq hərəkətləri (030122); 0808-də sadalanan bütün istisnalar tətbiq olunur
0809	**İctimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş digər əməllər** 0801-0808-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan ictimai qayda, hakimiyyət orqanları və dövlətin əsasları əleyhinə yönəlmiş əməllər.	+	**Daxil olunanlar:** ailə qanunvericiliyi ilə əlaqədar normalarının pozulması (məişət zorakılığı cinayətləri və uşaqların nəzarətsizliyi və ya uşaqdan imtina etmə istisna olmaqla); hakimiyyət nümayəndəsini təhqir etmə; Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər; uşağın doğulması ilə bağlı faktın gizlədilməsi; özgənin uşağını dəyişdirmə
		-	**İstisnalar:** 0801-0808-də sadalanan bütün istisnalar tətbiq olunur

[120] **Əmək qanunvericiliyi –** Əmək Məcəlləsi, müvafiq normativ hüquqi aktlardan, əmək, sosial-iqtisadi məsələlərlə əlaqədar Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarət sistem.

[121] **Kollektiv əmək müqaviləsi–** kollektiv müqavilə haqqında normalar və kollektiv təşkilatlar və onların qarşılıqlı əlaqəsi və işəgötürən və ya işçiyə qarşı münasibətlərdən ibarətdir. (European Union. European Foundation for the Improvement of Living and Working Conditions. Web: <http://www.eurofound.europa.eu/emire/SWEDEN/ANCHOR-KOLLEKTIVARBETSR-Auml-TT-SE.htm>.).

[122] **Fərdi əmək müqaviləsi -** işəgötürənlə işçi arasında yaranan fərdi əmək münasibətlərini tənzimləyən sənəddir (European Union. European Foundation for the Improvement of Living and Working Conditions. Individual labour law. Web: <http://www.eurofound.europa.eu/emire/BELGIUM/INDIVIDUALLABOURLAW-BE.htm>.).

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər		
0901	**Silah, partlayıcı maddə və qurğular ilə əlaqədar əməllər** Odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının və digər silah və ya partlayıcı maddələrin saxlanılması, tətbiq edilməsi, hazırlanması, idxalı/ixracı, əldə edilməsi, satışı, çatdırılması, daşınması və ya ötürülməsi.[123]	+	**Daxil olunanlar:** Silahın qanunsuz dövriyyəsi; silahdan qanunsuz istifadə etmə və ya silahın qanunsuz saxlanması; 09011-09019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** qeyd edilənlərdən cinayətin törədilməsində istifadə edilməsi həmin cinayətin kodu üzrə qeyd edilir
09011	**Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğuları saxlama və ya istifadə etmə** Nəzarət olunan və ya qadağan olunmuş odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz saxlanılması və ya istifadə edilməsi.	+	**Daxil olunanlar:** Qadağan olunmuş və ya qeydiyyatdan keçməmiş silah, onun komplekt hissələrinin, döyüş sursatlarının və həmçinin qaz, partlayıcı maddələr və ya kimyəvi, bioloji və ya radioaktiv materiallar kimi digər silahın saxlanılması; silah və ya partlayıcı materialların icazə olmadan qanunsuz əldə edilməsi və ya tətbiq etməsi; qanunsuz olaraq silahdan atəş açma; 090111-090119-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 0901-də sadalanan bütün istisnalar tətbiq olunur
090111	**Odlu silahın qanunsuz saxlanılması və ya ondan istifadə edilməsi** Nəzarət olunan və ya qadağan olunmuş odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının qanunsuz saxlanılması və ya istifadəsi.	+	**Daxil olunanlar:** xüsusi icazəsi olmadan odlu silahın üzərində gəzdirilməsi və ya saxlanılması; qanunsuz olaraq silahdan atəş açma
		-	**İstisnalar:** 09011-də sadalanan bütün istisnalar tətbiq olunur
090112	**Digər növ silahların və ya partlayıcı maddələrin qanunsuz saxlanılması və ya istifadəsi** Nəzarət olunan və ya qadağan olunmuş silahların və ya partlayıcı maddələrin qanunsuz saxlanılması və ya istifadəsi.	+	**Daxil olunanlar:** Odlu silah hesab edilməyən nəzarət olunan və ya qadağan olunmuş silahın saxlanılması və ya istifadəsi; partlayıcı maddələrin xüsusi icazə olmadan qanunsuz əldə edilməsi və ya istifadəsi
		-	**İstisnalar:** 09011-də sadalanan bütün istisnalar tətbiq olunur
090113	**Kimyəvi, bioloji və ya radioaktiv materialların qanunsuz saxlanılması və ya istifadəsi** Nəzarət olunan və ya qadağan olunmuş kimyəvi, bioloji və ya radioaktiv materialların qanunsuz saxlanılması və ya istifadəsi.[124]	+	**Daxil olunanlar:** Qadağan olunmuş və ya qeydiyyatdan keçməyən materialların əldə edilməsi və ya saxlanılması
		-	**İstisnalar:** 09011-də sadalanan bütün istisnalar tətbiq olunur

[123] BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi. BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"u/ Nyu-York, Nyu-York şəhəri, 2001-ci il. Web: <http://www.unodc.org/documents/treaties/Special/2001 Protocol against the Illicit Manufacturing of and Trafficking in Firearms.pdf>.

[124] **Qanunsuz saxlama** – terrorçuluqla mübarizə haqqında hüquqi aktlarda cinayət hesab edilən saxlama ilə bağlı əməllər.

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər		
090119	**Qanunsuz olaraq silah, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələr və qurğuların saxlanılması və ya istifadəsi ilə əlaqədar digər əməllər** 090111-090113-cü kateqoriyalarda təsvir edilməyən və ya bu kateqoriyalara daxil olmayan silahların və partlayıcı maddələrin saxlanılması və ya istifadəsi ilə əlaqədar əməllər.	**+**	**Daxil olunanlar:** Odlu silah üzərində nişanın saxtalaşdırılması, pozulması, silinməsi və ya dəyişdirilməsi; pirotexniki vasitələrlə əlaqədar cinayətlər; odlu silah və ya partlayıcı maddələrin qanunsuz saxlanılması; həyat üçün təhlükəli olan predmetlərin əldə edilməsi
		-	**İstisnalar:** 09011-də sadalanan bütün istisnalar tətbiq olunur
09012	**Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz dövriyyəsi** Silahların və/və ya partlayıcı maddələrin qanunsuz dövriyyəsi.[125]	**+**	**Daxil olunanlar:** Odlu silahın, onun tərkib hissələrinin, komponentlərinin və onların sursatının, nəzarət olunan və ya qadağan olunmuş silah və ya partlayıcı maddələrin, kimyəvi, bioloji və ya radioaktiv materialların qanunsuz hazırlanması və ya dövriyyəsi, qanunsuz ticarəti; 090121-090129-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Kommersiya və ya maliyyə fəaliyyətlərini tənzimləyən müddəaların pozulması ilə bağlı əməllər (08042); Dövlət büdcəsinin gəlirləri ilə bağlı müddəaların pozulması ilə bağlı əməllər (08041); 0901-də sadalanan bütün istisnalar tətbiq olunur
090121	**Odlu silahların qanunsuz dövriyyəsi** Odlu silahın, onun komplekt hissəsinin, döyüş sursatının qanunsuz dövriyyəsi. - Qanunsuz dövriyyə - 125-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Odlu silahın, onun tərkib hissələrinin, komponentlərinin və onların sursatının qanunsuz hazırlanması və ya dövriyyəsi; odlu silahın qanunsuz dövriyyəsi
		-	**İstisnalar:** 09012-də sadalanan bütün istisnalar tətbiq olunur
090122	**Digər növ silahların və ya partlayıcı maddələrin qanunsuz dövriyyəsi** Nəzarət olunan və ya qadağan olunmuş silahların və ya partlayıcı maddələrin qanunsuz dövriyyəsi. - Qanunsuz dövriyyə - 125-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Qadağan olunmuş silah və ya partlayıcı vasitələrin hazırlanması, istehsalı və ya qanunsuz dövriyyəsi
		-	**İstisnalar:** 09012-də sadalanan bütün istisnalar tətbiq olunur
090123	**Kimyəvi, bioloji və ya radioaktiv materialların qanunsuz dövriyyəsi** Nəzarət olunan və ya qadağan olunmuş kimyəvi, bioloji, radioaktiv və ya nüvə materiallarının qanunsuz dövriyyəsi. - Qanunsuz dövriyyə - 125-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Kimyəvi, bioloji və ya radioaktiv materialların hazırlanması, istehsalı və ya qanunsuz dövriyyəsi
		-	**İstisnalar:** 09012-də sadalanan bütün istisnalar tətbiq olunur
090129	**Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz dövriyyəsi ilə əlaqədar digər əməllər** 090121-090123-cü kateqoriyalarda təsvir edilməyən və ya bu kateqoriyalara daxil olmayan silahların və partlayıcı maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar əməllər. - Qanunsuz dövriyyə - 125-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	
		-	**İstisnalar:** 09012-də sadalanan bütün istisnalar tətbiq olunur

[125] **Qanunsuz dövriyyə** dedikdə, aidiyyəti əmlakın qanunsuz hazırlanması, idxalı/ixracı, əldə edilməsi, satılması, çatdırılması, istehsalı, ötürülməsi və ya təhvil verilməsi başa düşülür.

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər		
09019	**Silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular ilə əlaqədar digər qanunsuz əməllər** 09011-09012-ci kateqoriyalarda təsvir edilməyən və ya bu kateqoriyalara daxil olmayan silah və partlayıcı maddələr ilə əlaqədar əməllər.	+	**Daxil olunanlar:** silahla rəftar etmə təlimi təşkil etmə
		-	**İstisnalar:** 0901-də sadalanan bütün istisnalar tətbiq olunur
0902 **Sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş əməllər** İnsan sağlamlığına və təhlükəsizliyinə zərər yetirə biləcək əməllər.[126] - Sağlamlıq - 73-cü qeyddə müəyyən olunduğu kimi.		+	**Daxil olunanlar:** İş yerində sağlamlığın qorunması və ya təhlükəsizliyin təmin edilməsi ilə bağlı cinayətlər; ictimai nəqliyyatda təhlükəsizliklə bağlı cinayətlər; ictimai səhiyyə ilə bağlı cinayətlər; sağlamlıq və təhlükəsizlik üçün risk daşıyan məhsulların hazırlanması; infeksion xəstəliklərə yoluxma halları; karantinlə bağlı cinayətlər; əczaçılıqla bağlı cinayətlər[127]; qida məhsullarının tərkibinin dəyişdirilməsi və insan sağlamlığı üçün təhlükəli qida məhsullarının və ya içkilərin satışına aid edilməyən sanitar qaydaların pozulması; 09021-09029-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** sağlamlığa təhlükə yaradan əməllər (02071); ehtiyatsızlıq (0206); Səhlənkarlıq (02062); nəzarətdə olan narkotik vasitələr və ya psixoaktiv maddələrlə əlaqədar qanunsuz əməllər nəticəsində şəxsin sağlamlığına zərər vurulması (06); dərmanların və resept əsasında buraxılan preparatlarının saxtalaşdırılması (07022)
09021	**İş yerlərində sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş əməllər** İş yerində insan sağlamlığına və təhlükəsizliyinə zərər yetirə biləcək əməllər. - Sağlamlıq - 73-cü qeyddə müəyyən olunduğu kimi. - Təhlükəsizlik - 126-cı qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** İş yerində sağlamlıq və ya təhlükəsizliyin təmin edilməsi ilə bağlı cinayətlər; ictimai nəqliyyatda təhlükəsizliklə bağlı cinayətlər; əczaçılıqla bağlı cinayətlər
		-	**İstisnalar:** sağlamlığa təhlükə yaradan əməllər (02071); dərmanların və resept əsasında buraxılan preparatların saxtalaşdırılması (07022); 0902-də sadalanan bütün istisnalar tətbiq olunur
09029	**Sağlamlıq və təhlükəsizlik əleyhinə yönəlmiş digər əməllər** İş yerindən kənarda insan sağlamlığına və təhlükəsizliyinə zərər yetirə biləcək əməllər. - Sağlamlıq - 73-cü qeyddə müəyyən olunduğu kimi. - Təhlükəsizlik - 126-cı qeyddə müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 0902-də sadalanan bütün istisnalar tətbiq olunur

[126] **Təhlükəsizlik** – zərər və ya ziyandan müdafiə halıdır.

[127] **Əczaçılıqla bağlı cinayətlərə** tibbi məhsulların saxlanması, daşınması və ya yayılması sahəsində normativ tələblərə riayət olunmaması; əczaçılıq məhsullarının əldə etmək hüququ olmayan şəxsə əczaçılıq məhsullarının çatdırılması/satılması; lisenziyası olmayan dilerlərə əczaçılıq məhsulların çatdırılması/satılması; ölkə nişanı və standarlarına uyğun gəlməyən əczaçılıq məhsullarının hazırlanması, idxalı/ixracı və satışı; lisenziya olmadan əczaçılıq məhsullarının hazırlanması, idxalı/ixracı və satışı daxildir.

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər		
0903	**Kibercinayətlər** Kompüter məlumatlarına və ya kompüter sistemlərinə qanunsuz giriş, kompüter sistemində olan kompüter məlumatlarının ələ keçirməsi, kompüter məlumatlarına və ya kompüter sisteminə müdaxilə etmə, yaxud kompüter məlumatları və ya kompüter sistemindən qanunsuz istifadə etmə.[128]	+	**Daxil olunanlar:** 09031-09039-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Kompüter sistem vasitəsi ilə uşaq pornoqrafiyasının saxlanılması, yayılması və ya yaradılması (030221); əqli mülkiyyət hüquqlarını pozma (0503); kompüter sistem vasitəsi ilə pornoqrafiyanın saxlanılması, yayılması və ya yaradılması (08022); kompüter sistemi vasitəsi ilə dələduzluq (0701) və oğurluq (0502)
09031	**Kompüter sisteminə qanunsuz daxil olma** İcazə və ya əsas olmadan kompüter sisteminin hər hansı bir hissəsinə və ya kompüter sisteminə tam daxil olma ilə əlaqədar qanunsuz əməllər.[129] - Kompüter sistemləri - 128-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Hüququ olmadan kompüter sisteminə daxil olma; xakerlik
		-	**İstisnalar:** Şəxsi həyata müdaxilə hesab edilən şəxsi kompüter fayllarına qanunsuz giriş (02011); 0903-də sadalanan bütün istisnalar tətbiq olunur
09032	**Kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxilə** Kompüter sisteminin işinə maneə yaradan qanunsuz əməllər, həmçinin icazəsiz və ya əsassız olaraq kompüter məlumatlarının zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya bloklanması ilə bağlı əməllər.[130] - Kompüter sistemləri - 128-ci qeyddə müəyyən olunduğu kimi. - Kompüter məlumatları - 128-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Kompüter məlumatlarının zədələnməsi, silinməsi, dəyişdirilməsi və ya bloklanması; kompüter sisteminin işinə maneə yaratma; "xidmət göstərməkdən imtina" adı altında kompüter məlumatlarına hücum; icazə olmadan faylların kompüter sistemindən silinməsi; kompüter sisteminin zədələnməsi; 090321-090322-də sadalananbütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Kompüter məlumatı hesab edilməyən əmlaka zərər vurma (0504); 0903-də sadalanan bütün istisnalar tətbiq olunur

[128] **Kompüter məlumatları** - kompüter/informasiya sisteminin emalı üçün yararlı olan maşınla avtomatik oxunan hər hansı faktlar, məlumatlar, konsepsiyalar, anlayışlar (United Nations Office on Drugs and Crime. Comprehensive Study on Cybercrime. 2013. Web. <http://www.unodc.org/documents/organized-crime/UNODC_CCPCJ_EG.4_2013/CYBERCRIME_STUDY_210213.pdf>.).
Kompüter/informasiya sistemi - kompüter/informasiya proqramına uyğun olaraq kompüter verilənlərini/məlumatlarını avtomatik emalını və ya məntiq/arifmetik funksiyanı, yaxud istənilən rabitə vasitələri və ya qurğu və İnternet daxil olmaqla kompüter/informasiya sistemi tərəfindən saxlanılan/emal olunan/çıxarılan/ötürülən kompüter verilənləri/məlumatları daxil olmaqla saxlanılma funksiyalarını həyata keçirən qurğu və ya qarşılıqlı əlaqəli qurğular başa düşülür (United Nations Office on Drugs and Crime. Comprehensive Study on Cybercrime. 2013. Web. <http://www.unodc.org/documents/organized-crime/UNODC_CCPCJ_EG.4_2013/CYBERCRIME_STUDY_210213.pdf>.).
Kompüter/informasiya proqramı - kompüter/informasiya sisteminə kompüter verilənlərini/informasiyanı emal etməyə və ya funksiya/əməliyyatları icra etməyə imkan verən və kompüter/informasiya sistemi ilə icra edilə bilən maşınla (avtomatik) oxunan formada təlimatlar nəzərdə tutulur (United Nations Office on Drugs and Crime. Comprehensive Study on Cybercrime. 2013. Web. <http://www.unodc.org/documents/organ.ized-crime/UNODC_CCPCJ_EG.4_2013/CYBERCRIME_STUDY_210213.pdf>.).
[129] **Giriş -** istənilən kompüter sistemi resurslarının və ya onların köməkçi vasitələrinin istifadə olunması; belə resurslar və ya vasitələrə giriş əldə etmə, onların ekrana çıxarılması və ya onlara komanda verilməsi, yaxud onlarla əlaqə yaratma; onlarda məlumatların saxlanılması və ya onlardan məlumatların çıxarılması; bu resursların məlumatlarının surətinin çıxarılması, yerinin dəyişdirilməsi, əlavə edilməsi, dəyişdirilməsi və ya silinməsi; və ya belə resurslar və ya vasitələrinin fərqli istifadəsi, konfiquriyasiyası və ya rekonfiquriyasiyası (United Nations Office on Drugs and Crime. Comprehensive Study on Cybercrime. 2013. Web. <http://www.unodc.org/documents/organized-crime/UNODC_CCPCJ_EG.4_2013/CYBERCRIME_STUDY_210213.pdf>.).
[130] United Nations Office on Drugs and Crime. *Comprehensive Study on Cybercrime*. 2013. Web: <http://www.unodc.org/documents/organizedcrime/ UNODC_CCPCJ_EG.4_2013/CYBERCRIME_STUDY_210213.pdf>

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər		
090321	**Kompüter sisteminə qanunsuz müdaxilə** Kompüter sisteminin işinə maneə yaradan qanunsuz əməllər. Kompüter sistemləri - 128-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Kompüter sisteminin işinə maneə yaratma; "xidmət göstərməkdən imtina" adı altında hücum; kompüter sisteminin zədələnməsi
		-	**İstisnalar:** 09032-də sadalanan bütün istisnalar tətbiq olunur
090322	**Kompüter məlumatlarına qanunsuz müdaxilə** İcazəsiz və ya əsassız olaraq kompüter məlumatlarının zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya bloklanması ilə bağlı əməllər. - Kompüter məlumatları - 128-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Kompüter məlumatlarının zədələnməsi, silinməsi, dəyişdirilməsi və ya bloklanması; faylların kompüter sistemindən icazəsiz silinməsi
		-	**İstisnalar:** 09032-də sadalanan bütün istisnalar tətbiq olunur
09033	**Kompüter məlumatlarını qanunsuz ələ keçirmə** Ötürmə prosesi zamanı cəmiyyət üçün açıqlanmalı olmayan məlumatların əldə olunması, eləcə də icazəsiz kompüter məlumatlarının (məlumatların surətini çıxarmaqla) əldə olunması da daxil olmaqla, icazəsiz və ya əsassız olaraq kompüter məlumatlarına giriş əldə etməklə bağlı qanunsuz əməllər.[130] - Giriş - 129-cu qeyddə müəyyən olunduğu kimi. - Kompüter məlumatları - 128-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Hüququ olmadan kompüter məlumatlarının ələ keçirilməsi; simsiz şəbəkə daxilində hüququ olmadan ötürülənlərin qeydə alınması; icazə olmadan kompüter fallarının surətinin çıxarılması
		-	**İstisnalar:** Şəxsi həyata müdaxilə hesab edilməyən şəxsi kompüter fayllarına qanunsuz giriş (02011); 0903-də sadalanan bütün istisnalar tətbiq olunur
09039	**Digər kibercinayətlər** 09031-09033-cü kateqoriyalarda təsvir edilməyən və ya bu kateqoriyalara daxil olmayan kompüter sistemləri əleyhinə yönəlmiş əməllər. - Kompüter sistemi - 128-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Kompüterdən qanunsuz istifadə etməyə imkan verən qurğuların istehsalı, satışı, idxalı, yayılması və ya saxlanılması
		-	**İstisnalar:** 0903-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər		
0904	**Dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər** Dövlətin bütövlüyü əleyhinə yönəlmiş əməllər.[131]	+	**Daxil olunanlar:** Dövlətə xəyanət; casusluq; Dövlət sirrini yayma; dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş cinayətlər; müharibə cinayətlərindən ibarət olmayan hərbi xidmət ilə bağlı cinayətlər; təxribat; sabotaj; Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə; Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə; Azərbaycan dövlətinin başçısının — Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma; dövlət əleyhinə yönələn açıq çağırışlar
		-	**İstisnalar:** korrupsiya (0703); İctimai qayda əleyhinə zorakılıqla müşayiət olunan əməllər (08011); hərbi xidmətlə bağlı olmayan hərbi cinayətlər
0905	**Mütəşəkkil cinayətkar qrupun fəaliyyəti ilə əlaqədar əməllər** Mütəşəkkil cinayətkar qrupun fəaliyyətində iştirak etmə[132]	+	**Daxil olunanlar:** Mütəşəkkil cinayətkar qrupun fəaliyyətində iştirak etmə; 09051-09059-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Mütəşəkkil cinayətkar qrup iştirak etməklə törədilmiş cinayətin müvafiq cinayətin ağırladırıcı halı kimi təsnif edilməsi; mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilmiş cinayətlərin təşkilat kontekstində bölgüsü ilə eyniləşdirilməsi
09051	**Mütəşəkkil cinayətkar qrupda iştirak etmə** Mütəşəkkil cinayətkar qrupun fəaliyyətində iştirak etmə. - Mütəşəkkil cinayətkar qrup - 132-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Mütəşəkkil cinayətkar qrupda iştirak etmə
		-	**İstisnalar:** Mütəşəkkil cinayətkar qrup iştirak etməklə törədilmiş cinayətin müvafiq cinayətin ağırladırıcı halı kimi təsnif edilməsi; mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilmiş cinayətlərin şərait kontekstində bölgüsü ilə eyniləşdirilməsi; 0905-də sadalanan bütün istisnalar tətbiq olunur
09059	**Mütəşəkkil cinayətkar qrupun fəaliyyəti ilə əlaqədar əməllər** 09051-ci kateqoriyada təsvir edilməyən və ya bu kateqoriyaya daxil olmayan mütəşəkkil cinayətkar qrup ilə əlaqədar əməllər.	+	
		-	**İstisnalar:** 0905-də sadalanan bütün istisnalar tətbiq olunur

[131] **Bütövlük** dedikdə dəyər, prinsip və normaların həm dövlət, həm də publik sahədə fəaliyyət göstərən təşkilatların fəaliyyətində tətbiq edilməsi başa düşülür.(Organisation for Economic Co-operation and Development. Public Sector Integrity Reviews. Web: <http://www.oecd.org/gov/ethics/publicsectorintegrityreviews.htm>.)

[132] **Mütəşəkkil cinayətkar qrup** birbaşa və ya dolayı yolla maliyyə və ya digər maddi mənfəət əldə etmək üçün bir və ya daha çox ağır cinayətlər və ya hüquqpozmalar törətmək məqsədi ilə müəyyən zaman müddətində birgə fəaliyyət göstərən üç və ya daha çox şəxsdən ibarət yaradılmış struktur qrup başa düşülür. (United Nations Office on Drugs and Crime. United Nations Convention Against Transnational Organized Crime and the Protocols Thereto. New York, NY.: , 2004. Web: <https://www.unodc.org/documents/treaties/UNTOC/Publications/TOC Convention/TOCebook-e.pdf>).

Mütəşəkkil dəstə - cinayət törətmək məqsədilə təsadüfi təşkil edilməyən və üzvləri üçün rəsmi müəyyən edilmiş rollara, üzvlüyünün davamlılığına və ya təkmilləşdirilmiş struktura malik olmağa zərurət duymayan cinayətkar qrupdur (United Nations Office on Drugs and Crime. United Nations Convention Against Transnational Organized Crime and the Protocols Thereto. New York, NY.: , 2004. Web: <https://www.unodc.org/documents/treaties/UNTOC/Publications/TOC Convention/TOCebook-e.pdf>).

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər		
0906	**Terrorçuluq** Terrorçu qrupunun fəaliyyətində iştirak etmə və ya terrorçuluq cinayətləri ilə bağlı fərdi və ya qrup halında hərəkət.[133] - Terrorçuluq - 133-cü qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Terrorçu qrupda iştirak etmə və ya üzv olma; terrorçu fəaliyyətlə əlaqədar təlim keçmə və ya insanları bu fəaliyyətə cəlb etmə; terrorçuluğu maliyyələşdirmə; terrorçuluğa təhrik etmə; 09061-09069-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Terrorçuluq nəticəsində ölüm (0101); törədilmiş terrorçuluq cinayətinin digər cinayətin tərkibində təsnif edilməsi; terrorçuluq və ya terrorçu qrupla əlaqənin şərait konteksti üzrə bölgüyə uyğun olaraq identikləşdirilməsi
09061	**Terrorçu təşkilatda iştirak etmə** Bir və ya bir neçə terror aktı törədilməsi məqsədi ilə təşkilatın fəaliyyətində iştirak etmə. - Terrorçuluq - 133-cü qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Terror təşkilatda iştirak etmə və ya ona üzv olma
		-	**İstisnalar:** 0906-da sadalanan bütün istisnalar tətbiq olunur
09062	**Terrorçuluğu maliyyələşdirmə** Terror əməliyyatlarını, fərdi terrorçuları və ya terrorçu təşkilatları maliyyələşdirmə.[134] - Maliyyələşdirmə - 134-cü qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Terrorçuluğun maliyyələşdirilməsi; terrorçu təşkilatların maliyyələşdirilməsi
		-	**İstisnalar:** 0906-da sadalanan bütün istisnalar tətbiq olunur
09069	**Terrorçu təşkilatın fəaliyyəti ilə əlaqədar digər əməllər** 09061-09062 kateqoriyalarda təsvir edilməyən və ya bu kateqoriyalara daxil olmayan terrorçu təşkilatın fəaliyyəti ilə əlaqədar əməllər. - Terrorçuluq - 133-cü qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Terrorçuluq məqsədləri üçün cəlb etmə və ya təlim keçmə; terrorçuluğa təhrik etmə
		-	**İstisnalar:** 0906-da sadalanan bütün istisnalar tətbiq olunur

[133] **Terrorçuluq** terrorçuluqla mübarizə haqqında hüquqi sənədlərə uyğun olaraq ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər *(terror aktı)* törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə.

[134] **Maliyyələşdirmə** dedikdə terror aktının törədilməsi üçün tam və ya qismən istifadə edilməsi niyyəti ilə yaxud da bu məqsədlə istifadə ediləcəyini başa düşdüyü halda vəsait verilməsi və ya bu vəsaitin yığılması başa düşülür. (United Nations General Assembly. International Convention for the Suppression of the Financing of Terrorism. 1999. E/RES/54/109, Article 2(1b).

BÖLMƏ 09	İctimai və dövlət təhlükəsizliyi əleyhinə yönəlmiş əməllər	
0907 Sağlamlığa zərər vurma ilə nəticələnməyən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma Şəxs tərəfindən sağlamlığa zərər vurma və ya ölümlə nəticələnməyən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ilə bağlı cinayət əmelləri.	**+**	**Daxil olunanlar:** Nəqliyyat vasitəsinin idarə olunması, qeydiyyatdan keçirilməsi və ya yol hərəkəti təhlükəsizliyi ilə bağlı cinayətlər; sürət həddini aşma
	-	**İstisnalar:** Nəqliyyat vasitəsinin idarə edilməsi zamanı ehtiyatsızlıq (02063); psixotrop maddələrin təsiri altında nəqliyyat vasitəsinin idarə edilməsi (02072); əmlaka zərər vurma (0504)
0909 İctimai və dövlət təhlükəsizliyi əleyhinə olan digər əməllər 0901-0907-ci kateqoriyalarda təsvir və ya təsnif olunmayan ictimai və dövlət təhlükəsizliyinə təhlükə yaradan əmellər.	**+**	
	-	**İstisnalar:** 0901-0907-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 10	Ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər		
1001	**Ətraf mühiti çirkləndirən və ya ona ziyan vuran əməllər** Ətraf mühiti çirkləndirən əməllər.[135]	+	**Daxil olunanlar:** Havanın, suyun və torpağın çirkləndirilməsi; 10011-10019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Tullantıların qanunsuz daşınması və ya atılması nəticəsində ətraf-mühitin çirkləndirilməsi (1002); ictimai qayda əleyhinə olan cinayətlər (0801); əmlaka zərər vurma (0504)
10011	**Atmosferi (havanı) çirkləndirmə** Atmosferi (havanı) çirkləndirmə və ya onun təbii xassələrini başqa cür dəyişdirən əməllər.[136]	+	**Daxil olunanlar:** Havanın çirkləndirilməsi
		-	**İstisnalar:** Təbii ehtiyatların tükənməsi və ya azalmasına səbəb olan qanunsuz əməllər (1004); 1001-də sadalanan bütün istisnalar tətbiq olunur
10012	**Suyu (su mənbələrini) çirkləndirmə** Suyu çirkləndirmə və ya onun təbii xassələrini başqa cür dəyişdirən əməllər.[137]	+	**Daxil olunanlar:** Suyun çirkləndirilməsi
		-	**İstisnalar:** Təbii ehtiyatların tükənməsi və ya azalmasına səbəb olan qanunsuz əməllər (1004); Tullantıların daşınması və ya atılması ilə bağlı qanunsuz əməllər (1002); 1001-də sadalanan bütün istisnalar tətbiq olunur
10013	**Torpaqları korlama** Torpaqları zəhərləmə, çirkləndirmə yaxud onları başqa cür korlayan əməllər.[138]	+	**Daxil olunanlar:** Torpağı korlama
		-	**İstisnalar:** Təbii ehtiyatların tükənməsi və ya azalmasına səbəb olan qanunsuz əməllər (1004); Tullantıların daşınması və ya atılması ilə bağlı qanunsuz əməllər (1002); 1001-də sadalanan bütün istisnalar tətbiq olunur

[135] **Ətraf mühit** dedikdə insan fəaliyyətindən asılı olmayaraq onu əhatə edən canlı və cansız təbiətin məcmusu başa düşülür.
[136] **Atmosferi (havanı) çirkləndirmə** atmosferin daxili və ya xarici mühitin birbaşa və ya dolayı təsiri ilə təbii tərkibini dəyişən istənilən kimyəvi, fiziki və ya bioloji komponentlərə yoluxmasıdır. (World Health Organization. Air Pollution. Web: <http://www.who.int/topics/air_pollution/en/index.html>.).
[137] **Suyu (su mənbələrini) çirkləndirmə** dedikdə suda yaşayan canlı resurslara zərər vuran, insan sağlamlığına təhlükə yaradan, balıqçılıq da daxil olmaqla dəniz fəaliyyətinə maneə yaradan, dəniz suyunun keyfiyyətini pisləşdirən və su mühitinin dəyərini aşağı salan birbaşa və ya dolayı yolla su obyektlərinə, su təchizatı və ya dəniz mühitinə (başlanğıcı da daxil olmaqla) maddələrinin və ya enerjinin buraxılması (Organisation for Economic Cooperation and Development. Marine Pollution. Web: <http://stats.oecd.org/glossary/detail.asp?ID=1596>.).
[138] **Torpaqları korlama** dedikdə torpağın birbaşa və ya dolayısı ilə təbii tərkibini dəyişən istənilən kimyəvi, fiziki və ya bioloji komponentlərə yoluxduma başa düşülür.

BÖLMƏ 10	Ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər		
10019	**Ətraf mühiti çirkləndirən və ya ona ziyan vuran digər əməllər** 10011-10013-cü kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyaya daxil olmayan ətraf mühiti çirkləndirən əməllər. - Ətraf mühit – 135-ci qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Səs-küy, vibrasiya, yüksək istilik, işıq və ya radiasiya vasitəsilə çirkləndirmə; təhlükəli, nüvə və kimyəvi maddələr ilə bağlı cinayətlər
		-	**İstisnalar:** 1001-də sadalanan bütün istisnalar tətbiq olunur
1002	**Tullantıların daşınması və ya atılması ilə bağlı qanunsuz əməllər** Tullantıların daşınması və ya atılması ilə bağlı qanunsuz əməllər.[139]	+	**Daxil olunanlar:** Tullantıların qanunsuz dövriyyəsi; tullantıların qanunsuz daşınması; tullantıların qanunsuz atılması; 10021-10022-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** ictimai qayda əleyhinə olan cinayətlər (0801)
10021	**Dövlət sərhədləri daxilində tullantıların daşınması və ya atılması ilə bağlı əməllər** Yaranması, qarşısının alınması və/və ya birbaşa və dolayı nəticələrinin yalnız bir ölkəyə aid olan tullantıların qanunsuz daşınması və ya atılması ilə bağlı əməllər. - Tullantıların daşınması və ya atılması – 139-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Tullantıların ölkə daxilində qanunsuz atılması, tullantıların ölkə daxilində qanunsuz daşınması və ya dövriyyəsi
		-	**İstisnalar:** 1002-də sadalanan bütün istisnalar tətbiq olunur
10022	**Tullantıların transsərhəd daşınması və ya atılması ilə əlaqədar əməllər** Yaranması, qarşısının alınması və/və ya birbaşa və dolayı nəticələri bir neçə ölkəyə aid olan tullantıların qanunsuz daşınması və ya atılması ilə bağlı əməllər. - Tullantıların daşınması və ya atılması – 139-cu qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Tullantıların transsərhəd dövriyyəsi
		-	**İstisnalar:** 1002-də sadalanan bütün istisnalar tətbiq olunur

[139] **Tullantıların daşınması və ya atılması** dedikdə insana ağır və ya havanın, torpağın və ya suyun tərkibinə, yaxud fauna və floraya əhəmiyyətli dərəcədə zərər yetirən və ya yetirə biləcək maddələrin qanunsuz toplanması, daşınması, istifadə edilməsi, basdırılması və ya atılması.

BÖLMƏ 10	Ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər		
1003	**Fauna və floranın mühafizə və ya qadağan olunan növlərinin ticarəti və ya əldə edilməsi** Fauna və floranın mühafizə və ya qadağan olunan növlərinin ticarəti və ya onlara sahib olma.[140]	+	**Daxil olunanlar:** Fauna və floranın mühafizə və ya qadağan olunan növlərinin qanunsuz daşınması, onların qanunsuz ticarəti və ya onlara sahib olma; 10031-10032-də sadalanan bütün daxil edilənlər tətbiq olunur
		-	**İstisnalar:** Ev heyvanını oğurlama (050221); heyvanlar əleyhinə yönəlmiş əməllər (10091); mal-qara soyğunçuluğu (04014); mal-qara oğurluğu (05025)
10031	**Fauna və floranın mühafizə olunan növlərinin qanunsuz ticarəti və ya əldə edilməsi** Fauna və floranın mühafizə olunan növlərinin qanunsuz ticarəti və ya onlara sahib olma. - Mühafizə olunan növlər - 140-cı qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Fil sümüyünün qanunsuz dövriyyəsi; 100311-100312-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 1003-də sadalanan bütün istisnalar tətbiq olunur
100311	**Fauna və floranın mühafizə olunan növlərinin dövlət sərhədləri daxilində qanunsuz ticarəti və ya əldə edilməsi** Fauna və floranın mühafizə olunan növlərinin yalnız bir ölkə daxilində qanunsuz ticarəti və ya onlara sahib olma. - Mühafizə olunan növlər - 140-cı qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Kökünün kəsilməsi təhlükəsi olan növlərin ticarəti və ya onlara qanunsuz sahiblik etmə
		-	**İstisnalar:** 10031-də sadalanan bütün istisnalar tətbiq olunur
100312	**Fauna və floranın mühafizə olunan növlərinin transsərhəd dövriyyəsi** Fauna və floranın mühafizə olunan növlərinin iki və ya daha çox ölkə daxilində qanunsuz idxalı, ixracı, əldə dilməsi, satışı, daşınması və ya ötürülməsi. - Mühafizə olunan növlər - 140-cı qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Fauna və floranın mühafizə olunan növlərinin qanunsuz transsərhəd dövriyyəsi
		-	**İstisnalar:** 1003-də sadalanan bütün istisnalar tətbiq olunur
10032	**Qadağan edilən və ya nəzarətdə olan heyvan növlərinin ticarəti və ya əldə edilməsi** Qadağan edilən və ya nəzarətdə olan heyvan növlərinin qanunsuz ticarəti və ya onlara sahib olma. - Mühafizə olunan növlər - 140-cı qeyddə müəyyən olunduğu kimi.	+	**Daxil olunanlar:** Təhlükəli və ya nəzarət olunan heyvanlara sahiblik etmə; vəhşi heyvanların yetişdirilməsi; qadağan olunan heyvan növlərinin ticarəti
		-	**İstisnalar:** 1003-də sadalanan bütün istisnalar tətbiq olunur

[140] **Növ** – diri və ya ölü heyvan və ya bitki, yaxud onun rahatlıqla tanınan hər hansı hissəsi və ya törəməsidir.
Mühafizə olunan növ ovçuluq/balıq ovu, yaşayış mühitinin dəyişməsi, məhv edilmə və ya başqa səbəblər nəticəsində populyasiyasının az saylı olması səbəbindən kökünün kəsilməsi təhlükəsi olan fauna və ya flora növüdür (*Convention on International Trade in Endangered Species of Wild Fauna and Flora*. 1973. Web: <http://www.cites.org/eng/disc/text.php).
Qadağan olunmuş növ - ətraf mühitə təsir edən xüsusiyyətlərinə görə insanlar üçün təhlükəli olduğu və zərər vura biləcəyi üçün ölkədaxili qanunvericiliklə qadağan olunmuş fauna və flora növüdür. (European Union. *Developing an EU Framework for Invasive Alien Species*. Web: <http://ec.europa.eu/environment/nature/invasivealien/docs/ias_discussion_paper.pdf>.).

BÖLMƏ 10	Ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər		
10039	**Fauna və floranın mühafizə və ya qadağan olunan növlərinin ticarəti və ya əldə edilməsini ehtiva edən digər əməllər** 10031-10032-ci kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyaya daxil olmayan fauna və ya floranın mühafizə və ya qadağan olunan növlərinin qanunsuz ticarəti və ya onlara sahiblik etməni nəzərdə tutan əməllər - Mühafizə olunan növlər - 140-cı qeyddə müəyyən olunduğu kimi.	+	
		-	**İstisnalar:** 1003-də sadalanan bütün istisnalar tətbiq olunur
1004	**Təbii ehtiyatların tükənməsi və ya azalmasına səbəb olan qanunsuz əməllər** Təbii ehtiyatların, fauna və ya flora növlərinin, torpaq, su və ya atmosferin (havanın) qanunsuz istismarı nəticəsində onların tükənməsinə və ya azalmasına səbəb olan əməllər.	+	**Daxil olunanlar:** 10041-10049-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Tükənmə və ya azalmaya aid edilməyən ətraf mühitin çirklənməsi ilə nəticələnən əməllər (1001)
10041	**Qanunsuz ağac kəsmə** Ağacların qanunsuz kəsilməsi, tədarükü, daşınması, alışı və ya satışı.	+	**Daxil olunanlar:** Qanunsuz ağac kəsmə; kəsilmiş ağacları qanunsuz yandırma; qanunsuz qum hasilatı
		-	**İstisnalar:** 1004-də sadalanan bütün istisnalar tətbiq olunur
10042	**Qanunsuz ov etmə, balıq və digər su bioresurslarını qanunsuz tutma və ya fauna və ya flora növlərini qanunsuz toplama** Qanunsuz ov etmə, balıq və digər su bioresurslarını tutma, toplama və ya fauna və floranın növləri qanunsuz əldə etmə.	+	**Daxil olunanlar:** Qanunsuz ov etmə; balıq və digər su bioresurslarını qanunsuz tutma; brakonyerlik
		-	**İstisnalar:** 1004-də sadalanan bütün istisnalar tətbiq olunur
10043	**Faydalı qazıntıların qanunsuz çıxarılması** Torpaqdan mineralların və ya filizin qanunsuz hasilatı.	+	**Daxil olunanlar:** Qiymətli metalların qanunsuz dövriyyəsi; qanunsuz dağ-mədən işləri; ekoloji və təhlükəsizlik normalarını pozmaqla dağ-mədən işlərinin aparılması
		-	**İstisnalar:** 1004-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 10	Ətraf mühitə zərər vurmağa yönəlmiş əməllər		
10049	**Təbii ehtiyatların tükənməsi və ya azalmasına səbəb olan digər qanunsuz əməllər** 10041-10043-cü kateqoriyalarda təsvir olunmayan və bu kateqoriyalara daxil olmayan təbii ehtiyatların tükənməsinə və ya azalmasına səbəb olan əməllər.	**+**	
		-	**İstisnalar:** 1004-də sadalanan bütün istisnalar tətbiq olunur
1009 **Ətraf mühitə zərər vurmağa yönəlmiş digər əməllər** 1001-1004-cü kateqoriyalarda təsvir olunmayan və bu kateqoriyalara daxil olunmayan, həmçinin ətraf mühitə zərər vura biləcək qanunsuz əməllər. - Ətraf mühit – 135-ci qeyddə müəyyən olunduğu kimi.		**+**	**Daxil olunanlar:** fauna və floranın sağlamlığının mühafizəsi sahəsində tədbirlərin görülməməsi; 10091-10092-də sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** 1001-1008-də sadalanan bütün istisnalar tətbiq olunur
10091	**Heyvanlar əleyhinə yönəlmiş əməllər** Heyvanlarla qanunsuz rəftar, onların qanunsuz yetişdirilməsi və ya saxlanılması formaları.	**+**	**Daxil olunanlar:** Heyvana sahib olma və ya onun sağlamlığı ilə bağlı (vəhşi heyvanların ticarəti ilə bağlı cinayət olmayan) cinayətlər; ev heyvanları ilə qəddar rəftar etmə; ov mövsümü qaydalarının pozulması
		-	**İstisnalar:** Ev heyvanlarının oğurlanması (050221); mal-qaranın oğurlanması (05025); mal-qara soyğunçuluğu (04014)
10099	**Ətraf mühitə zərər vurmağa yönəlmiş digər əməllər** 10091-ci kateqoriayada təsvir olunmayan və bu kateqoriyaya daxil olmayan ətraf mühitə zərər vurmağa yönəlmiş digər əməllər. - Ətraf mühit – 135-ci qeyddə müəyyən olunduğu kimi.	**+**	**Daxil olunanlar:** Ozondağıdıcı maddələrin qaçaqmalçılığı; ozondağıdıcı maddələrin qanunsuz istifadə edilməsi
		-	**İstisnalar:** Heyvanlar əleyhinə yönəlmiş əməllər (10091); 1001-1008-də sadalanan bütün istisnalar tətbiq olunur

BÖLMƏ 11	Başqa kateqoriyalara daxil edilməyən digər cinayət əmelləri		
1101	**Universal yurisdiksiya altına düşən əmellər** İnsan hüquqları üzrə universal sənədlərlə tənzimlənən və beynəlxalq məhkəmədə mühakimə oluna bilən əmellər.	+	**Daxil olunanlar:** 10111-11019-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	
11011	**İşgəncə** Şəxsə işgəncə vermə.[141]	+	**Daxil olunanlar:** İşgəncə
		-	**İstisnalar:** Şəxsə zərər vuran və ya zərər yetirməyə yönələn və işgəncə hesab olunmayan əmellər(02)
11012	**Dəniz quldurluğu** Dəniz quldurluğu dedikdə şəxsi məqsədlər üçün şəxsi mülkiyyətdə olan dəniz və ya hava gəmisinin ekipaj və ya sərnişinləri tərəfindən törədilən, açıq dənizdə başqa dəniz və ya hava gəmisinə və ya digər şəxslərə və ya dəniz və ya hava gəmisinin göyərtəsində olan əmlaka, hər hansı dövlətin yurisdiksiyasından kənarda yerləşən yerdə dəniz və ya hava gəmisinə, şəxslərə və ya əmlaka qarşı yönələn hər hansı zorakılıq hərəkətləri və ya istənilən soyğunçuluq (bu cür cinayətlərdə iştirak etmə, onlara təhrik etmə və ya onların törədilməsində köməklik göstərmə də daxil olmaqla).[142]	+	**Daxil olunanlar:** Dəniz quldurluğunda istifadə edildiyini bildiyi halda dəniz və ya hava gəmisinin idarə olunmasında istənilən könüllü iştirak etmə; dəniz quldurluğu törədilməsində istənilən təhrikçilik və ya bilərəkdən kömək etmə; qaçırılma
		-	**İstisnalar:** Şəxsi mülkiyyətdə olan dəniz və ya hava gəmisinin ekipaj və ya sərnişinləri tərəfindən açıq dənizdə törədilməyən cinayətlər konkret cinayətin koduna malikdirlər; talama məqsədi olmadan zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə açıq dənizdə olmayan nəqliyyat vasitəsini sərnişinləri ilə bərabər qanunsuz ələ keçirilməsi (020223)
11013	**Müharibə cinayətləri** Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (Roma Statutu) və 1949-cu il Cenevrə Konvensiyalarında müəyyən olunduğu kimi hərbi münaqişələrdə tətbiq olunan qanunları və adətləri ciddi şəkildə pozan əmellər.	+	**Daxil olunanlar:** Beynəlxalq humanitar hüquqa uyğun olaraq hərbi münaqişə tərəfləri tərəfindən mülki şəxslərin qanunsuz öldürülməsi halları da daxil olmaqla müharibə cinayətləri; hərbi münaqişələrlə bağlı zorlama və Roma Stattunun 8-ci maddəsi ilə müəyyən olunan digər əmellər;[143] 110131-110139-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	

[141] **İşgəncə** dedikdə hər hansı bir şəxsə ondan və ya başqa şəxsdən məlumat almaq, yaxud onun etirafına nail olmaq, onu və ya başqa şəxsi törətdiyi, yaxud törədilməsində şübhələnilən hərəkətə görə cəzalandırmaq, həmçinin onu və ya başqa şəxsi qorxutmaq və ya məcbur etmək, yaxud dövlətin vəzifəli şəxsi və ya rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud da onların təhriki və ya onların bixəbərliyi, yaxud göz yumması ilə hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan istənilən səbəbə görə qəsdən güclü, fiziki, yaxud mənəvi ağrı və əzab yetirən hərəkətlər deməkdir (United Nations. Convention against Torture and Other Cruel, *Inhuman or Degrading Treatment or Punishment. New York, NY, 1984. Web: <http://www.un.org/millennium/law/iv-9.htm>.).*

[142] United Nations. Convention on the Law of the Sea. New York, NY. Web: <http://www.un.org/depts/los/convention_agreements/texts/unclos/part7.htm>.

[143] **Müharibə cinayətləri** Roma Statutuna uyğun olaraq 12 avqust 1949-cu il tarixli Cenevrə konvensiyalarının kobud şəkildə pozulması, beynəlxalq hərbi münaqişələrdə tətbiq olunan qanunların və adətlərin ciddi şəkildə pozulması, beynəlxalq xarakterli olmayan beynəlxalq münaqişələrdə isə - 12 avqust 1949-cu il tarixli Cenevrə konvensiyaları üçün ümumi olan 3-cü maddənin istənilən şəkildə ciddi pozulması və ya beynəlxalq hüquq çərçivəsində müəyyən olunan və belə vəziyyətlərdə tətbiq olunan qanunlar və adətlərin digər ciddi pozulması halları.

BÖLMƏ 11	Başqa kateqoriyalara daxil edilməyən digər cinayət əmelləri		
110131	**Müharibə qanunlarını və adətlərini pozmaqla ölümə və ya sağlamlığa ağır zərər vurmaya səbəb olma** Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (Roma Statutu) və 1949-cu il Cenevrə Konvensiyalarında müəyyən olunduğu kimi hərbi münaqişələrdə tətbiq olunan qanun və adətlərin ciddi şəkildə pozulması nəticəsində ölümə və ya sağlamlığa ağır zərər vurulmasına səbəb olan əməllər.	+	**Daxil olunanlar:** Qəsdən adam öldürmə; əzab vermə və ya ağır bədən xəsarətləri yetirmə, yaxud sağlamlığa ağır zərər vurma; hərbi münaqişə tərəfləri tərəfindən mülki şəxslərin qəsdən öldürülməsi; silahı buraxıb təslim olan kombatantı öldürmə və ya yaralama; müharibənin aparılması üsulu kimi mülki əhalinin qəsdən aclığa məruz qoyulmasına yönələn əməllərin törədilməsi; insanları şikəst etmə və ya insanların maraqları ziddinə tibbi və ya elmi təcrübələri onların üzərində tətbiq etmə; düşmən millətə və ya ordusuna mənsub şəxsləri amansızlıqla öldürmə və ya onları yaralama; mərhəmət göstərilməyəcəyi haqqında bəyanatın verilməsi
		-	**İstisnalar:** Müharibə cinayəti hesab olunmayan qəsdən adam öldürmə (0101); müharibə cinayəti hesab olunmayan qəsdən adam öldürməyə cəhd (0102); müharibə cinayəti hesab olunmayan ehtiyatsızlıqdan adam öldürmə (0103)
110132	**Silahlı münaqişə zamanı hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlaklarını məhv etmə, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq alma** Roma Statutunda və 1949-cu il Cenevrə Konvensiyalarında müəyyən olunduğu kimi hərbi münaqişələrin gedişində hərbi zərurətlə əsaslandırılmayan və qanunsuz olaraq külli miqdarda əmlakın məhv edilməsinə və ya zədələnməsinə səbəb olan əməllər.	+	**Daxil olunanlar:** hərbi zərurətdən irəli gəlməyən geniş miqyaslı dağıntılar törətmə; ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma; müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə; hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən dini, təhsil, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə; mədəni sərvəti qəsdən böyük həcmdə dağıtma və ya mənimsəmə, yaxud mədəni sərvətə münasibətdə oğurluq, soyğunçuluq, qanunsuz mənimsəmə və ya vandalizm aktları törətmə
		-	**İstisnalar:** Hərbi cinayət hesab olunmayan əmlaka zərər vurma (0504)
110133	**Silahlı münaqişə zamanı zorlama, cinsi kölelik, məcburi fahişəlik, məcburi sterilizasiya, məcburi hamilelik, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə** Roma Statutunda və 1949-cu il Cenevrə Konvensiyalarında müəyyən olunduğu kimi müharibənin aparılması üsulu kimi törədilən seksual xarakterli əməllər.	+	**Daxil olunanlar:** Zorlama, cinsi kölelik, məcburi fahişəlik, məcburi hamilelik, məcburi sterilizasiya və ya hərbi münaqişə ilə bağlı olan və Cenevrə konvensiyalarının kobud pozulması hesab olunan cinsi zoraklığın hər hansı digər növləri
		-	**İstisnalar:** Müharibə cinayəti hesab olunmayan cinsi zorakılıq (0301); müharibə cinayəti hesab olunmayan cinsi istismar (0302)
110134	**Silahlı münaqişə zamanı şəxsin azadlıq hüququ və ləyaqəti əleyhinə yönəlmiş əməllər** Roma Statutunda və 1949-cu il Cenevrə Konvensiyalarında müəyyən olunduğu kimi hərbi əsirləri və ya digər müdafiə hüququ olan şəxsləri azadlıqdan məhrum edən və onların ləyaqətini alçaldan əməllər.	+	**Daxil olunanlar:** Hərbi əsirlərin və ya digər müdafiə hüququ olan şəxslərin ədalətli məhkəmə baxışı hüququndan qəsdən məhrum edilməsi; qanunsuz deportasiya və ya daşınma, yaxud qanunsuz azadlıqdan məhrum etmə; adamları girov götürmə; insan ləyaqətini alçaldan əməllər
		-	**İstisnalar:** Şəxsiyyətin azadlığı əleyhinə yönələn və müharibə cinayəti hesab olunmayan əməllər (0202)

BÖLMƏ 11	Başqa kateqoriyalara daxil edilməyən digər cinayət əmelləri		
110135	**Uşaqların hərbi xidmətə çağırışı və ya hərbi xidmətə cəlb edilməsi** Roma Statutunda və 1949-cu il Cenevrə Konvensiyalarında müəyyən olunduğu kimi 15 yaşadək olan uşaqların kombatantlığa (muzdluluğa) cəlb edilməsinə yönələn əmellər.	+	**Daxil olunanlar:** 15 yaşadək olan uşaqların milli silahlı qüvvələrin tərkibində hərbi xidmətə çağırılması və ya cəlb edilməsi, yaxud onlardan aktiv hərbi əməliyyatlarda istifadə edilməsi
		-	**İstisnalar:** Hərbi cinayət hesab olunmayan kölelik və istismar (0203); dövlət orqanları və ya silahlı qüvvələrdə məcburi əmək (020323)
110139	**Digər müharibə cinayətləri** Roma Statutunda və 1949-cu il Cenevrə Konvensiyalarında müəyyən olunan digər əmellər.	+	**Daxil olunanlar:** Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını silahlı münaqişələrdə tətbiq etmə; mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə
		-	
11014	**Soyqırım** Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə.	+	**Daxil olunanlar:** Roma Statunun 6-cı maddəsinə daxil edilmiş əmellər
		-	
11015	**İnsanlıq əleyhinə cinayətlər** İnsanlıq əleyhinə cinayətlər istər sülh, istərsə də müharibə zamanı hər hansı mülki əhaliyə qarşı genişmiqyaslı və ya sistematik hücumların tərkib hissəsi olaraq qəsdən törədilmiş adam öldürmə, məhv etmə, zorlama, təqib və digər analoji xarakterli qeyri-insani əmelləri (əzab vermə, yaxud psixoloji və ya fiziki cəhətdən sağlamlığa ağır zərər vurulması) ehtiva edir.	+	**Daxil olunanlar:** Roma Statunun 7-ci maddəsinə daxil edilmiş əmellər
		-	
11016	**Təcavüz cinayəti** Təcavüz dedikdə dövlətin siyasi və ya hərbi qüvvələrinə faktiki olaraq rəhbərlik və ya nəzərət etmək səlahiyyəti olan şəxs tərəfindən öz xarakteri, ağırlığı və miqyasına görə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin kobud pozulması hesab olunan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma başa düşülür.	+	**Daxil olunanlar:** 2010-cu il dəyişikliyi ilə Roma Statunun 8-ci maddəsinə daxil edilmiş əmellər
		-	

BÖLMƏ 11	Başqa kateqoriyalara daxil edilməyən digər cinayət əmelləri		
11019	**Universal yurisdiksiya altına düşən digər əmellər** 11011-11016-cı kateqoriyalarda təsvir edilməyən və ya bu kateqoriyalara daxil olmayan universal yurisdiksiya altına düşən əmellər.	+	**Daxil olunanlar:** Universal yurisdiksiya altına düşən əmellərin törədilməsi niyyəti ilə qrupların formalaşdırılması
		-	
1102 **Gənclər və ya yetkinlik yaşına çatmayan şəxslərə qarşı yönəlmiş əmellər** Yetkinlik yaşına çatmamış şəxlərə qarşı xüsusi normalarla müəyyən olunmuş qanunsuz əmellər		+	**Daxil olunanlar:** 11021-11029-da sadalanan bütün daxil olunanlar tətbiq olunur
		-	**İstisnalar:** Seksual xarakterli təhlükəli əmellər (03)
11021	**Status hüquqpozmaları** Qanunla müəyyən olunan və ancaq müvafiq şəxslərin yaşı səbəbi ilə cinayət hesab edilən və yetkinlik yaşına çatmamış və ya yetkinlik yaşına çatmış şəxslər tərəfindən yetkinlik yaşına çatmamış şəxslərə qarşı törədilən qanunsuz əmellər.	+	**Daxil olunanlar:** Yetkinlik yaşına çatmamış şəxslər üçün nəzərdə tutulmuş küçəyə çıxma saatını pozma; spirtli içki qəbul edilməsinə icazə verən yaş həddini müəyyən edən normaları pozma; yetkinlik yaşına çatmamış şəxslərə spirtli içki məhsullarını və tütün məmulatlarını satma; yetkinlik yaşına çatmamış şəxslərə hüquqpozan davranışlarında kömək etmək; icbari təhsilin üzrsüz səbəbdən buraxılması; yetkinlik yaşına çatmamış şəxslə nikaha daxil olma
		-	**İstisnalar:** 1102-də sadalanan bütün istisnalar tətbiq olunur
11029	**Gənclər və ya yetkinlik yaşına çatmayan şəxslərə qarşı yönəlmiş digər əmellər** 11021-ci kateqoriyada təsvir olunmayan və ya bu kateqoriyaya daxil olunmayan gənclər haqqında normativ aktlara və ya yetkinlik yaşına çatmamış şəxslər haqqında qanunlara zidd olan əmellər.	+	
		-	**İstisnalar:** 1102-də sadalanan bütün istisnalar tətbiq olunur
1109 **Başqa kateqoriyalara daxil olmayan digər cinayət əmelləri** Ölkənin daxili qanunvericliyində müyyən olunmuş və 1101-1102-ci kateqoriyalarda təsvir olunmayan və ya bu kateqoriyalara daxil olmayan cinayət hesab olunan əmellər.		+	
		-	**İstisnalar:** 1101-1102-də sadalanan bütün istisnalar tətbiq olunur

Cədvəl: 2 Bölünən dəyişənlərin kateqoriyaları[144]

Hadisələr üzrə bölgü				
At - cəhd edilmiş/başa çatdırılmış	**SiC** - Şərait konteksti	**Geo** - cinayətin törədildiyi coğrafi yer	**Rep** - Məlumatın mənbəyi	**DaT** - Tarix və vaxt
1. Cəhd edilmiş[145] 2. Tamamlanmış[146] 3. Tətbiq oluna bilməyən 4. Naməlum	1. Mütəşəkkil cinayətkarlıqla əlaqəli[147] 2.Banda ilə əlaqəli[148] 4.Hüquqi şəxsin törətdiyi cinayətlə əlaqəli[149] 5. Cinsi tərəf müqabili/ailə ilə əlaqəli[150] 6. Terrorçuluqla əlaqəli[151] 7. Kütləvi iğtişaşlar[152] 8. Başqa cinayət 9. Tətbiq oluna bilməyən 10. Naməlum	1. Ölkənin tələb olunan coğrafi rayonu (1-ci, 2-ci səviyyəli və s.) 2. Eksterritorial[153] 3.Tətbiq oluna bilməyən 4.Naməlum	1. Zərərçəkmiş şəxs 2. Şahid (zərərçəkmiş şəxs olmayan) 3. Polis 4. Digər hüquq mühafizə orqanları 5. Penitensiar müəssisə 6.Naməlum	**Tarixin formatı:** gün/ay/il **Vaxtın formatı:** 24:00

[144] Hər bir element və faktor ancaq seçilmiş kateqoriyalara aid ola bilər.
[145] Cinayət törətməyə cəhd.
[146] Cinayət bitib.
[147] Mütəşəkkil dəstədə iştirakçılıq cinayətin törədilməsi üsullarının ayrılmaz hissəsidir. Mütəşəkkil cinayətkar qrup 132-ci qeyddə müəyyən olunduğu kimi.
[148] Bandada iştirakçılıq cinayətin törədilməsi üsullarının ayrılmaz hissəsidir. Banda uzun müddətə mövcud olmaq, küçə tərz həyatı, üzvlərin gənc yaşda olmağı, qanunsuz fəaliyyətdə iştirakçılıq və qrupların oxşarlığı da daxil olmaqla bir sıra xarakteristikaya görə müəyyən olunan bir qrup şəxsdən ibarətdir. Milli hüquq-mühafizə orqanlarının istifadə etdiyi anlayışlara əlavə elementlər də daxil ola bilər və bəzi hallarda həmin ümumi anlayışlardan fərqlənə bilər.
[150] Cinsi tərəf müqabili/ailə ilə bağlı cinayətlər cinayətin icraçısı və zərərçəkmiş şəxslə olan münasibətlərin xarakterinə görə fərqlənir.
[151] Terrorçu qrupda iştirakçılıq cinayətin törədilməsi üsullarının ayrılmaz hissəsidir. Terrorçu qrup terrorçuluq cinayətləri ilə məşğul olan qrupdur.
[152] Kütləvi iğtişaşlar dövlət daxilində iki və daha artıq tərəflər arasında daxili hərbi münaqişə olmayan kollektiv zorakı qarşıdurmasıdır.
[153] Cinayətin törədildiyi coğrafi yer cinayətin törədildiyi yerin dəqiq coğrafi göstəricisini müəyyən edir; eksterritoriallığa aid göstərişlər cinayətin başqa ölkədə törədildiyi halda eksterritoriallıq yurisdiksiyasına uyğun olaraq istintaq araşdırması və ya cinayət işi açılması səbəbi ilə xəbər verən ölkə tərəfindən qeydə alınması hallarında tətbiq edilməlidir. Eksterritoriallıq dedikdə ölkədən kənar törədilən cinayətin ölkələr üçün ölkə sərhədləri daxilində törədilmiş cinayət kimi baxılması imkanı başa düşülür.
[149] Hüquqi şəxsin törətdiyi cinayətdə iştirak cinayətin törədilməsi üsullarının ayrılmaz hissəsi kimi nəzərdən keçirilir.

We – İstifadə edilmiş silahın növü	**Lo -** Cinayətin törədildiyi yer	**Mot -** Motiv	**Cy -** Kibercinayətkarlıqla əlaqədar[154]	
1. Odlu silah[155] 2. Bıçaq və ya iti alət[156] 3. Başqa vasitə[157] 4. Naməlum vasitə[158] 5. Tətbiq oluna bilməyən 6. Naməlum	1. Şəxsi yaşayış yeri[159] 2. Açıq ərazi, küçə və ya ictimai nəqliyyat 3. ümumtəhsil müəssisələri və digər təhsil müəssisələri 4. penitensiar müəssisələr 5. Himayə üçün nəzərdə tutulmuş stasionar müəssisələr[160] 6. Digər kommersiya və ya dövlət qeyri-yaşayış yerləri[161] 7. Digər 8. Naməlum	1. qanunsuz fayda 2. Nifrət zəminində törədilmiş cinayət[162] 3. Gender zəminində törədilmiş cinayət[163] 4. Şəxslərarası münaqişə[164] 5. Siyasi proqram[165] 6. Digər motivlər 7. Tətbiq oluna bilməyən 8. Naməlum	1. Kibercinayətkarlıqla əlaqəli 2. Kibercinayətkarlıqla əlaqəli olmayan 3. Tətbiq oluna bilməyən 4. Naməlum	

[154] Kompüter məlumatlarının və ya kompüter sistemlərinin istifadə edilməsi cinayətin törədilməsi üsullarının ayrılmaz hissəsi olduqda "Kibercinayət" işarəsi tətbiq olunur. Kompüter məlumatları və kompüter sistemləri 128-ci qeyddə müəyyən olunduğu kimi.

[155] **Odlu silah** dedikdə köhnə odlu silah və onun modelləri istisna olmaqla atəş edə bilən, atəş etmək üçün nəzərdə tutulan və ya asanlıqla uyğunlaşdırıla bilən, yaxud partlayıcı maddələrin enerjisi hesabına güllə və ya mərmi sürətini artıran istənilən daşınan qundaqlı silah**.** (BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol". Nyu-York, Nyu-York ştatı, 2001-ci il. Veb: <http://www.unodc.org/documents/treaties/Special/2001 Protocol against the Illicit Manufacturing of and Trafficking in Firearms.pdf>.).

[156] **Bıçaq** dedikdə tutacaqla bərkidilmiş və ülgücdən ibarət olan alət başa düşülür.

[157] **Başqa vasitələrə** zərbə silahları, silah kimi istifadə olunan predmetlər, ox-yay, arbalet, tullama silahları/predmetləri, partlayıcı maddələr, əldə düzəldilmiş silahlar və gürz, şərq döyüşlərində istifadə olunan və bıçaq və ya iti alət olmayan silah daxildirlər.

[158] Cinayətin icraçısının istifadə etdiyi silah müəyyən olunmayıb.

[159] **Fərdi yaşayış sahəsi (ev/şəxsi mənzil)** dedikdə mülkiyyət hüququ əsasında şəxsə aid olan və ya şəxsin kirayələdiyi və ya icarəyə götürdüyü daşınmaz əmlak.

[160] **Himayə üçün nəzərdə tutulmuş stasionar müəssisələrə** xəstəxanalar, psixiatrik klinikalar, internat/qocalar evi, ibtidai (ilkin) həbs evləri və digər himayə üçün nəzərdə tutulmuş stasionar müəssisələr aiddir.

[161] Digər kommersiya və ya dövlət qeyri-yaşayış yerlərinə ictimaiyyət üçün açıq olan ticarət yerləri (pərakəndə satış mağazaları, kafe və restoranlar, klublar, banklar, xidmət stansiyaları, ticarət mərkəzləri və s.); ictimaiyyət üçün qapalı olan ticarət obyektləri (xidmət yerləri, anbarlar, istehsal obyektləri, tikinti meydançaları, avtomobil dayanacaqları, ferma torpaqları və s.); ictimaiyyət üçün açıq olan dövlət qeyri-yaşayış yerləri (muzeylər, kitabxanalar, dövlət xidmətləri və s.); və ictimaiyyət üçün qapalı olan digər dövlət qeyri-yaşayış yerləri (dövlət xidmət yerləri, kommunal təsərrüfat tikililəri, hərbi obyektlər və s.) daxildirlər.

[162] **Nifrət zəminində törədilmiş cinayət** konkret zərərçəkmiş şəxsə qarşı xüsusilə irq, din, etnik mənşə, cinsi oriyentasiya və əlillik kimi onun xüsusiyyətləri, ona aid edilən cəhətlər, düşüncə və dəyərlər səbəbindən yönəlmiş cinayət. Zərərçəkmiş şəxsin xüsusiyyətləri, ona aid edilən xarakterik cəhətlər, inanc və ya dəyərlər 76 və 77-ci qeyddə müəyyən olunduğu kimi. Nifrət zəminində törədilmiş cinayətlərə irqçilik və homofobiya ilə əsaslandırılan cinayətlər daxildirlər. Burа gender zəminində törədilmiş cinayətləri və açıq və ya nəzərdə tutulan siyasi proqramlar zəminində törədilmiş cinayətləri daxil etməmək lazımdır.

İrqi ayrı-seçkilik məqsədi, yaxud nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irqi, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirməni, istisnanı, məhdudiyyəti, yaxud üstün tutulmanı bildirir. (Birləşmiş Millətlər Təşkilatı. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya. 1969-cu il. Veb: <http://www.ohchr.org/EN/ProfessionalInterest/Pages/CERD.asp&xgt).

[163] **Gender** cəmiyyət tərəfindən kişi və qadınlar üçün bərabər hesab edilən sosial rolları, davranış formalarını, fəaliyyət növlərini və xüsusiyyətlərini göstərir.

[164] **Şəxslərarası münaqişə** - sosial münasibətlər gərgin olan vəziyyətlərdə yaranan anlaşılmazlıqları göstərir.

[165] **Siyasi proqram** dedikdə cari və gələcək siyasi xəbərlərə və müzakirələrə nüfuz etməyə çalışan ideoloji və ya siyasi qruplar tərəfindən bəyan edilmiş problemlər toplusu başa düşülür.

Zərərçəkmiş şəxslər üzrə bölgü				
SV - Zərərçəkmiş şəxsin cinsi[166]	**STV** - Zərərçəkmiş şəxsin yaş kateqoriyası	**Cit** - Vətəndaşlıq[167]	**LS** - zərərçəkmiş şəxsin hüquqi statusu[168]	
1. Kişi 2. Qadın 3. Tətbiq oluna bilməyən 4. Naməlum	1. Yetkinlik yaşına çatmamış 2. Yetkinlik yaşına çatmış 3. Tətbiq oluna bilməyən 4. Naməlum	1. Ölkə vətəndaşı 2. Xarici ölkə vətəndaşı 3. Tətbiq oluna bilməyən 4. Naməlum	1. Fiziki şəxs[169] 1a. Fiziki şəxs[170] 1b. Dövlət qulluqçusu[171] 2. Hüquqi şəxs[172] 2a. Fiziki və ya hüquqi şəxs tərəfindən yaradılan hüquqi şəxs[173] 2b. Dövlət tərəfindən yaradılan, dövlət mülkiyyətində olan, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxs[174] 3. Digər hüquqi şəxs 4. Naməlum	
AV - Zərərçəkmiş şəxsin yaşı	**ViP** - Zərərçəkmiş şəxslə cinayət törətmiş şəxs arasında əlaqə		**İnt** - Zərərçəkmiş şəxsin sərxoşluq vəziyyəti	**ES** – Zərərçəkmiş şəxsin iqtisadi fəaliyyətinin statusu
1. 0-14 2. 15-29 3. 30-44 4. 45-59 5. 60+ 6. Naməlum	1. Hazırkı cinsi tərəf müqabili/ həyat yoldaşı 2. Keçmiş cinsi tərəf müqabili/ həyat yoldaşı 3. Qan qohumu 4. Digər ailə üzvü 5. Dost 6. Tanış 7. Həmkar/iş münasibətləri 8. Tabeçilik münasibətləri 9. Zərərçəkmiş şəxsin tanıdığı cinayəti törətmiş başqa şəxs 10. Zərərçəkmiş şəxsin tanımadığı cinayəti törətmiş şəxs 11. Münasibətləri naməlumdur		1. Spirtli içki 2. Narkotik vasitələr 3. Hər ikisi 4. Digər 5. Tətbiq oluna bilməyən 6. Naməlum	İSİC Rev.4 təsnifatında A-U bölmələri [175]

[166] **Cins** kişi və qadını müəyyənləşdirən bioloji və fizioloji xüsusiyyətləri göstərir (World Health Organization. What do we mean by “sex” and “gender.” Web: http://www.who.int/gender/whatisgender/en/)
[167] **Vətəndaşlıq** dedikdə doğuşdan və ya elan edilməklə, seçimlə, nikahla və ölkə qanunvericiliyinə uyğun olaraq başqa üsulla milliləşdirilərkən yaranan şəxslə onun dövləti arasında yaranan konkret hüquqi əlaqə başa düşülür.
[168] **Hüquqi status** dedikdə fiziki və hüquqi şəxslərin statusu başa düşülür.
[169] **Fiziki şəxs** dedikdə hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir.
[170] **Fiziki şəxs** dedikdə dövlət qulluqçusu olmayan fiziki şəxs başa düşülür.
[171] **Dövlət qulluqçusu** dedikdə ölkədaxili qanunvericiliklə müəyyən olunduğu kimi dövlət funksiyalarını icra edən və ya dövlət xidmətlərini göstərən istənilən fiziki şəxs.
[172] Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir.
[173] fiziki və ya hüquqi şəxslər tərəfindən yaradılan hüquqi şəxslər başa düşülür.
[174] Dövlət tərəfindən yaradılan, dövlət mülkiyyətində olan, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan dövlət tərəfindən yaradılan hüquqi şəxslər başa düşülür.
[175] Beynəlxalq Standartlar Sahə təsnifatı, 4-cü təkrar baxılmış variant.

Cinayət törətmiş şəxslər üzrə bölgü				
SP - Cinayətkarın cinsi	**STP** - Cinayətkarın yaş kateqoriyası	**Cit** - Vətəndaşlıq	**LS** - Cinayətkarın hüquqi statusu	**Rec** -Təkrar cinayəti törətmiş şəxs/residivist[176]
1. Kişi 2. Qadın 3. Tətbiq oluna bilməyən 4. Naməlum	1. Yetkinlik yaşına çatmamış 2. Yetkinlik yaşına çatmış 3. Tətbiq oluna bilməyən 4. Naməlum	1. Ölkə vətəndaşı 2. Xarici ölkə vətəndaşı 3. Tətbiq oluna bilməyən 4. Naməlum	1. Fiziki şəxs[169] 1a. Fiziki şəxs[170] 1b. Dövlət qulluqçusu [171] 2. Hüquqi şəxs[172] 2a. hüquqi şəxs[173] 2b. Dövlət mülkiyyətində olan, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxs[174] 3. Digər hüquqi şəxs 4. Naməlum	1. Residivist 2. Residivist olmayan 3. Tətbiq oluna bilməyən 4. Naməlum
AP - Zərərçəkmiş şəxsin yaşı	**ViP** - Zərərçəkmiş şəxslə cinayət törətmiş şəxs arasında əlaqə		**İnt -** Cinayət törətmiş şəxsin sərxoşluq vəziyyəti	**EASt -** Cinayətkarın iqtisadi fəaliyyətinin statusu
1. 0-14 2. 15-29 3. 30-44 4. 45-59 5. 60+ 6. Naməlum	1. Hazırkı cinsi tərəf müqabili/həyat yoldaşı 2. Keçmiş cinsi tərəf müqabili/həyat yoldaşı 3. Qan qohumu 4. Digər ailə üzvü 5. Dost 6. Tanış 7. Həmkar/iş münasibətləri 8. Tabeçilik münasibətləri 9. Zərərçəkmiş şəxsin başqa tanıdığı cinayəti törətmiş şəxs 10. Zərərçəkmiş şəxsin tanımadığı cinayəti törətmiş şəxs 11. Münasibətləri naməlumdur		1. Spirtli içki 2. Narkotik vasitələr 3. Hər ikisi 4. Digər 5. Tətbiq oluna bilməyən 6. Naməlum	1. Muzdlu işçi 2. Məşğulluq (muzdlu işçi cəlb etmədən) 3. İşəgötürən (muzdlu işçi cəlb etməklə) 4. İşsiz 5. Tələbə/stajçı 6. Evdar xanım/bəy 7. Təqaüdçü/əlilliyi olan şəxs 7a. Təqaüdçü 7b. Əlilliyi olan şəxs 8. Naməlum
Məlumatların təsviri/Daxil edilənlər				
Th - Hədə-qorxu [177]				
AA - Əlbirlik[178]				
Ac - Sövdələşmə[179]				
CP - Konspirasiya/planlaşdırma/hazırlıq [180]				
In - Cinayətin törədilməsinə təhrikçilik [181]				

[176] Cinayəti təkrar törətmiş cinayətkar/ residivist.
[177] Hədə-qorxu 02012-ci qeyddə müəyyən olunduğu kimi.
[178] **Əlbirlik** dedikdə cinayətin törədilməsində iştirak etmədiyi halda onun törədildiyi anacan və ya törədildikdən sonra məsləhətləri, hərəkətləri və ya maliyyə dəstəyi ilə törədilməsində yardım etmiş şəxs başa düşülür.
[179] **Sövdələşmə** dedikdə o anlaşılır ki, şəxs cinayət törədilərkən həmin yerdə olub və öz məsləhətləri, hərəkətləri və ya maliyyə dəstəyilə cinayətin törədilməsinə yardım edib.
[180] Konspirasiya/planlaşdırma/hazırlıq 08064-də müəyyən olunduğu kimi
[181] **Cinayəti törətməyə təhrik etmə** dedikdə qanunsuz davranış doğurma və ya şəxsi qanunsuz davranışa təhrik etmə başa düşülür.

Cədvəl: 3 Qəsdən adam öldürmənin əlavə bölgüsü (1): Şərait

<table>
<tr><th colspan="4">Qəsdən adam öldürmənin konteksti</th></tr>
<tr><td rowspan="4">Başqa cinayət fəaliyyəti ilə əlaqəli adam öldürmə[182]</td><td rowspan="2">Mütəşəkkil cinayətkar qrup və ya banda ilə əlaqəli qətl</td><td>Mütəşəkkil cinayətkar qrup ilə əlaqəli qətl</td><td rowspan="2">Zərərçəkmiş şəxs və ya cinayətkar mütəşəkkil cinayətkar qrupun/bandanın üzvü olublar və ya cinayət elə bir şəkildə törədilib ki, mütəşəkkil cinayətkar qrup/banda ilə əlaqəlidir.</td></tr>
<tr><td>Banda ilə əlaqəli qətl</td></tr>
<tr><td rowspan="2">Başqa cinayət fəaliyyəti ilə əlaqəli qətl</td><td>Soyğunçuluq ilə əlaqəli qətl</td><td rowspan="2">Ehtimal olunur ki, qətl ilkin cinayəti tamamlamaq və/və ya ifşa olunmaqdan qaçmaq üçün törədilib. Qətl cinayət əməlinin əsas məqsədi deyil.</td></tr>
<tr><td>Başqa cinayətin törədilməsi zamanı qətl</td></tr>
<tr><td rowspan="2">Şəxsi münasibət zəminində törədilmiş qətl[183]</td><td colspan="2">Cinsi tərəf müqabili/ailə üzvü</td><td>Zərərçəkmiş şəxs və cinayətkarın münasibəti təsnifatına uyğun olaraq cinsi tərəf müqabili və ya ailə üzvü tərəfindən törədilmiş qətl. Buraya hazırkı və ya keçmiş tərəf müqabili/həyat yoldaşı, cinsi tərəf müqabili/həyat yoldaşı olmayan şəxs tərəfindən törədilən qətl; övladın qətlə yetirilməsi və ya valideynin öldürülməsi daxil edilir.</td></tr>
<tr><td colspan="2">Şəxsi münasibət zəminində törədilmiş qətlin başqa növləri</td><td>Cinsi tərəf müqabili və ya ailə üzvü olmayan şəxsin öldürülməsi. Buraya qonşulararası mübahisələr və ya əmlak mübahisələri ilə bağlı qətl, intiqam alınması ilə bağlı qətl və ya ilk baxışdan təsadüf görünən təşviq olunmamış (davalardan iğtişaşlara qədər bütün qarşıdurmalarda törədilən qətl) qətllər daxildir.</td></tr>
<tr><td rowspan="4">Sosial-siyasi zəmində qətl</td><td colspan="2">Sosial düşüncələrlə bağlı qətl</td><td>Nifrət zəminində qətl (konkret zərərçəkmiş şəxsi onun xüsusiyyətləri, ona aid edilən xarakterik cəhətlər, inanc və dəyərlər səbəbindən qətlə yetirmə) daxil olmaqla, konkret sosial qrupa qarşı zor tətbiq etmək nəticəsində qətl. Sosial düşüncə xüsusiyyətləri, ona aid edilən xarakterik cəhətlər, inanc və dəyərlər səbəbindən ayrı-seçkilik başa düşülür. Xüsusiyyət və xarakterik cəhətlərə cins, gender mənsubiyyəti, cinsi oriyentasiya, yaş, dil, etnik mənşə, əlillik və/və ya irq daxildir. İnanc və dəyərlərə, dini inanc və/və ya iqtisadi və sosial baxışlar daxildir.</td></tr>
<tr><td colspan="2">Siyasi proqramlarla bağlı qətl</td><td>Terror qruplarının siyasi tələblər irəli sürməsi ilə bağlı törədilən qətl, siyasi qətl və siyasi səbəblərdən jurnalistlərin məqsədli şəkildə qətlə yetirilməsi daxil olmaqla siyasi baxışlarla bağlı qəsdən adam öldürmə. Siyasi proqram siyasi və ideoloji təşkilatın bəyan etdiyi dəyərlər, inanc və ya problemlər məcmusudur.</td></tr>
<tr><td colspan="2">Kütləvi iğtişaşlar zamanı qəsdən adam öldürmə[184]</td><td>Kütləvi iğtişaşlar zamanı qəsdən adam öldürmə.</td></tr>
<tr><td colspan="2">Başqa sosial-siyasi problemlərlə bağlı qətl</td><td>Buraya, məsələn, kütlə tərəfindən və mühakiməsiz cəzalandırma zamanı zor tətbiq edilərkən törədilən qətl, polis əməkdaşları tərəfindən qəsdən adam öldürmə, cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə və məhkəmədən kənar edamlar daxildir.</td></tr>
</table>

[182] Birbaşa və ya dolayısı ilə qanunsuz fayda əldə edilməsinə yönəlmiş başqa cinayət fəaliyyəti ilə əlaqəli olaraq qəsdən adam öldürmə

[183] burada cinayət münaqişənin həlli üsulu və/ və ya zərərçəkmiş şəxsin cəzalandırılması məqsədi daşıyır. O ikinci dərəcəli məqsədə çatmaq vasitəsi deyildir.

[184] **Kütləvi iğtişaşlar** dövlət daxilində iki və daha artıq tərəflər arasında daxili hərbi münaqişə olmayan kollektiv zorakı qarşıdurmasıdır.

Cədvəl: 4 Qəsdən adam öldürmənin əlavə bölgüsü (2): cinayətkarla zərərçəkmiş şəxs arasında münasibət

<table>
<tr><th colspan="5">Qəsdən adam öldürən cinayətkarla zərərçəkmiş şəxs arasında münasibət</th></tr>
<tr><td rowspan="9">Cinsi tərəf müqabili və ya ailə üzvü</td><td rowspan="5">Cinsi tərəf müqabili</td><td rowspan="3">Hazırkı həyat yoldaşı və ya cinsi tərəf müqabili (birlikdə və ya ayrı yaşayan tərəf müqabili və ya məşuq/məşuqə)</td><td rowspan="2">Hazırkı həyat yoldaşı və ya birlikdə yaşadığı tərəf müqabili</td><td>Həyat yoldaşı</td></tr>
<tr><td>Birlikdə yaşadığı tərəf müqabili</td></tr>
<tr><td colspan="2">Hazırkı birlikdə yaşamadığı tərəf müqabili (məşuq/məşuqə, ancaq nikahda olmayan)</td></tr>
<tr><td rowspan="3">Keçmiş həyat yoldaşı və ya cinsi tərəf müqabili (birlikdə və ya ayrı yaşayan tərəf müqabili və ya məşuq/məşuqə)</td><td rowspan="2">Keçmiş həyat yoldaşı və ya birlikdə yaşadığı tərəf müqabili</td><td>Keçmiş həyat yoldaşı</td></tr>
<tr><td>Keçmiş birlikdə yaşadığı tərəf müqabili</td></tr>
<tr><td colspan="2">Keçmiş birlikdə yaşamadığı tərəf müqabili (məşuq/məşuqə, ancaq nikahda olmayan)</td></tr>
<tr><td rowspan="4">Ailə üzvü</td><td rowspan="3">Qan qohumu</td><td colspan="2">Valideyn</td></tr>
<tr><td colspan="2">Uşaq</td></tr>
<tr><td rowspan="2">Digər qan qohumları</td><td>Birlikdə yaşadığı qan qohumu</td></tr>
<tr><td>Birlikdə yaşamadığı qan qohumu</td></tr>
<tr><td>Digər ailə üzvü və ya nikahdan və övladlığa götürməklə olan qohum[185]</td><td colspan="3"></td></tr>
<tr><td rowspan="5">Zərərçəkmiş şəxsin başqa tanıdığı cinayəti törətmiş şəxs</td><td rowspan="2">Dost/tanış</td><td>Dost</td><td colspan="3"></td></tr>
<tr><td>Tanış</td><td colspan="3"></td></tr>
<tr><td>Həmkar/ işgüzar və ya iş münasibətləri</td><td></td><td colspan="3"></td></tr>
<tr><td>Tabeçilik münasibətləri (həkim/tibb bacısı/müəllim/ polis əməkdaşı/ dövlət qulluqçusu/din xadimi, və s.)</td><td></td><td colspan="3"></td></tr>
<tr><td>Zərərçəkmiş şəxsin başqa tanıdığı cinayəti törətmiş şəxs</td><td></td><td colspan="3"></td></tr>
<tr><td>Zərərçəkmiş şəxsin tanımadığı cinayəti törətmiş şəxs</td><td colspan="4">Zərərçəkmiş şəxsin tanıdığı cinayəti törətmiş başqa şəxs</td></tr>
</table>

[185] Ailənin digər üzvlərinə zərərçəkmiş şəxs kimi eyni ev təsərrüfatında yaşayan şəxslər daxildirlər.

Cədvəl: 5 Qəsdən adam öldürmənin əlavə bölgüsü (3): adam öldürmə mexanizmi

Bu təsnifat Ümumdünya Səhiyyə Təşkilatının Xəstəliklərin Beynəlxalq Təsnifatında (ICD-10) göstərildiyi ölüm səbəblərinin basqın növlərinə uyğun olaraq ümumiləşdirilməsinə əsaslanır. Mötərizədəki hərf və rəqəmlər ICD-10-dakı işarələnməni göstərir.

Adam öldürmə mexanizmləri		
Odlu silah və ya partlayıcı maddələrdən istifadə etməklə basqın	Odlu silah	Yüngül odlu silahdan atəş açma (X93)
		Yivli tüfəng, yivsiz tüfəng və daha iri odlu silahlardan atəş açma (X94)
		Növü göstərilməyən başqa odlu silahlardan atəş açma (X95)
	Partlayıcı maddələr (X96)	
Başqa silah istifadə etməklə basqın	İti alət (X99)	
	Küt alət (Y00)	
	Silah kimi istifadə olunan başqa predmet (mühərrikli nəqliyyat vasitəsi ilə qəsdən üzərinə sürmə və ya üzərindən keçmə daxil olmaqla(Y03))	
Silah istifadə etməməklə basqın	Asma, boğulma və ya boğma (X91)	
	Suda batırmaq	
	Yüksəklikdən düşmə (Y01)	
	Hərəkət edən predmetə itələmə və ya zərərçəkmiş şəxsi hərəkət edən predmetin qarşısına qoymaq (Y02)	
	Fiziki güc	Fiziki güc (zərbə və ya itələmə) (Y04)
		Cinsi xarakterli hücum (Y05)
Digərləri	Narkotik və ya kimyəvi maddələr	*o cümlədən:* Narkotik, dərman və bioloji maddələri tətbiq etməklə basqın (X85) Korroziyaya uğradan maddələri tətbiq etməklə basqın (X86) Pestisid tətbiq etməklə basqın (X87) Qaz və buxar tətbiq etməklə basqın (X88) Başqa göstərilmiş kimyəvi və təhlükəli maddələr tətbiq etməklə basqın (X89) Göstərilməmiş kimyəvi və təhlükəli maddələr tətbiq etməklə basqın (X90)
	Digərləri	*o cümlədən:* Od, alov və tüstü (X97) Buxar, qaynar buxar və qaynar predmetlər (X98) Ehtiyatsızlıq və ya diqqətsiz qoyma (Y06) Düzgün istifadə qaydalarının gözlənilməməsinin başqa halları (Y07) Digər göstərilmiş vasitələri tətbiq etməklə basqın (Y08)
Göstərilməyən vasitələr tətbiq etməklə basqın (Y09)		

Əlavə 1: Məlumatların müqayisəliliyi, hesabat göstəriciləri və hesablama qaydaları

Cinayətkarlıq haqqında inzibati məlumatların şərh edilməsinə və müqayisəliliyinə üç əsas amil təsir edir:

1. Cinayətin müəyyən edilməsi və təsnifləşdirilməsi üsulu;
2. Cinayət təqibi orqanları tərəfindən aşkar olunmuş və ya xəbər verilmiş cinayətlərin payı;
3. Cinayətlərin qeydiyyata alınması və hesablanması üsulu.

Cinayətin müəyyən edilməsi və təsnifləşdirilməsi

Yuxarıda izah olunduğu kimi (bax: Giriş) cinayətkarlıq haqqında inzibati məlumatlar ölkədaxili qanunlara və konsepsiyalara uyğun olaraq tərtib olunur, bunun da səbəbi beynəlxalq müqayisəliliyin olmamasıdır. CSMBT-də verilmiş anlayışların ardıcıl toplanmasının tətbiqi ölkədaxili qanunlar arasında fərqliliklərdən asılı olmayaraq eyni kateqoriyaya daxil edilən cinayətlər haqqında məlumatların onların əsasını təşkil edən eyni hadisəyə (eyni cinayət əməlinə) şamil edilməsini təmin edə bilər. Milli səviyyədə CSMBT-nin həyata keçirilməsi eyni kateqoriya cinayətlər barəsində müxtəlif zaman dövründə dövlət tərəfindən görülmüş tədbirlər və inkişaf istiqamətini müqayisə etməyə imkan verəcək.

Cinayətlər haqqında məlumat verilməsi və onların aşkarlanması

Cinayətkarlıq haqqında inzibati məlumatların izah edilməsi və müqayisə olunması hakimiyyət tərəfindən faktiki olaraq müxtəlif zaman dövrlərində qeydiyyata alınan cinayətlər haqqında "ümumi" göstəricilərdən asılıdır. Məsələn, polis tərəfindən qeydiyyata alınmış cinayətlər haqqında məlumatların öyrənilməsi zamanı nəzərə alınmalıdır ki, açılmamış və qeydə alınmamış cinayətlərin ("cinayətkarlığın qara göstəriciləri") payı çox vaxt əhəmiyyətli dərəcədə çoxdur. Cinayətkarlıq haqqında məlumatların toplanması gedişində cinayətdən zərərçəkmiş şəxslərin müqayisəsi cinayət təqibi orqanlarına xəbər verilmiş cinayətlərin payı haqqında məlumatlar da daxil olmaqla populyasiya daxilində cinayətkarlığın real səviyyəsi haqqında məlumatlarla təmin edə bilər. Zərərçəkmiş şəxslərlə bağlı məlumatların müqayisəsi gedişində üzə çıxmış ümumi qanunauyğunluq ondan ibarətdir ki, hesabat göstəriciləri mübarizə sahəsində dövlət orqanlarının potensialı və cinayətlər haqqında xəbər vermiş şəxslərin onlara etimadı kimi amillərdən asılı olaraq müxtəlif vaxtlarda və müxtəlif ölkələrdə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənə bilər.

Cinayətin qeydə alınması və hesablanması

Cinayətkarlıq haqqında statistik məlumatların şərh edilməsinə və müqayisə olunmasına təsir edən üçüncü əsas amil cinayətlərin müxtəlif qurumlarda qeydə alınması və onların hesablanmasıdır. Məsələn, tədqiqatın tamamlanması ilə cinayəti qeydiyyata alan milli polis idarəsi bir qayda olaraq cinayət haqqında ilk xəbər daxil olan anda onları qeydiyyata alan və hesablayan digər milli polis idarəsindən az sayda cinayətləri qeydiyyata alır. Birinci halda idarədə böyük həcmli sübutlar həqiqətən də təhqiqat və ibtidai istintaq mərhələlərində cinayəti qeydiyyata alan idarədən çox olur. Lakin eyni səviyyələrdə az cinayət qeydiyyata alınır. Çünki bir çox hadisələrin iddia edilən cinayət xarakteri sübut edilmir.
Cinayətlərin ümumi hesablanmasına təsir edə bilən və beləliklə dövlətlərarası və ölkədaxili məlumatların muqayisəliliyini çətinləşdirə bilən elementlər aşağıdakılardır:

- Məlumatın cinayətkarlığın statistikasına daxil edilməsi üçün toplandığı an: dövlət orqanları məlumatları cinayət prosesinin müxtəlif mərhələlərindən toplaya bilər. Məsələn, "daxil olan statistik məlumatlar" dedikdə cinayət haqqında ilk xəbər verildiyi an toplanan məlumatlardır, digər tərəfdən "çıxan statistik məlumatlar" dedikdə, cinayətin ibtidai istintaqından sonra toplanan məlumatlar başa düşülür;
- Statistikada istifadə olunan hesablama vahidi: Bir qayda olaraq, dövlət orqanları hər cinayət üzrə öz operativ tələblərinə əsaslanan hesablama vahidlərindən istifadə edir. Cinayət təqibi orqanları irəli sürülmüş ittihamların, şübhəli bilinən, təqsirləndirilən və zərərçəkmiş şəxslərin sayından, məhkəmələr isə baxılmış işlərin, çıxarılmış hökmlərin və təyin edilmiş cəzaların sayından istifadə edə bilər. Müxtəlif idarələrin məlumatlarının əlaqələndirilməsi üçün eyni hesablama vahidlərindən (şübhəli bilinən şəxslərin sayı və məhkum olunmuş şəxslərin sayı kimi) istifadə etmək zəruridir;

- Əsas cinayət qaydasının tətbiqi:[186] Əsas cinayət qaydası tətbiq olunan ölkələrdə eyni vaxtda bir neçə cinayət törədilərsə, ən ağır cinayətlər qeydiyyata alınır; digər ölkələr hər cinayəti ayrılıqda qeydiyyata alır ki, bu da qeydiyyata alınmış cinayətlərin sayının çoxalmasına gətirir;[187]
- Bir neçə şəxs tərəfindən törədilən cinayətlərin hesablanma üsulu: hesablanma vahidindən asılı olaraq bir hesablanma vahidində cinayətin bir neçə icraçısı və ya bir neçə zərərçəkmiş şəxsi ola bilər. Məhkəmə işi cinayətin bir neçə icraçısına şamil oluna bilər, lakin sonra bir iş kimi qeydiyyata alına bilər, orqan isə işi və ya törədilmiş cinayəti deyil, cinayətin hər bir icraçısını qeydiyyata ala bilər;
- Bir neçə cinayətin hesablama üsulu:[188] Bir şəxs bir sıra adam öldürmə hallarında şübhəli bilinirsə onlar adam öldürməkdə tək şübhəli bilinən şəxs kimi və ya adam öldürməkdə şübhəli bilinən bir neçə şəxs kimi qeydiyyata alına bilər.

Hesablama qaydaları ilə bağlı olan məsələlər özlüyündə cinayətin təsnifi və anlayışı ilə bilavasitə əlaqəli deyil və nəticə etibarilə CSMBT-nin əhatə dairəsi xaricindədir. Beləliklə CSMBT məlumat toplanarkən hansı hesablama qaydaları tətbiq olunmalı olduğuna dair göstərişlər vermir. Bütövlükdə, təcrübə göstərir ki, cinayətlərin qeydiyyatında, cinayət üzrə cinayət prosesi məlumatlarında tətbiq olunan ən müxtəlif hesablama qaydaları mövcuddur və onlar tarixən formalaşaraq milli qeydiyyat sistemlərində dərin kök salmışdır. Bəzi hallarda hesablama qaydalarının konkret tətbiqi məlumatların qeydiyyata alınması və ümumiləşdirilməsi sahəsində olan tərtib edənlərin texniki imkanlarından asılıdır. Cinayətləri kağız üzərində qeydiyyata alan ölkələr kompleks hesablama qaydaları tətbiq olunarkən xüsusi problemlərlə qarşılaşa bilərlər. Bu səbəbdən hesablama qaydalarının uyğunlaşmasına CSMBT-nin struktur və tətbiqindən ayrı bir şəkildə və daha sonrakı mərhələdə baxılsa yaxşıdır. BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi hesablama qaydalarına dair əlavə işlər görülməsini və bu sahədə standartlara və qabaqcıl təcrübələrə dair təlimatın hazırlanmasını planlaşdırır. Cinayətlərin qeydiyyata alınmasının və hesablanmasının müvafiq qaydalarının razılaşdırılmış standartları qəbul edilənə qədər cinayətlər və onların düzgün şərhini təmin edəcək cinayət prosesi ezrə bütün məlumatların təqdim edilməsi zəruridir.

[186] "Əsas cinayət qaydası" dedikdə o anlaşılır ki, bir neçə cinayət eyni zamanda törədilərkən ancaq ən ağır cinayət qeydiyyata alınır. Məsələn, eyni vaxtda həm adam öldürmə, həm də soyğunçuluq törədildiyi güman edilirsə, əsas cinayət qaydasına əsasən ancaq ən ağır cinayət (adam öldürmə) qeydiyyata alınır.

[187] United Nations Office on Drugs and Crime. Forum on Crime and Society. Special issue "Collecting crime data indicators and measurement." Vol. 7. P. 81. 2008. New York, New York. Print.

[188] Aebi, M.F. 2008, "Measuring the Influence of Statistical Counting Rules on Cross-National Differences in Recorded Crime", in HEUNI, Crime and Criminal Justice Systems in Europe and North America 1994-2005, no. 55, pp. 196-214, Helsinki 2008.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi kollegiyasının 12 fevral 2021-ci il tarixli 2/2 nömrəli qərarı.

2. Azərbaycan Standartlaşdırma İnstitutunun 31 mart 2021-ci il tarixli 212323400033 nömrəli əmri.

DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi kollegiyasının 12 fevral 2021-ci il tarixli 2/2 nömrəli qərarı və Azərbaycan Standartlaşdırma İnstitutunun 31 mart 2021-ci il tarixli 212323400033 nömrəli əmri ilə "Cədvəl: 2 Bölünən dəyişənlərin kateqoriyaları" cədvəlinin "Cinayət törətmiş şəxslər üzrə bölgü" hissəsində "Təqaüdçü/əlil" sözləri "Təqaüdçü/əlilliyi olan şəxs" sözləri ilə, "Əlil" sözü "Əlilliyi olan şəxs" sözləri ilə əvəz edilmişdir.

Mündəricat

1. Giriş……..... 3

1.1. Ümumi baxış…… 3

1.1.1. Cinayətlərin Statistik Məqsədlər üçün Beynəlxalq Təsnifatının mahiyyəti və əsas məqsədi 3

1.1.2. Cinayətlər üzrə Beynəlxalq Təsnifatın vacibliyi...……... 4

1.1.3. Ölkənin milli qanunvericiliyində tərifi verilmiş hadisə ilə bağlı beynəlxalq cinayətkarlıq təsnifatının işlənməsi zamanı yaranan problemlər 5

1.1.4. Cinayətlər üzrə Beynəlxalq Təsnifatın yaradılması prosesi 5

2. CSMBT-də istifadə olunan prinsiplər 8

2.1. CSMBT-nin məqsədləri üçün cinayətin tərifi 8

2.2. CSMBT-də təsnifat vahidi 8

2.3. Statistik təsnifatın prinsiplərinin tətbiqi 9

2.4. CSMBT-nin tərtib olunması üçün istifadə olunan meyarlar 11

2.5. Bölünən dəyişənlər cinayətlərin əlavə xarakteristikası kimi 13

2.6. Qəsdən adam öldürmə xüsusi hal kimi 16

2.7. Kütləvi iğtişaşlar zamanı həyatdan məhrum etmə..... 16

2.8. Silahlı münaqişə zamanı adam öldürmə 17

2.9 Qəsdən adam öldürmənin əlavə bölgüləri 18

3. CSMBT-nin tətbiqi 19

3.1. CSMBT məqsədləri üçün cinayətlərin təsnif edilməsi 19

3.2. CSMBT-də hüquqi daxil olunanlar və istisnaların istifadəsi ……..... 20

3.3. Əlavə bölünən dəyişənlər ……..... 21

3.4. Digər beynəlxalq təsnifatlarla qarşılqlı əlaqə …….. 24

4. Geniş və ətraflı struktur ……..... 26

Cədvəl: 1 Cinayətkarlığın Statistik Təsnifatı 39

Cədvəl: 2 Bölünən dəyişənlərin kateqoriyaları 113

Cədvəl: 3 Qəsdən adam öldürmənin əlavə bölgüsü (1): Şərait konteksti 117

Cədvəl: 4 Qəsdən adam öldürmənin əlavə bölgüsü (2): cinayətkarla zərərçəkmiş şəxs arasında münasibət …… 118

Cədvəl: 5 Qəsdən adam öldürmənin əlavə bölgüsü (3): adam öldürmə mexanizmi …… 119

ƏLAVƏ 1: Məlumatlarin müqayisəliliyi, hesabat göstəriciləri və hesablama qaydaları ……..... 120

Cinayətin müəyyən edilməsi və təsnifləşdirilməsi …….. 120

Cinayətlər haqqında məlumat verilməsi və onların aşkarlanması ……... 120

Cinayətin qeydə alınması və hesablanması ……... 120